Ümummilli Lider Heydər Əliyevin
anadan olmasının 98-ci ildönümünə həsr olunmuş

# “Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”

mövzusunda beynəlxalq elmi konfransının

# MATERİALLARI

Bakı - 2021

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Sədr:** | |
| **Elçin Babayev** | **Bakı Dövlət Universitetinin rektoru** |
| **Sədr müavini:** | |
| **İbrahim Zeynalov** | Tarix fakültəsinin dekan vəzifəsini icra edən |
| **Üzvlər:** | |
| Əliş Ağamirzəyev | Bakı Dövlət Universitetinin Sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru |
| Hüseyn Məmmədov | Bakı Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru |
| Mais Süleymanov | Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin direktoru |
| Mahir Pirquliyev | Bakı Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və innovasiyalar mərkəzinin şöbə müdiri |
| Bəxtiyar Nəbiyev | YAP Zahid Xəlilov 23 (BDU) ərazi ilk partiya təşkilatının sədri, Tarix fakültəsinin Tədris işləri üzrə dekan müavini |
| Məhəmməd Mehdiyev | Tətbiqi analizin riyazi üsulları kafedrasının professoru, Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı |
| Əmir Əliyev | Hüquq fakültəsinin dekanı |
| İsgəndər Quliyev | Beynəlxalq münasibətlər və İqtisadiyyat fakültəsinin Beynəlxalq münasibətlər kafedrasının dosenti |
| Kəmalə Nəcəfova | Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini |
| Ramin Səmədov | Bakı Dövlət Universitetinin Humanitar məsələlər, gənclər siyasəti şöbəsinin müdiri |

## PROQRAM KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Anar İsgəndərov | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri |

**Sədr müavini:**

| | |
|---|---|
| Elçin Məmmədov | Filologiya fakültəsinin dekanı |

**Üzvlər:**

| | |
|---|---|
| Yaqub Mahmudov | Tarix fakültəsinin Qədim dünya və orta əsrlər tarixi kafedrasının müdiri |
| Əsməd Muxtarova | Tarix fakültəsinin Türk xalqları tarixi kafedrasının müdiri |
| İradə Hüseynova | Tarix fakültəsinin Qafqaz xalqları tarixi kafedrasının müdiri |
| Elmira Hüseynova | Tarix fakültəsinin Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının müdir əvəzi |
| Abutalıb Cəlilov | Tarix fakültəsinin Slavyan ölkələri tarixi kafedrasının müdiri |
| Azad Rzayev | Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının müdiri |
| Mehman Abdullayev | Tarix fakültəsinin Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrasının müdiri |
| Nuru Məmmədov | Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru |
| Elçin Məmmədov | Tədrisin təşkili və idarə olunması mərkəzinin direktoru |
| İqbal Ağayev | Tarix fakültəsinin Asiya və Afrika ölkələri tarixi kafedrasının müdiri |
| Kərəm Məmmədov | Tarix fakültəsinin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri |

# ÖN SÖZ

2021-ci il may ayının 8-də Bakı Dövlət Universitetində (BDU) Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş “Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu” mövzusunda onlayn Beynəlxalq elmi konfrans keçirilmişdir.

Konfrans işinə başlamadan öncə Universitet kollektivi Fəxri Xiyabanda Ümummilli Lider, müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib, məzarı önünə əklil qoyub, gül dəstələri düzüb. Daha sonra BDU-da Ulu Öndərin büstü önünə gül çələngi qoyulub.

Konfransın plenar iclasını giriş sözü ilə açan BDU-nun rektoru Elçin Babayev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı, müstəqilliyimizin qorunması və milli dövlətçiliyimizin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb. O, bildirib ki, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanda müstəqilliyin, suverenliyin qorunması, ölkədə ictimai-siyasi sabitliyin bərpa edilməsi mümkün olmuşdur. Rektor Elçin Babayev Ümummilli Lider Heydər Əliyevin uğurlu uzaqgörən siyasəti nəticəsində Azərbaycanın dünyanın inkişaf edən, beynəlxalq miqyasda nüfuzu gün-gündən artan dövlətə çevrildiyini, yeni iqtisadi uğurlara imza atdığını qeyd edib. Bildirib ki, Heydər Əliyevin ölkənin müasir tarixində ən böyük xidmətlərindən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunub saxlanılması, inkişafı, ölkəmizdə sabitlik və həmrəyliyin təmin olunması bilavasitə Ulu Öndərin adı ilə bağlıdır. Rektor Elçin Babayev Ulu Öndərin milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində gördüyünü, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirdiyini qeyd etmiş, bildirmişdir ki, Heydər Əliyev şəxsiyyətinin böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual təbəqənin formalaşmasına çalışmışdır. “Təhsil millətin gələciyidir” deyən Heydər Əliyev BDU-nun məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə vurğulamışdır. Ulu Öndərin universitetdə təhsil illəri, habelə sonralar bu təhsil ocağı ilə sıx əlaqələri BDU-nun şanlı tarixinin mühüm bir mərhələsini təşkil edir.

Elçin Babayev Vətən Müharibəsində şanlı qələbəmizin əsasını təşkil edən xalq-iqtidar birliyinin təməlinin məhz Ulu Öndərin hakimiyyəti illərində qoyulduğunu vurğulayaraq qeyd etmişdir ki, Ulu Öndərimizin axıra çatdırmaq istədiyi ən taleyüklü məsələ doğma torpaqlarımızın azad edilməsi idi. Müqəddəs ata vəsiyyətini şərəflə yerinə yetirən möhtərəm Prezidentimiz, yenilməz

sərkərdəmiz İlham Əliyev Müzəffər ordusu, məğrur xalqı ilə birlikdə 44 günlük Vətən Müharibəsində qazandığımız parlaq qələbə ilə xalqımızın başını dünya durduqca uca, Ulu Öndərimizin müqəddəs ruhunu əbədi olaraq şad etdi.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, BDU-nun Politologiya və sosiologiya kafedrasının müdiri, professor Əli Əhmədov görkəmli siyasi xadim Heydər Əliyevin dövlət quruculuğu, daxili və xarici siyasət istiqamətindəki fəaliyyəti ilə bağlı məruzə edib. Natiq qeyd edib ki, Ulu Öndər Heydər Əliyev ölkə iqtisadiyyatını dirçəldib, Azərbaycanı tənəzzül etmiş dövlətdən inkişaf edən ölkəyə çevirib, respublikanın inkişafına hesablanmış neçə-neçə iri layihələrin, xüsusilə uğurlu neft strategiyasının təməlini qoyub. Professor Əli Əhmədov bildirib ki, Azərbaycanda ayrı-ayrı sahələrin inkişafında Heydər Əliyevin nişanələri, müəyyənləşdirdiyi siyasət özünü göstərir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət, dəyərlər, strategiya Azərbaycan xalqına xidmət edir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın inkişafı və tərəqqisi ilə bağlı fikirləri, ideyaları onun layiqli davamçısı ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri, professor Ziyafət Əsgərov “Heydər Əliyev və hüquqi dövlət quruçuluğu”, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) vitse-prezidenti, Ukrayna Ali Radasının beynəlxalq əlaqələr komitəsinin sədri, professor Aleksandr Mereşko “Развитие стратегического партнерства между Украиной и Азербайджаном”, Ukrayna Elmlər Akademiyasının həqiqi üzvü, professor Oleq Zayçuk “Гейдар Алиев и Азербайджано-Украинское сотрудничество в научно-педагогической сфере”, Azərbaycan Respublikası Milli Məclisinin üzvü, BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri, professor Anar İsgəndərov “Türk-müsəlman dünyasının böyük lideri Heydər Əliyev”, Ukrayna Vergi Xidməti Milli Universitetinin professoru Leonid Timçenko “Общенациональный лидер азербайджанского народа - Гейдар Алиев большой друг Украины”, Türkiyə Kastamonu Universitetinin Bilgi və belge yönetimi bölümünün dekan yardımcısı, dosent Güler Demir “Türkiye-Azerbaycan ilişkilerinin kurulmasında Ulu Önder Haydar Aliyevin hizmetleri”, Əl-Fərabi adına Qazaxıstan Milli Universitetinin professoru Aron Salimqerey “Азербайджано-Казахстанские отношения: от партнерства между Казахским национальным университетом имени Аль-Фараби и Бакинским государственным университетом к стратегическому сотрудничеству”, BDU-nun Tarix fakültəsinin professoru İbrahim Zeynalov “1969-1982-ci illərdə Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında başlayan intibah müstəqilliyə aparan başlanğıcdır”, BDU-nun Azərbaycan tarixi kafedrasının müəllimi Anar Həmidovun “Ulu öndər Heydər Əliyevin Azərbaycan SSR-də hərb təhsilinin inkişafında rolu” mövzusunda məruzə ilə çıxış ediblər.

Konfrans öz işini bölmə iclasları ilə davam etdirmişdir.

"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş elmi konfrans iştirakçıların böyük marağına səbəb olmuşdur.

Konfransa Azərbaycan, Ukrayna, Qazaxıstan və Türkiyədən 31 məruzə daxil olmuşdur. Proqram komitəsinin müsbət rəyindən sonra 24 tezis çapa məsləhət görülmüşdür.

***"Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu".***
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# I BÖLMƏ

# HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ XİLASKARI VƏ QURUCUSUDUR

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA HƏRBİ TƏHSİLİN İNKİŞAFI (1969-1982-ci illər)

**Anar Həmidov**
*Bakı Dövlət Universiteti, Azərbaycan tarixi kafedrası (humanitar fakültələr üzrə), doktorant*
*anarhamidov@bsu.edu.az*

**Açar sözlər:** Azərbaycan SSR, Heydər Əliyev, hərbi kadr, hərbi təhsil, XX əsrin 70-80-ci illəri, təhsil
**Keywords:** Azerbaijan SSR, Heydar Aliyev, military cadres, military educationin the 70-80s of the XX century, education
**Ключевые слова:** Азербайджанский ССР, Гейдар Алиев, военные кадры, военное образование в 70-80 годы XX века, образование

XX əsrin 70-ci illəri Azərbaycan xalqının həyatında və taleyində əlamətdar hadisələrlə zəngindir. Keçmiş Sovet Sosialist Respublikalarının tərkibində olmasına baxmayaraq Azərbaycan tərəqqi və inkişaf yoluna qədəm qoymuş, ölkəmiz elm, mədəniyyət, incəsənət, təhsil, səhiyyə və digər sahələrdə öz intibah dövrünü yaşamışdır. Bu dövrdə Heydər Əliyev təhsilin inkişafına böyük diqqəti ən ön plana çəkmiş və ölkənin sosial-inkişafı təhsilin aparıcı istiqamətlərindən biri kimi onun tərəqqisinə nail olmaq üçün bütün lazımlı imkanlardan bəhrələnməyə şərait yaratdı. Azərbaycanda təhsilin bütün sahələri: hərb təhsili, ali təhsil və digər istiqamətlər üzrə təhsil Heydər Əliyevin həmişə diqqətində olmuşdur. Bunu hakimiyyətə gəlişinin ilk vaxtlarında baş tutmuş 1969-cu il 5 avqust Plenumunda səsləndirilən tənqidi fikirlərdən bir daha aydın görmək olardı.

XX əsrin 70-80-ci illərinin əlamatdər hadisələrindən biri kimi ali hərbi təhsil sisteminin yaradılması və bu işin günümüzə kimi uğurla davam etdirilməsini də xüsusilə qeyd etməliyik. Azərbaycanlı gənclərin orta və ali hərbi məktəblərə cəlb edilməsi məsələsi çox ciddi problem olaraq qarşıda dururdu. Bu dövrdə Azərbaycanlı gənclərin ali hərbi qoşun növlərinə deyil, tikinti,

təsərrüfat bölmələrində xidmət etmələri Heydər Əliyevi ciddi narahat edirdi. Məhz buna görə də Azərbaycan Komunist Partiyası Mərkəzi Komitəsinin bürosu 1971-ci il 29 apreldə “Partiya, sovet, komsomol təşkilatlarının və respublikanın hərbi komissarlıqlarının gənclərin xidmət üçün ordu sıralarına hazırlanması və hərbi məktəblərin komplektləşdiriliməsi haqqında”qərar qəbul edildi [1, s. 10].

Artıq tədqiqat dövrü ilə bağlı olaraq hər il 1972-ci ildən etibarən hər il yüzlərlə gəncin SSRİ miqyasında müxtəlif şəhərlərdə yerləşən ali məktəbələrə göndərilməsi hərbi təhsilə göstərilən diqqətin məntiqli təzahürü idi. Həmin gənclərlə mütamədi görüşlərin keçirilməsi onların problemlərinə qayğı ilə yanaşılması Ulu Öndərin diqqətindən kənar qalmırdı.

XX əsrin 60-70-ci illərində Sovet Hərbi Dəniz Qüvvələrinin dünya okeanını mənimsəməsində keyfiyyətcə yeni dəyişikliklər baş verdi. Bu dəyişikliklər Hərbi Dəniz Qüvvələri üçün zabit kadrları hazırlayan hərbi dənizçilik məktəblərinin də tədris fəaliyyətində yeniliklərin həyata keçirilməsini tələb edirdi. Məhz buna görə də həmin dövrdə Xəzər Ali Hərbi Dəniz Məktəbi (XAHDM- A.Həmidov) də öz tədris işlərini donanma zabitlərinin fəaliyyətinin əsas istiqamətlərinə uyğun şəkildə yenidən qurdu. Belə ki, burada hərbi tələblərə uyğun şəkildə dəyişikliklər edilmiş və tədris fənləri dörd əsas bölmədə qruplaşdırılmışdı. Bunlardan biri “ictimai elmlər” bölməsi idi. Bu bölmədə SSRİ-də sosializmin qurulmasının tarixi təcrübəsi; marksist-leninçi fəlsəfə; siyasi iqtisad; elmi kommunizm; hərbi pedaqogikanın və psixologiyanın əsasları; Silahlı Qüvvələrdə partiya-siyasi işlər daxil idi [1, s.12].

Hər il Hərbi Dəniz Donanmasının Ali Hərbi Dənizçilik Məktəbi, həmçinin, Ümumqoşun Komandirləri Məktəbi ildə orta hesabla 350 nəfər gənci qəbul edirdi. Onların arasında Ali Ümumqoşun Komandirləri Məktəbində cəmi beş-altı nəfər, o birisində isə bir-iki nəfər azərbaycanlı idi. Heydər Əliyevin respublikanın rəhbəri seçildiyi ilk illərlə müqayisədə hərbi məktəblərə daxil olan azərbaycanlıların illik sayı təxminən 20 dəfə artmışdı.Yəni, 1971-ci ildə cəmi 46 azərbaycanlı ali hərbi məktəblərə daxil olmuşdusa, 1983-cü ildə onların sayı yuxarıda qeyd edildiyi kimi 812 nəfərə çatmışdı. 1981-1983-cü illərdə Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində və Xəzər Ali Hərbi Dənizçilik Məktəbində respublika gəncləri üçün müvafiq olaraq 225 və 125 yer ayrılmışdı. Bu yerlərə daxil olanların böyük əksəriyyətini azərbaycanlılar təşkil edirdi [3, s.788]. Məktəbin fəaliyyəti dövründə 14,5 min nəfərdən çox zabit kadrları hazırlanmış, həmçinin Hərbi Dəniz Donanmasının bir neçə min zabit və çavuş müxtəlif kurslarda və siniflərdə təhsil almış, yenidən ixtisaslaşmışdır. Bundan başqa, XAHDM 30 ilə yaxın bir dövr ərzində Avropa, Asiya, Afrika və Latın Amerikasının 32 ölkəsinin Hərbi Dəniz Qüvvələri üçün 29 ixtisas üzrə 5 mindən çox hərbi-dəniz mütəxəssisləri hazırlamışdır. Məktəbin 100 nəfərdən çox məzunu sonralar ilk zabit rütbəsindən general və admiral rütbələrinə qədər şərəfli bir yol keçmişdir. Həmçinin, məktəbin yüzlərlə məzunu birinci dərəcəli kapitan

rütbəsinə layiq görülmüşdürlər. Məktəb məzunlarından 20 nəfəri (onlardan 2 nəfəri iki dəfə) yüksək fəxri ada - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər [1, s. 14].

SSRİ Hərbi Dəniz Donanması üçün zabit kadrlarının hazırlanmasında qazandığı böyük nailiyyətlərə görə XAHDM müharibədən sonrakı əmin-amanlıq dövründə bir neçə dəfə yüksək təltiflərə layiq görülmüşdür. O cümlədən 1968-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə XAHDM Qırmızı Bayraq ordeni, 1979-cu ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1980-ci ildə Azərbaycan SSR-in yaradılmasının 60 illiyi münasibətilə Azərbaycan KP MK-nıı, Ali Sovetin Rəyasət Heyətinin, Nazirlər Sovetinin və Azərbaycan Həmkarlar ittifaqının “Xatirə Qırmızı Bayrağı” ilə təltif olunmuşdur. Həmçinin XAHDM xarici ölkələrin Hərbi Dəniz Qüvvələri üçün yüksək dərəcəli mütəxəssislər hazırladığına görə bir neçə ölkənin ən yüksək dövlət orden və bayraqları ilə də təltif olunmuşdur [2, s. 599].

Xalqının taleyini düşünən böyük tarixi şəxsiyyət. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev azərbaycanlı zabit kadrların hazırlanmasını həmişə diqqət mərkəzində saxlayırdı. O, 1973-cü ilin aprel ayında Bakı Birləşmiş Komandirlər Məktəbində olmuş, təhsil müəssisəsinin fəaliyyəti ilə yaxından maraqlanmışdı. Respublika rəhbərinin bu gəlişi məktəbin dinamik fəaliyyəti üçü n bir stimul olmuşdu. Respublikada azərbaycanlı ali təhsilli hərbçi kadrların hazırlanması işinə böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyev 1977-ci ildə general-mayor Valeh Bərşadlının Bakı Birləşmiş Komandirlər Məktəbinə rəis təyin edilməsinə nail oldu. Az vaxt ərzində məktəbdə təhsil alan kursantlar arasında azərbaycanlılar böyük əksəriyyət təşkil etdi [2, s. 600].

Bütün yuxarıda qeyd olunan tədbirlər: baza məktəblərinin yaradılması, hərbi təhsilin inkişaf perspektivlərinin hazırlanması, bu yolda atılmalı addımların dəqiq hesablanması, qarşıda duran indiki və gələcək problemlərin həlli istiqamətində görülən işlər, həmçinin, respublikadan kənara hərbi təhsil almaq üçün göndərilən və bu gün milli kadr olan gənclərin hazırlanması müstəqil Azərbaycan Respublikasının ordu quruculuğu və milli hərbi sisteminin məhz bu illərin təməli üzərində qurulması həqiqətini sübuta yetirir.

Keçmiş SSR-nin ali hərbi məktəblərinə daxil olmanı təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədilə 1971-ci ildə indi “Cəmşid Naxçıvanski adına hərbi litsey” adlandırılan məktəbin təsis edilməsi də bu problemin həlli yolunda ciddi addım oldu. Qeyd etmək lazımdır ki, litseyin açılmasına göstərilən səylər, qarşıya çıxan maneələrin aradan qaldırılması üçün atılan ciddi və qətiyyətli addımlar yüksək qiymətləndirilməlidir. Çünki Heydər Əliyevin təşəbbüsü nəticəsində ölkəmişzdə açılan bu litseyə qarşı təzyiqlər çox olmuş, hətta hərbi litseyin yaradılması ilə bağlı “araşdırma” üçün Bakıya Xüsusi komissiyalar göndərilmişdir. Hərbi litsey ümumilikdə Azərbaycan milli

ordusunun yaranmasında, zabit kadrlarının hazırlanmasında böyük iş görmüş və dəyərli xidmətlər göstərmişdir. Ulu Öndərimiz haqlı olaraq bildirirdi ki, hər bir dövlət üçün vacib şərt dövləti qüdrətli etmək, yaşatmaq üçün onun ordusunun və ordusunu təşkil edən peşəkar zabit korpusunun olmasıdır və bu istiqamətdə Heydər Əliyev əvəzsiz addımlar ataraq, Azərbaycan ordu quruculuğunun bu günkü qələbələri üçün zəmin yaratmışdır.

**Ədəbiyyat siyahısı:**

1.Abdulla Qurbani. Mənim hərbi liseyim. Bakı, 2002, 352 s.
2. Mərdanov Misir. Azərbaycan təhsil tarixi II cild (1920-1991-ci illər). Bakı, Təhsil, 2011, 704 s.
3.Azərbaycan ordusunun tarixi. IV cild (1923-1990). Bakı, Maarif, 2018, 800 s. // http://www.preslib.az/, https://www.ebooks.az/book_VMLIfo4x.html

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# AZƏRBAYCAN TƏHSİLİNİN QURUCUSU HEYDƏR ƏLİYEV

**Aytac Xəlilova**
*Bakı Slavyan Universiteti, Azərbaycan filologiyasi*
a_xllova@mail.ru

**Elmi rəhbər:** Bakı Slavyan Universitetinin
Pedaqogika və psixologiya kafedrasının
doktorantı, müəllimi Cəfərova. S.N.

**Açar sözlər**: Azərbaycan, Heydər Əliyev, təhsil, dəyər, multikulturalizm
**Ключевые слова:** Азербайджан, ГейдарАлиев, образование, ценности, мультикультурализм
**Keywords:** Azerbaijan, Haydar Aliyev, education, value, multiculturalism

Azərbaycan təhsilinin çiçəklənməsində və inkişafında görkəmli dövlət xadimi, Ümummili lider Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev ölkənin, xalqın hərtərəfli rifahı və uğur qazanmasında təhsilin xüsusi rolunu həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Ulu Öndər bu barədə deyirdi: “Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz” [3].

Ümummilli Lider hər bir vətəndaşın həyatını düzgün qurmasını və cəmiyyətdə mövqeyinin formalaşmasını həmişə ön plana çəkərək söyləmişdir: “Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir” [3].

Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında məhz Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər biri-birinə təkan verməklə, vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında və s. elm

adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır.

Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında” sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

O, öz çıxışlarının birində demişdir: “Ölkələr arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə mədəniyyət və elm sahəsində əlaqələrin təsiri böyükdür” [1, s.94].

Heydər Əliyev milli müstəqillik siyasətində milli iftixar hissinə, onun gənclərdə tərbiyə edilməsinə çalışır, gənc nəslə xalqımızın milli mənəvi dəyərlərinə hər zaman hörmətlə yanaşmağı, bu dəyərlərin qorunmasını, inkişafını və gələcək nəsillərə ötürülməsini aşılayırdı. “Biz öz tarixi köklərimizlə, milli köklərimizlə, mənəvi dəyərlərimizlə, milli mənəvi ənənələrimizlə, böyük tariximizlə fəxr edə bilərik.” [2, s.76]. Azərbaycan xalqının tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hər bir müstəvidə bərpa etməsi Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən olmuşdur. Hazırda ölkə Prezidenti cənab İlham Əliyev

tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.

Azərbaycan təhsilinin bütün pillələrində onun hərtərəfli rolu hər zaman ön plana çəkilmiş, təhsil sahəsində aparılan islahatlar daim yenilənmiş və təhsilin beynəlxalq əlaqələri genişlənərək dünya təhsil sistemində inteqrasiyası intensivləşmişdir. Heydər Əliyev siyasətinin layiqli davamçısı Cənab İlham Əliyevin Azərbaycan təhsilinə göstərdiyi xidmət müstəsna əhəmiyyətə malikdir. İlham Əliyevin xüsusi qayğısı sayəsində təhsil sahəsində ən diqqətçəkən nəticələr ölkədə məktəb tikintisinin geniş vüsət alması ilə bağlıdır. Bu problemin həlli – məktəbəqədər təhsil müəssələrinin tikilməsi və yenidən qurulması, məktəblərdə əsaslı təmir-tikinti işlərinin aparılması, müasir tipli yeni təhsil ocaqlarının inşası regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında, ölkə başçısının fərman və sərəncamlarında öz əksini tapmışdır. Hətta sağlamlıq imkanları məhdud şəxslərin təhsildən geri qalmaması ölkə Prezidentinin daim diqqət mərkəzində olmuş və son dövrlər bu istiqamətdə mühüm işlər görülmüş, yeni Dövlət Proqramları hazırlanmışdır.

Azərbaycanda təhsilin inkişafı xalqımızın gələcəyi üçün sağlam vətəndaşların yetişdirilməsinin qarşısında duran ən başlıca vəzifələrdən biridir. Ölkəmizdə nə qədər milli ruhda böyüyən, şüurlu, tərbiyəli gənclər olacaqsa dövlətimiz bir o qədər də çiçəklənəcək, inkişaf edəcəkdir. Sağlam gənclik – sağlam gələcəkdir.

Məhz bu səbəbdən də tolerant, multikultural fikirlərə hörmətlə yanaşan bir cəmiyyətdə böyüyən uşaqların, gənclərin təlim-tərbiyəsi çox vacib və mühüm məsələlərdəndir.

**Ədəbiyyat siyahısı:**

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I kitab. Bakı: Azərnəşr, 1997, 597 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. II kitab. Bakı: Azərnəşr, 1997, 588 s.
3. Heydər Əliyevin müdrik kəlamları: Heydər Əliyev təhsil haqqında http://www.clb.az/html/heydar.aliyev.application.9.html

# HEYDƏR ƏLİYEV YENİ AZƏRBAYCAN PARTİYASININ YARADICISIDIR

**Cavad Yusifli**
*Bakı Dövlət Universiteti, magistr*
*cavadyusifli@gmail.com*

**Açar sözlər:** Heydər Əliyev, Yeni Azərbaycan Partiyası, dövlət müstəqilliyi, hüquqi-demokratik dövlət, Azərbaycan xalqı
**Ключевые слова:** Гейдар Алиев, Партия Йени Азербайджан, государственная независимость, правовое-демократическое государство, азербайджанский народ
**Keywords:** Heydar Aliyev, New Azerbaijan Party, state independence, legal democratic state, Azerbaijani people

Hər bir millətin dövlət müstəqilliyinə və milli azadlığa qovuşması üçün əlverişli siyasi mühit, milli iradə və güclü siyasi lider kimi amillərin olması mütləqdir. Heydər Əliyev Azərbaycan tarixində güclü siyasi lider olmaqla yanaşı, həm də milli dövlətçiliyimizin memarı və qurucusudur. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında əvəzsiz tarixi xidmətləri olmuşdur.

Həmçinin tarixi təcrübə onu göstərir ki, hər bir millət üçün həlledici, vacib məqamlarda ictimai təşkilatlanma və xalqın maraqlarını təmsil edən qüvvələrin bir araya gəlməsi labüddür. Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası da məhz belə bir tarixi zərurətin nümunəsidir. Azərbaycan xalqı hələ 1991-ci ildə müstəqilliyini elan etsə də, dövlət dayaqlarının və müstəqilliyin möhkəmləndirilməsi həmin dövrdə mövcud hakimiyyətin səriştəsizliyi ucbatından mümkün olmamışdı. Bundan başqa, həmin dövrdə Ermənistanın Azərbaycana qarşı apardığı işğal siyasəti və ölkə daxilində baş verən hakimiyyət uğrunda mübarizə yeni əldə edilmiş müstəqilliyimizi təhlükə altında qoyurdu. Məhz belə bir tarixi şəraitdə - ölkənin iflasa və məhvə sürükləndiyi vaxtda bir qrup Azərbaycan ziyalısı və görkəmli şəxslər Heydər Əliyevə müraciət edərək ondan kömək istədilər.

Ziyalılar Heydər Əliyevin xalq üçün nə qədər lazımlı olduğunu bildirirdilər: “Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq, siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan sizin sözünüzü və qəti qərarınızı gözləyir” [2]. Ölkədə baş verən hərc-mərclik,

xaos, anarxiya nəticəsində ünvanlanan çoxsaylı müraciətləri nəzərə alan Ümummilli liderimiz Heydər Əliyev 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi.

Beləliklə, 1992-ci il noyabr ayının 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının ilk konfransı keçirilərək, təsis edilməsi haqqında qərar qəbul edildi. Bu konfransda Azərbaycanın müxtəlif regionlarından təşəbbüs qruplarının 550-dən artıq nümayəndəsi iştirak etmişdi. Konfransda Heydər Əlirza oğlu Əliyevin namizədliyi irəli sürülmüş və açıq səsvermə yolu ilə Yeni Azərbaycan Partiyasının sədri seçilmişdi. Məhz belə bir önəmli zamanda ümummilli lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın o zamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən irəli gələn zəruri tarixi hadisə oldu.

Partiyaya sədr seçildikdən sonra hakimiyyət dairələri tərəfindən Heydər Əliyevə təzyiqlər və maneələr başlandı. Lakin bütün bunlar Ulu Öndərin əzm və iradəsini qıra bilmədi. Xalqın öz liderinə olan inamı 1993-cü ilin iyun ayında Heydər Əliyevin yenidən siyasi hakimiyyətə gəlməsi ilə nəticələndi. Yeni Azərbaycan Partiyası yeni bir mərhələyə qədəm qoydu və vahid iqtidar partiyasına çevrildi. Qeyd etmək istərdim ki, yarandığı qısa müddət ərzində partiya liderinin həm də dövlət başçısı vəzifəsinə seçilməsi ilə fərqlənən YAP bu baxımdan birincilər siyasındadır. Bu faktın özü də onu sübut edir ki, Azərbaycan xalqı Heydər Əliyevə inanmaqla ən doğru addımı atmışdı. Həmin dövrdə baş verən böhran, məhz Heydər Əliyevin hakimiyyətə qayıdışı və onun yeritdiyi uğurlu daxili və xarici siyasət nəticəsində aradan qalxdı. Həmçinin, ümummilli liderin “İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” fikri ilə həyata keçirdiyi uğurlu iqtisadi islahatlar nəticəsində Azərbaycan uğurlu bir yola qədəm qoydu. İqtisadi sahədə atılmış ən mühüm addım isə heç şübhəsiz, 1994-cü il sentyabrın 20-si iqtisadi inkişafın təməlini qoyan “Əsrin müqaviləsi” oldu. Qısa zaman ərzində Azərbaycan investiyalar məkanına çevrildi və ölkədə sosial rifah halının yaxşılaşdırılmasına şərait yarandı. Ulu Öndər Heydər Əliyevin başçılığı ilə hüquqi demokratik dövlət qurmaq üçün bir sıra mühüm addımlar atıldı. Siyasi plüralizm, söz azadlığı təmin edildi, çoxpartiyalı sistem yaradıldı, ölkəmiz bir sıra mühüm beynəlxalq və regional təşkilatlara üzv oldu və ölkədə siyasi sabitlik yarandı.

Yeni Azərbaycan Partiyasının sənədlərinə dövlətçilik ideyasını əks etdirən prinsiplər - dövlətçilik, azərbaycançılıq, sosial ədalət, həmrəylik, varislik, qanunçuluq daxildir. Bu ideyaların müəllifi və yaradıcısı Heydər Əliyev olmuşdur. Bütün bu illər ərzində partiyanın təşkilatçılığı ilə keçirilən tədbirlər və işlər Azərbaycan xalqının inkişafına, tərəqqisinə xidmət edərək hakim partiyanın nüfuzunu və cəmiyyətdəki rolunu artırmış, ictimai-siyasi proseslərə təsir imkanını genişləndirmişdir. Nəticədə partiyaya üzv olanların da sayı günbəgün

artmaqdadır. YAP artıq keçdiyi siyasi-tarixi yol nəticəsində çox güclü və nüfuzlu siyasi təşkilata çevrilib. 2005-ci il mart ayının 26-da keçirilən partiyanın III Qurultayında prezident İlham Əliyev partiyanın sədri seçilmişdir [1, s.324].

Dünənin, bugünün, gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanımızın dövlətçilik tarixində yeni bir yüksəliş mərhələsinin əsasını qoydu.

Yeni Azərbaycan Partiyasının sədri, dövlət başçısı cənab İlham Əliyev partiyanın keçdiyi keşməkeşli yolu belə dəyərləndirmişdir: "Yeni Azərbaycan Partiyası güclü təşkilatdır və Azərbaycanın ictimai-siyasi həyatında müstəsna rola malikdir. Heç bir siyasi qüvvə Yeni Azərbaycan Partiyası ilə rəqabət aparmaq iqtidarında deyil. Bu partiyaya mənim də münasibətim eynidir. Mən də öz siyasi fəaliyyətimi partiyasız təsəvvür etmirəm. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı daha da gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik. Azərbaycan müasirləşəcək, güclənəcək və çox zəngin, qüdrətli dövlətə çevriləcəkdir” [3].

Ümummilli lider Heydər Əliyev bizim müasirimiz, hər bir azərbaycanlı üçün qürur mənbəyidir. Tarixin Azərbaycan xalqına bəxş etdiyi ən böyük tarixi şəxsiyyətlərdən biri olan Heydər Əliyev xalqımızn tarixində çox böyük iz qoymuşdur: bu gün milli dövlətçiliyimizin ideya əsası məhz bu tarixi şəxsiyyətə məxsusdur. Heydər Əliyev hər zaman Azərbaycan xalqının mənəvi dəyərlərini yüksək tutmuş və onları bütün dünyaya tanıtdırmışdır. Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti də bir daha onu sübut edir ki, Azərbaycan xalqının bu günü və sabahı etibarlı əllərdədir. Heydər Əliyev milli dövlətçiliyimizin ideya təməlini qoymuşdur. Ulu Öndər Azərbaycan xalqının mənafeyini düşünən biri olmuş, bu istiqamətdə apardığı ardıcıl və məqsədəuyğun siyasət onun bütün fəaliyyətinin əsasını təşkil etmişdir. Məhz bu baxımdan xalqımız ümummilli liderin qoyduğu bu sərvəti və irsi qoruyub saxlayaraq gələcək nəsillərə ötürməlidir.

**Ədəbiyyat siyahısı:**

1. Orucov H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Bakı, 2001, 324 s.
2. Heydər Əliyev Yeni Azərbaycan Partiyasının qurucusudur; http://anl.az/down/meqale/yeni_az/2011/aprel/171798.htm İstinad tarixi: 26.04.2021.
3. Yeni Azərbaycan Partiyası cəmiyyətdə nüfuzu olan siyasi təşkilatdır; http://anl.az/down/meqale/ses/2011/mart/165015.htm İstinad tarixi: 26.04.2021.

# XX ƏSRDƏN BAŞLAYAN ƏNƏNƏ VƏ XXI ƏSR: ANTROPOLOGİYA ELMİNİN İNKİŞAFI

**Hicran Mahmudova**
*Bakı Dövlət Universiteti, Arxeologiya və etnoqrafiya kafedrası,*
*müəllim, tarix üzrə fəlsəfə doktoru*
*hicranmahmudova@bsu.edu.az*

**Açar sözlər:** Heydər Əliyev, İlham Əliyev, antropologiya, müasir dövr
**Ключевые слова:** Гейдар Алиев, Ильхам Алиев, антропология, современный период
**Keywords:** Heydar Aliyev, Ilham Aliyev, anthropology, modern period

Müasir dövr Azərbaycanda antropologiya elminin inkişafı tarixində önəmli mərhələdir. Qeyd etmək lazımdır ki, Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə uzun müddət respublikadan kənarda təhsilini davam etdirmək üçün göndərdiyi azərbaycanlı tələbələr məhz müstəqillik dövründə Azərbaycan elminin müxtəlif sahələrində nailiyyətlər qazanmış tədqiqatçılara çevrildilər. Məhz bu dövrdən antropologiya elminə dövlət səviyyəsində diqqət yetirilməyə başlanılmış, ali təhsil müəssisələrində “Antropologiya” fənninin tədrisi genişləndirilmişdir. XXI əsrdə isə bu istiqamət genişləndirilmiş və elmin inkişafı üçün əməli tədbirlərə başlanılmışdır. Azərbaycan elminin sürətli inkişafı, bütün sahələrdə olduğu kimi, antropologiya sahəsində də yeniliklərlə yadda qalmışdır. Belə ki, Respublikamızın aparıcı elm və təhsil müəssələrindən biri olan Bakı Dövlət Universitetinin Tarix və Sosiologiya fakültələrində “Antropologiya” istiqaməti üzrə fənnlərin tədrisinin və xüsusi ixtisasın yaradılması mühüm addımlardan biri olmuşdur. 2011-ci ildə Arxeologiya və Etnoqrafiya kafedrasının nəzdində “Antropologiya” ixtisasının bakalavr pilləsinin açılması ilə bu sahəyə maraq artmağa başlandı. 2016-cı ildən isə magistratura səviyyəsi üzrə eyni adlı ixtisaslaşma, 2017-ci ildən isə “Mədəni antropologiya” ixtisaslaşması fəaliyyətə başlandı. Bununla da, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş elmin inkişafı İlham Əliyevin prezidentliyi dövründə də davam etdirilməyə başladı.

Qeyd etmək lazımdır ki, antik dövrdən etibarən Azərbaycan əhalisinin antropoloji quruluşu haqda çoxsaylı müşahidələr mövcud olsa da, onların sistemli şəkildə elmi cəhətdən öyrənilməsi mümkün olmamışdı. İstər antik müəlliflərin, istər orta əsr səyyah və tədqiqatçılarının, istərsə də digər yazılı mənbələrin məlumatlarında azərbaycanlıların tarixi-mədəni irsi ilə yanaşı, fiziki quruluşu haqqında da müəyyən qədər informasiya toplanmışdır. Uzun müddət imperiya siyasətinin təsiri nəticəsində digər xalqların antropoloji

cəhətdən tədqiqi həyata keçirilsə də, azərbaycanlıların etnik tarixini, tarixi ərazilərinin sərhədlərini saxtalaşdırmaq məqsədi ilə əlaqədar olaraq, bu sahədə araşdırmalar çox zəif aparılmışdır.

Azərbaycanda ixtisaslı antropoloq kadr olmadığı üçün uzun müddət azərbaycanlıların fiziki quruluşu ilə bağlı məlumatlar Rusiya tədqiqatçılarının əsərlərində öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, belə bir vəziyyət təbii ki, obyektiv məlumatların saxtalaşdırılmasına və imperiya siyasətinə xidmət edə bilən nəticələrə gətirib çıxarırdı. Azərbaycan antropologiyası ilə bağlı bu və ya digər məlumatlar əsasən, Ümümqafqaz xarakterli tədqiqatların işərisində yer aldığından, ötəri, qısa informasiya xarakterli olmuşdur. Belə bir vəziyyətdə isə Azərbaycan əhalisinin etnogenezi, avtoxton etnos məsələsi, tarixi torpaqlarımız kimi məsələlərin də öyrənilməsi yarımçıq qalmış və yersiz müdaxilələrlə üzləşməli olmuşdur. XIX əsrdən etibarən ayrı-ayrı xarici müəlliflərin Ümumqafqaz tədqiqatlarının içərisində azərbaycanlıların da antropometrik göstəricilərini versələr də, təəssüflə qeyd etmək lazımdır ki, E.Şantra, İ.Pantyuxov, R.Erkert, P.Sviderskiy və başqalarının antropoloji əsərlərində azərbaycanlılar az sayda tədqiq olunmaqla yanaşı, bizə “tatar” və ya “müsəlman” adı altında yanaşmaqla, çoxsaylı təhriflər edilmişdir.

XX əsrin birinci yarısında Azərbaycanda elmi mərkəzlər tam formalaşmadığından, təbii ki, antropoloji mərkəz də yox idi və geniş antropoloji tədqiqatlar aparılmırdı. Azərbaycan Xalq Cumhuriyyəti dövründə 1919-cu ilin sentyabrında yerli şərqşünaslar tərəfindən «Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyi» yaradılması haqqında məsələ qaldırılmışdır. Azərbaycanın arxeoloji-etnoqrafik cəhətdən tədqiqinə başlansa da, Respublikamızın qısa müddətli fəaliyyəti dövründə geniş antropoloji tədqiqatlar, sistemli arxeoloji tədqiqatlar aparıla bilinmədiyindən, antropoloji materiallar da əldə olunmamışdı.  XX əsrin II yarısı isə Azərbaycan tarixində daha önəmli tədqiqatlarla yanaşı, milli antropoloq kadrlarımızın yetişməsi mərhələsi hesab oluna bilər. Belə ki, Respublikamızın müxtəlif bölgələrində sistemli tədqiqatlar aparılması, eyni zamanda dünya əhəmiyyətli “Azıxantrop”un tapılması və tədqiqi bu dövrə təsadüf edir. Azıx mağarası ilə yanaşı tədricən, daş dövrünün və digər dövrlərin arxeoloji abidələri, onlardan əldə olunmuş sklet qalıqlarının öyrənilməsinə başlanılsa da, mövcud rejimin qaydalarına müvafiq olaraq, antropologiya elminin inkişafının qarşısına sanki bir pərdə çəkildi. Sovet dövründə R.Qasımovanın tədqiqatları ilə müəyyən inkişaf başlasa da, sonra antropoloq tədqiqatçı yetişmədiyindən, bu sahədə boşluq yarandı. Qeyd etmək lazımdır ki, Sovet antropoloqları bu dövrdə də tarixi-antropoloji əsərlərində xalqımızın fiziki quruluşu ilə bağlı yanlış müdaxilələr etməkdən çəkinmədilər. Buna baxmayaraq, Azərbaycanda antropoloji tədqiqatlar davam etdirilmişdi. Tibb ixtisaslı olsa da, 1975-ci ildən etibarən, Ulduz Həşimova antropologiya ixtisası üzrə keçmiş SSRİ Elmlər Akademiyasının Etnologiya İnstitutunun

antropologiya şöbəsinin aspiranturasına qəbul olunmuş, 1979-cu ildə M.Lomonosov adına Moskva Dövlət Universitetinin Antropologiya İnstitutunda Biologiya fakultəsinin antropologiya ixtisası üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. Ulduz Həşimova 1984–1989-cu il Uzunömürlülüyün öyrənilmısi Sovet-Amerika birgə layihəsinin Əlaqələndirmə Şurasının üzvü (Moskva) olmaqla yanaşı, Azərbaycan əhalisinin odontoloji tədqiqi, təsnifatı ilə məşğul olmuş, Azərbaycanın cənub-şərq bölgəsinin, Naxçıvanın əhalisinin odontologiyasını öyrənmişdir.

Azərbaycan əhalisinin antropoloji tərkibinin öyrənilməsi müasir tarix elminin mühüm və aktual problemlərindəndir. Məlumdur ki, əlverişli iqlim şəraiti, yerləşdiyi cöğrafi areal, bölgənin həm siyasi mövqeyi, həm də iqtisadi baxımdan tranzit ticarət üçün münasib olması və s. kimi amillər Azərbaycan ərazisində insanların qədimdən məskunlaşmasına imkan vermişdir. Odur ki, sonrakı dövrlərdə də müxtəlif səbəbdən bizim ərazimizə köçmüş və ya köçürülmüş əhali burada daimi olaraq məskunlaşmış və sonradan xalqın formalaşması prosesində də bu və ya digər dərəcədə iştirak etmişdilər. Hal-hazırda biz bu prosesi normal tarixi hadisələr kimi qəbul etsək də, sonradan ərazimizdə məskunlaşdırılmış bəzi etnoslar özlərini aborigen əhali kimi təqdim edərək, ərazi iddiaları ilə tariximizi saxtalaşdırmağa çalışırlar. Bununla əlaqədar olaraq, qədim türksoylu tayfaların vətəni olmuş Azərbaycanın əhalisinin fiziki antropologiyasının öyrənilməsi müasir dövrün mühüm məsələlərindəndir.

**Ədəbiyyat siyahısı:**

1. Məmmədov K.H. Azərbaycanlıların etnik antropologiyası. // Azərbaycan arxeologiyası. Bakı: 2005, N 1, s. 51-59.
2. Məmmədov Y.V. Erkən tunc dövrü Cənubi Qafqaz əhalisinin paleoantropologiyası. // Azərbaycanın arxeologiyasının və etnoqrafiyasının aktual problemləri jurnalı. Bakı: 2014, s. 104-111.
3. Ансеров Н.И. Тюрки Советского Азербайджана. Б.: Изд.АзГНИИ,Ваку, 1930, 321 s.
4. Абдушелишвили М.Г. Антропология населения Кавказа в поздне-античном времени. Тбилиси: Мецниереба, 1978, 309 с.
5. Гашимова У. Ф. Некоторые итоги одонтологического исследования современного населения Азербайджана // "Доклады АН Азербайджанской ССР. № 12. 1978. с. 87–92.
6. Гусеинов. М.М. Dревний палеолит Азербайжана (по материалам пещерных стоянок). Баку: Текнур, 2010, 220с.
7. Касимова Р.М. Первые палеоантропологические находки в Кобыстане // Вопросы антропологии, Баку, 1974, №46, 54-72 s.

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT STRATEGİYASI: DAXİLİ VƏ XARİCİ SİYASƏT

**Məftunə Abdullayeva**
*Bakı Dövlət Universiteti, Politologiya və sosiologiya kafedrasının müəllimi*
**Ayşən Mustafayeva**
*Bakı Dövlət Universiteti, Politologiya və sosiologiya kafedrasının magistrantı*
*ayshan2.mustafayeva@gmail.com*

**Açar sözlər:** Heydər Əliyev, demokratik dövlət quruculuğu, etibarlı strategiya, xalqın qurtuluşu, dövlət idarəçiliyi, qətiyyətli lider
**Ключевые слова:** Гейдар Алиев, построение демократического государства, надежная стратегия, спасение народа, государственное управление, решительный лидер
**Keywords:** Heydar Aliyev, democrative government establishment, reliable strategy, rescuing of people, public administration, decisive leader

Azərbaycan xalqının, onun tarixinin son yarım əsrlik dövrü Ümumilli lider Heydər Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü ilə ayrılmaz vəhdət təşkil edir. Odur ki, iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin etibarlı inkişafının milli lider amili ilə bilavasitə bağlı olması fikri hal-hazırda tarixi faktlarla öz təsdiqini tapır. Məhz Azərbaycan xalqının milli-mədəni dəyərlərinin qorunması, sosial həyat tərzinin yaxşılaşdırılması, demokratik inkişafın yüksəlişinə nail olunması, təhsilin səviyyəsinin möhkəmləndirilməsi, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması Heydər Əliyev strategiyasının uğurlu təzahürləri kimi qeyd olunmalıdır.

Ötən əsrin 90-ci illərinin əvvəllərində cəmiyyət həyatının bütün sferalarını bürümüş anarxiya, siyasi xaos ölkənin dinamik inkişafını təmin etmək gücündə olan strategiyanın mövcud olmamasının xəbərçisi idi. Heydər Əliyevin milli həmrəylik ideyası, hər bir vətəndaşın özünü dövlətinə və dövlətçiliyinə bağlı hesab etməsi, dövlətin hər bir insana, hər bir insanın isə öz dövlətçiliyinə xidmət etməsi amalı 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyada öz əksini tapmışdır [2, s.8-10].

Konstitusiyada hakimiyyətin bölünməsi prinsipinin ifadəsini tapması dövlət hakimiyyətinin həyata keçirilməsinin əsaslı prinsipi kimi nəzərdən keçirilməlidir. Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında təşkil edilir:

-qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;

-icra hakmiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;

-məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir [1].

Hakimiyyətlərin bölünməsi prinsipinin əsas mahiyyəti ondan ibarətdir ki, dövlət hakimiyyəti bir əldə, yaxud hakimiyyətin ayrı-ayrı qollarında cəmlənməməli, əksinə, həmin hakimiyyət qolları arasında tarazlaşdırılmış şəkildə bölünməlidir. Konstitusiyanın 7-ci maddəsinə əsasən, Azərbaycan dövlətinin demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilməsi insan və vətəndaş hüquq və azadlıqlarının dövlət təminatının əsaslı şərtidir.

Birbaşa demokratiyanın ən uğurlu modellərindən olan yerli özünüidarəetmə institutunun yaradılması da Heydər Əliyevin adı və onun siyasi fəaliyyəti ilə bağlıdır. Belə ki, 2 iyul 1999-cu il tarixdə “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin tarixdə, eyni zamanda, “Bələdiyyələrə seçkilərin qaydaları haqqında” qanun da qəbul olunmuşdur. 12 dekabr 1999-cu il tarixdə ölkədə keçirilən ilk bələdiyyə seçkilərində 22 min nəfərdən artıq bələdiyyə üzvü seçilmiş və 2667 yerli özünüidarəetmə orqanı təşkil olunmuşdur.

Azərbaycanda bələdiyyələr demokratik prinsiplər əsasında yaradılan və formalaşdırılan yerli özünüidarəetmə orqanlarıdır. Bu orqanların təkmilləşdirilməsi prosesi ölkədə hüquqi dövlət və vətəndaş quruculuğu, dövlətin və cəmiyyətin idarə olunmasının səmərəliliyinin və etibarlılığının artırılması istiqamətində atılan ən əhəmiyyətli addımlardan biridir. Azərbaycanda bələdiyyələr müstəqil fəaliyyət göstərən orqan olsalar da, ancaq onlara verilmiş bu müstəqillik bələdiyyələrin dövlət və vətəndaş cəmiyyəti nəzarətindən kənarda qalması demək deyil. Bələdiyyələr ölkədə vətəndaş cəmiyyətinin bir forması olmaqla, dövlət və cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Onlar yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllində biləvasitə cavabdehdirlər və bu vəzifələrin icrasının təmin etmək üçün yerlərdə lazımi şərait yaradılmışdır [4].

Heydər Əliyevin hakimiyyətə gəlməsi nəticəsində ölkə həyatının digər sahələrində olduğu kimi, xarici siyasət sahəsində də əhəmiyyətli dəyişikliklər baş verdi. Həmin dövrdə yenidən müstəqillik əldə etmiş gənc dövlətin elmi cəhətdən əsaslandırılmış xarici siyasət kursunun işlənib hazırlanmasına çox böyük ehtiyac vardı. Heydər Əliyevin qeyri-adi əzmkarlığı, iradəsi və zəkası sayəsində ölkənin daxilində baş verən vətəndaş müharibəsi və hakimiyyət çevrilişləri cəhdlərinin qarşısı qətiyyətlə alındı. Dünyada və regionda baş verən siyasi hadisə və prosesləri dərindən təhlil edərək, Ulu Öndər Heydər Əliyev ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına nail oldu [3].

Özünün xarici siyasət kursunda ümummilli lider Heydər Əliyev Avropa İttifaqı ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi. 1996-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Lüksemburqda "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanmışdır. Sənəddə Azərbaycanla Avropa İttifaqı

arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması məsələləri öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin məharətli və çevik siyasəti sayəsində Azərbaycan bütün maneələri dəf edərək 1994-cü ilin sentyabr ayında “Əsrin müqaviləsi” kimi tarixə daxil olmuş neft müqavilələrini imzalaya bildi. Bu, tarixi bir addım olmaqla, Heydər Əliyevin uğurlu neft strategiyasının təntənəsi idi. Həyata keçirilən bu strategiya növbəti illərdə geniş şəkildə davam etdirilmiş və bu gün də Prezident İlham Əliyev tərəfindən yeni şəraitə uyğun olaraq qətiyyətlə davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1.Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2006.
2.Rzayev R. Ümummilli liderin hüquqi baxışlarının Azərbaycan Respublikası Konstitusiyasında təzahürü // Respublika, 10.05.2013, №99, s.8-10.
3. Əsgərov Z. Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi //Azərbaycan, 2011, 7 may, s.7.
4. Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir // Bələdiyyə xəbərləri-07 may 2021) // https: azertag/az/xeber /Heyder_ Aliyev_Azerbaycanda_ yerli_ ozunuidareetmenin _banisidir /17776001 (http://belediyye.info.az).

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ QURUCUSU VƏ XİLASKARIDIR

**Neyman Xasayev**
*Sumqayıt Dövlət Unversiteti, dosent*
*nemanxasiyev@gmail.com*

**Açar sözlər:** Heydər Əliyev, Şimali Azərbaycan, “velikorus” şovinizmi, Azərbaycan xalqının ümdə xilaskarı, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı

**Ключевые слова:** Гейдар Алиев, Северный Азербайджан, «великорусский» шовинизм, главный спаситель азербайджанского народа, основатель и архитектор независимого азербайджанского государства.

**Keywords:** Heydar Aliyev, Northern Azerbaijan, “Great Russian” chauvinism, the main savior of the Azerbaijani people, the founder and architect of the independent Azerbaijani stat

Ulu Öndər Heydər Əliyevin dünyanın ən görkəmli tarixi şəxsiyyətləri içərisində ön sırada dayanması baxımından problem mövzu diqqəti cəlb etməkdədir. Umummilli lider Heydər Əliyevin müdrük ictimai-siyasi xadim kimi Azərbaycanın dövlətçilik tarixində oynadığı müstəsina rolu dəyərləndirmək baxımından da mövzu aktualdır. Görkəmli ictimai-siyasi xadim Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin təməldaşını XX əsrin 70-ci illərində qoymasını əsaslandırmaq nöqteyi-nəzərindən də mövzu aktual sayılır. Bu görkəmli dövlət xadiminin Müstəqil Azərbaycan Respublikasının xilaskarı və qurucusu olduğuna aydınlıq gətirmək üçün də araşdırılan mövzu öz aktuallığı ilə maraq doğurmaqdadır.

I. Azərbaycanın qədim və sivil dövlətçilik tarixinin fəxr ediləsi şanlı səhifələrindən biri Ulu Öndər Heydər Əliyevin XX əsrin 70-ci illərində SSRİ miqyasında ilk dəfə müstəqil milli dövlətin bərpası istiqamətində irəliyə doğru əsaslı addımlar atması ilə bağlıdır. Aşağıda istinad etdiyimiz faktlar göstərir ki, bu bənzərsiz tarixi şəxsiyyətin Azərbaycanda hakimiyyətdə olduğu I dövrdə (1969-1982), “velikorus” şovinizminin uçurub dağıtmağa gücü çatmayacağı bir formada milli dövlətimizin monolit təməli qoyulmuşdur. Məhz bu dövrdən etibarən Azərbaycan türkcəsi Respublikanın bütün vətəndaşlarını biraraya gətirəcək rəsmi dövlət dilinə çevirilmişdir. Bu dahi şəxsiyyətin 1969-cu ilin avqustunda keçirilən Plenumda açıqladığı milli qayəli müddəalar cəmi 12 il ərzində öz real həllini tapmışdır. Azərbaycan sənayesinin, kənd təsərrufatının

bu müdrik rəhbərin fitri təşkilatçılıq qabiliyyəti, səriştəli idarəetmə təcrübəsi və tükənməz enerjisi sayəsində əldə etdiyi yüksək nailiyyətlər, qısa zaman çərçivəsində xalqın sosial rifah halinin yüksəldilməsinə gətirib çıxarmışdır. Ölkə vətəndaşlarının əksəriyyəti müasir tipli mənzillərə, məişət avadanlıqlarına, şəxsi avtomabillərə sahiblənmişdir [4, 223-224]. Daxili siyasətin davamı kimi milli yonümlü xarici siyasətimizin balanlaşdırılmasının da bünövrəsi bu dövrdə qoyulmuşdur. Bəhs edilən dövrdə Qırmızı imperiyanın (SSRİ nəzərdə tutulur) mərkəzi Moskvadakı erməni lobbisinin və havadarlarının Azərbaycanla bağlı yürütmək istədikləri məkirli siyasi gedişlərin qarşısı da qətiyyətlə alınmışdir [4, s.193, 196]. Bu tarixi mərhələdə Qırmızı imperiyanın siyasi təqiblərinə məruz qalmış bir çox Azərbaycan aydını repressiya maşınının növbəti qurbanına çevrilmək təhlükəsindən ölkə başçısı Heydər Əliyevin səyi ilə xilas edilmiş, Azərbaycanın maddi və mənəvi mədəniyyəti özünün müasir intibah dövrünü yaşamışdır [3, s.316-335]. Həmin dövrdə “velikorus” şovinizmi türk-müsəlman mənşəli Ulu Öndərin öz xalqı, öz olkəsi üçün həyat keçirdiyi bütün milli yönümlü tədbirləri qısqanclıqla, hiddətlə izləyir, bunların XX əsrin əvvəlində olduğu kimi yenidən Şimali Azərbaycanda müstəqil dövlətin qurulması ilə nəticələnəcək milli oyanış hərəkatının genişlənməsinə gətirib çıxaracağını uzaqgörənliklə hiss edirdi [8]. Buna görə də 1982-ci ildə türk-müsəlman dünyasının bu əvəzsiz siması SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə aparılmış, heç bir qanuni əsas olmadan 1987-ci ildə isə qəsdən mərkəzi hakimiyyətdən kənarlaşdırılmışdır. Ulu Öndərin Qımızı imperiyanın mərkəzində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması faktı Dağlıq Qarabağ kartının yenidən siyasi gündəmə gətirilməsinə, Qərbi azərbaycanlıların deportasiyasının son mərhələsinin həyata keçirilməsinə və Şimali Azərbaycanda kütləvi xarakter almış milli oyanışı hərəkatını yatırmaq məqsədi güdən 20 yanvar faciəsinin baş verməsinə yol açmışdır.

II. Dünya şöhrətli dövlət xadimi Heydər Əliyev 1990-ci ilin iyun ayında canından əziz bildiyi xalqının, vətəninin köməyinə çatmaq üçün Bakıya gəlmək istəsə də, lakin təxribatçı qüvvələr buna imkan verməmiş, o, doğma yurdu Naxçıvana gedərək orada milli dövlət quruculuğu işlərini uğurla davam etdirmişdir [5]. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını ilk dəfə rəsmən Naxçıvanda dalğalandırmaqla, Muxtar Respublikanın adından Sovet sosialist sözlərini sildirmiş, SSRİ-nin qorunması məqsədi ilə keçirilən referenduma bütün Naxçıvan əhalisinin “xeyir” deməsini təmin etmiş, yürütdüyü müdrük siyasət nəticəsində Azərbaycana soyuq münasibət bəsləyən İranı neytirallaşdırmış [7], Türkiyənin qardaş dövlət kimi informasiya blokadasına alınmış Azərbaycanın haqq səsini beynəlxalq aləmə çatdırmasına nail olmuşdur. [6]. Ulu Öndər1992-ci ilin noyabrında Naxçıvanda, Azərbaycan vətəndaşlarının əksər hissəsini bu gün biraraya gətirmiş, avanqard Yeni Azərbaycan Partiyasının əsasını qoymuşdur [9]. Mövcud İqtidarın - AXC-Müsavat tandeminin yürütdüyü uğursuz siyasət

nəticəsinə 1993-cü ilin 4 iyun tarixində Gəncədə baş vermiş qiyamın vətəndaş müharibəsinin çevirilməsinin qarşısını almaqla 1993-cu ilin 15 iyun tarixində Azərbaycan xalqının xilaskarına çevirilmiş və həmin gün Azərbaycan tarixinə “Milli qurtuluş” günü kimi yazılmışdır.

III. Ulu Öndər ikinci hakimiyyəti dövründə paralel olaraq həm dövlət quruculugu işlərini uğurla davam etdirmiş, həm də Azərbaycançılıq prinspini önə çəkib, ölkədə bü gün bütün dünyanı heyrətləndirəcək sosial-siyasi sabitliyə nail olmuşdur. 1994-cü ilin may ayının 12-də Azərbaycanın 20% ərazisinin itirilməsi ilə nəticələnən qanlı savaşa son qoymaqla müasir tipli milli ordu quruculuğu işlərini uğurla başa çatdıraraq 1920-ci ildə müzəffər sərkərdə, Prezident İlham Əliyevin komandanlığı altında cəmi 44 gün ərzində Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasının əsasını qoymuşdur [1].

IV. Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli lider Heydər Əliyev ikinci hakimiyyəti dövründə sosial-iqtisadi, siyasi-edeoloji, ticari, mədəni, dini-mənəvi siferalarda milli dövlətçilik ənənlərimizin bərpasını və sürətli inkişafını da təmin etmişdir. Ölkə başçısı Heydər Əliyev Azərbaycan Respublikası vətəndaşlarının milli, sosial, dini, etnik mənşəyinə fərq qoymayan, bütün vətəndaşların hüquq və azadlıqlarını, imtiyaz və vəzifələrini təsbit edən sivil bir Konstitusiyının 1995-ci ilin noyabrında referendum yolu ilə qəbulunu da həyata keçirmişdir. O, Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursunun formalaşdırılması prosesini də uğurla başa çatdırmışdır. 1994-cü ilin 20 sentyabr tarixində dünyanın nəhəng şirkətləri və inhisarçı birlikləri ilə “Əsrin müqaviləsi”ni bağlayaraq Azərbaycanın beynəlxal aləmə tanıtmaqla yanaşı, həmçinin ölkəmizi Cənubi Qafqaz regionunun ən güclü dövlətinə çevirmişdir. Bu dünyaşöhrətli siyasətçi MDB-yə alternativ olan GUAM-ın yaradıcısı və yol göstərəni kimi çıxış etməklə yanaşı, həmçinin indi gündəmin əsas mövzularından olan “Turan biriliyi”nin ideoloqları sırasında da yer almışdır. 1996-ci ilin dekabrında keçirilən ATƏT-in Lissabon sammitində Azərbaycanın ərazi bütövlüyünun tanınması ilə bağlı qərarın qəbul edilməsi Prezident Heydər Əliyev diplomtiyasının ən böyük uğurlarından biridir [2].

Belə bir qənaətə gəlinir ki, Ulu Öndər Heydər Əliyev Müstəqil Azərbaycan dövlətinin bünövrəsini I hakimiyyəti dövründə qoymuşdur. Bu əlamətdar tarixi hadisə isə Şimali Azərbaycanda milli oyanış hərəkatının ikinci mərhələsinin başlanmasına gətirib çıxarmışdır. Ümummilli lider Hedər Əliyev, Naxçıvanda olduğu dövrdə milli dövlət quruculuğu işlərini uğurla davam etdirmişdir. 1993-cü ilin 15-iyun tarixində Azərbaycan xalqını, yenicə qurulmuş müstəqil Azərbaycan dövlətini və Azərbaycanın beşminillik tarixə malik dövlətçilik ənənələrini gözləninən bəlalardan xilas etmişdir. O, uğurlu daxili siyasət kursunu həyata keçirməklə Azərbaycan xalqının sosial-rifah halını yüksəltmiş, balanslaşdırılmış xarici siyasət kursu yürütməklə isə müstəqil Azərbaycan dövlətini bütün dünyaya tanıtmışdır.

Araşdırmanın elmi yeniliyi Ümummilli lider Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi milli quruculuq və xilaskarlıq siyasətinə tezis şəkilində ilk dəfə kompleks yanaşmaqla konkret nəticələrə gəlinməsi ilə bağlıdır. Eyni zamanda tezisin elmi yeniliyi XX əsrin 70-ci illərində Ulu Ondər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin təməlini qoyması ilə milli oyanış hərəkatının ikinci mərhələsinin başlanması və onun Qırmızı imperiyanın süqutu ərəfəsində genişlənərək 1993-cü ildə milli Qurtuluş günü ilə başa çatması fikirinin ilk dəfə irəli sürülməsi ilə də əlaqədardır.

**Ədəbiyyat siyahısı:**

1. 2020-ci il Azərbaycanda ikinci Qarabağ müharibəsi kimi. 29 dekabr 2020. / https://www.bbc.com/azeri/azerbaijan-55474903. Müraciət tarixi: 25.03.2021.
2. ATƏT-in Lissabon sammiti (2-4 dekabr 1996-cı il)/ http://anl.az/el/emb /QARABAQ/beynelxalq-senedler/atet(lissabon-sammiti).pdf Müraciət tarixi: 25.03.2021.
3. Azərbaycan incəsənəti. Bakı: İşıq, 1992, 343 s.
4. Azərbaycan tarixi. 7 cilddə, VII c. Bakı: Elm, 2003, 676 s.
5. Əliyev Q. YAP – Ümumxalq partiyası. Yeni Azərbaycan Partiyasının yaradılmasının 15-ci ildönümünə həsr edilmiş “Yeni Azərbaycan Partiyası: 15 il yüksəliş yolunda” mövzusunda keçirilən konfransın materialları. Bakı: İSBN, 2007, s.305-413.
6. Heydər Əliyev və Şərq. 6 cilddə. Türkiyə. 1-ci kitab. Bakı: Çaşoğlu, 2005, 544 s
7. Heydər Əliyev və Şərq. 6 cilddə. İran İslam Respublikası. 4-cü kitab. Bakı: Çaşoğlu, 2005, 479 s.
8. Xasayev N. Şimali Azərbaycanda milli oyanış hərəkatı. (XIX əsrin son rübü – XX əsrin əvvəlləri). Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, 2017, 269 s.
9. Xudiyev N. YAP dünənin, bu günün sabahın partiyasıdır. Bakı: Nurlar, 2007, 272 s.

# HEYDƏR ƏLİYEVİN ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ: DEMOQRAFİK PROBLEMLƏRİN TƏNZİMLƏNMƏSİ ÜÇÜN HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

**Səidə Quliyeva**
*BDU, Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi tədqiqat laboratoriyasının böyük elmi işçisi, dosent*
*saidaquliyeva@bsu.edu.az*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycanın əhalisi, Azərbaycan ordusu, əhali artımı, demoqrafiya
**Ключевые слова:** Гейдар Алиев, население Азербайджана, азербайджанская армия, прирост населения, демография
**Keywords:** Heydar Aliyev, population of Azerbaijan, Azerbaijani army, population growth, demography

Dövlətin insan resursları onun əsas gücü hesab edilir. Əmək potensialı onun iqtisadi qüdrətini, ordusu isə hərbi gücünü göstərir. Əhalinin artımı ordunun sayının da artımı deməkdir. Görkəmli dövlət xadimi Heydər Əliyev bu baxımdan erməni faşizminə qarşı mübarizənin təşkilində insan amilinə mühüm əhəmiyyət vermişdir. Sağlam və savadlı insan bütün sahələrdə mübarizənin təşkili üçün əsas amil olmuşdur. Bu səbəbdən güclü ordunun qurulması məqsədilə sağlam ideologiyaya və sağlam vücuda sahib gənc nəslin yetişdirilməsini vacib hesab etmişdir.

Erməni faşizminə qarşı mübarizənin təşkili üçün əhalinin və ordunun sayındakı dəyişikliyi araşdırmaq elmi baxımından aktuallıq kəsb edir. Heydər Əliyevin müharibənin yaratdığı demoqrafik böhrandan çıxış üçün həyata keçirdiyi tədbirlərin və mühüm nəticələrin ayrı-ayrı mövzular üzrə araşdırılmasının erməni faşizminə qarşı mübarizənin kompleks tədqiqində mühüm əhəmiyyəti vardır.

Müstəqilliyin ilk illərində başlayan müharibənin aktiv hərbi fazası qısa müddətdə Azərbaycanda ciddi demoqrafik böhrana səbəb oldu: hərbi əməliyyatlar nəticəsində insan itkisi və miqrasiya prosesi dövlətin qarşısında təxirəsalınmaz ciddi vəzifələr yaratdı. İlk dövrdə dövlətin qarşısını ala bilmədiyi bu proseslər ərazilərin erməni hərbi birləşmələri tərəfindən işğalı ilə nəticələndi. Müdafiə nazirliyinin 2014-cü ildə verdiyi rəsmi məlumata əsasən, 1991-1994-cü illərdə 11 min nəfər hərbçi şəhid olmuşdur. Belə bir vəziyyətdə insan və torpaq itkisinin qarşısını almaq üçün ciddi qərarlar vermək vacib idi. Məhz bu baxımdan, Heydər Əliyevin apardığı siyasət xalqın genefondunun qorumasında mühüm əhəmiyyət daşıdı.

Bişkek protokolu hərbi əməliyyatların dayandırılması ilə yanaşı günahsız mülki insanların qətlinin, hələ tam formalaşmamış Milli orduda qırğınların qarşısını aldı. Lakin erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində demoqrafik proseslərdə yaranan neqativ hallar sonrakı illərdə öz mənfi təsirini göstərməyə davam etdirdi. Bu səbəbdən də, demoqrafik prosesinin müsbət tərəfə dəyişdirilməsi və tarixi demoqrafik proseslərin tədqiqinə dövlət tərəfindən xüsusi diqqət göstərilməsi qərara alındı. Bu proses “Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası” ilə başlayır. 1999-cu il dekabrın 9-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış sərəncamla təsdiq edilmiş Konsepsiyanın mühüm xüsusiyyətlərindən biri demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədinin, vəzifələrinin və prinsiplərinin açıqlanmasıdır. Sənədin təhlili demoqrafik proseslərlə sıx əlaqədə olan sosial həyat, səhiyyə xidməti, təhsil səviyyəsi, ideoloji iş və digər sahələrin dövlətin milli prioriteti kimi elan edildiyini göstərir. Konsepsiya Azərbaycanın müasir əhali problemlərinin tarixi köklərinin öyrənilməsi üçün tarixi-demoqrafik tədqiqatları zəruri edir, dövlət siyasətinin əsas prioritetləri sırasında əhalinin demoqrafiya sahəsində biliklərinin artırılması, demoqrafiyanın tədrisi və elmi tədqiqat işlərinin gücləndirilməsi proseslərinin tənzimlənməsini nəzərdə tutur. Konsepsiyanın qəbulundan sonra Azərbaycan əhalisinin sayının artımı, sağlam və təhsilli nəslin yetişdirilməsi istiqamətində mühüm işlər görülür. Təbii ki, bu proses ordu quruculuğuna da öz mühüm və müsbət təsirini ən qısa zamanda hiss etdirdi. Bu siyasət nəticəsində 1994-2020-ci illərdə əhalinin artımı və ordunun sayının dəyişməsinə nəzər salaq.

Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasında göstərilir ki, əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 1990-1994-cü illərdə, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmış və ya 21,7 faiz artmışdır. Atəşkəsdən sonra isə ölüm halları kəskin azalmış, 2000-ci ildə bu rəqəm 5,9 nəfər olmuşdur. Atəşkəs nəticəsində insan qırğınının dayandırılması ilə yanaşı, körpə ölümünün qarşısını almaq üçün də səhiyyə sahəsində ciddi tədbirlər görülmüşdür. Ən mühüm addım isə 1 yaşadək ölən uşaqlar arasında ölümün əsas səbəblərinin araşdırılması və onların aradan qaldılması üçün dövlət səviyyəsində tədbirlər görülməsi olmuşdur. 1990-cı ildə 1 yaşına qədər hər 1000 nəfərdən 23 nəfəri öldüyü halda (1995-ci ildə, 23,5 nəfər), görülən tədbirlər nəticəsində 2000-ci ildə 16,4 nəfərə, 2005-ci ildə 11 nəfərə qədər azalmışdır. 5 yaşına qədər uşaqlar arasında da ölüm hallarında ciddi azalma baş vermişdir. 1990-cı ildə hər 1000 nəfər arasında ölənlərin sayı oğlanlar arasında 43,5 nəfərdən 14,7 nəfərə, qızlar arasında isə 37,2 nəfərdən 11,2 nəfərə qədər azalmışdır.

Heydər Əliyevin tərəfindən əhalinin sosial-iqtisadi rifahının yaxşılaşdırılması, səhiyyə xidmətinin təşkili istiqamətində görülən bütün tədbirlər nəticəsində 1995-ci il ilə müqayisədə 2005-ci ildə ümumi əhali artımı 7643,5

min nəfərdən 8447,4 min nəfərə qədər artmışdır. 2010-cu ildə isə 8997,6 min nəfər olmuşdur.

Əhalinin sayında mühüm göstəricilərdən biri döyüş qabiliyyətli (səfərbərliyə cəlb edilən) kişilərin sayının artmıdır. Əhali siyahıyaalma materiallarına əsasən 1989-cu ildə 15-35 yaşlarında olan kişilərin sayı 1302,7 min nəfər, 1999-cu ildə 1313,4 min, 2009-cu ildə 1646,2 min nəfər idi.

1994-cü ildə atəşkəs rejimindən sonra ordunun gücləndirilməsi, hərbiçi kadrların hazırlanması və maddi texniki bazanın təminatı sahəsində görülən tədbirlər nəticəsidə ciddi keyfiyyət dəyişiklikləri başladı. Ordu quruculuğunda keyfiyyət və kəmiyyət dəyişiklikləri müxtəlif qoşun növlərinin təşkil edilməsindəki problemləri də aradan qaldırdı.

Həmin dövrdə mövcud olan qoşun növləri üzrə ordunun sayı barədə dəqiq məlumatları təəssüf ki, əldə etmək mümkün deyil. Lakin dövlətlərin ordusu barədə beynəlxalq bazalarda olan məlumatlardan əldə etdiyimiz informasiyaya görə, 1994-cü ildə ümumi qoşun sayı 56 min nəfərdən ibarət idi. Onlardan 49 min nəfəri quru qoşunlarında, 3 min nəfəri donanmada, 2 min nəfəri Hərbi Hava Qüvvələri və 2 min nəfəri Hava hücumundan müdafiə qoşunlarında xidmət edirdi. 2007-ci ildə isə ümumi heyət 95 min nəfər olmuşdur: 85 min nəfər quru qoşunları, 8 min nəfər Hərbi Hava Qüvvələri və Hava hücumundan müdafiə qoşunları, 2 min nəfər isə Hərbi Dəniz Qüvvələri. Bununla yanaşı, Azərbaycan ordusunun heyətinə 2500 nəfər Milli Qvardiyanın, 120 min nəfər Daxili qoşunların və 5 min nəfər sərhəd qoşunlarının heyəti də daxildir. 2020-ci ildə Azərbaycan ordusunun aktiv kadrlarının sayı 126 min nəfər, ehtiyat heyətin sayı 300 min nəfər (ümumi 426 min nəfər) olmuşdur. “Global Fire Power” adlı araşdırma şirkətinin 2021-ci ilin martında apardığı araşdırmada dünya dövlətlərinin hərbi gücünü göstərən reytinqdə Azərbaycan ordusu 140 dövlət arasında 64-cı sırada yer tutmuşdur.

Erməni fazişminə qarşı mübarizədə mühüm zərbəni ordu və xalq birliyi vurdu: Ali baş komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən “Dəmir yumruq” əməliyyatı nəticəsində 44 gün ərzində güclü potensiala malik Azərbaycan ordusu erməni faşizmini məhv etdi.

Yekunda deyə bilirik ki, görkəmli dövlət xadimi Heydər Əliyevin irsi dünya və Azərbaycan tarixinin, xüsusilə müasir tariximizin zəngin mənbə bazasıdır: onun nəzəri və təcrübi fəaliyyəti erməni faşizminə qarşı mübarizənin xırda detallara qədər düşünüldüyünü, illərlə təşkil edildiyini sübut edir. Bu mübarizədə əsas amil isə müharibə nəticəsində yaranan demoqrafik problemlərin aradan qaldırılması, əhalinin sosial rifahının gücləndirilməsi olmuşdur. Yaranan demoqrafik problemlər ölkənin sosial-iqtisadi və siyasi inkişafına təsir göstərdiyi kimi, bu proseslər də əhaliyə təsir göstərir. Bu səbəbdən də, Heydər Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi tədbirlər nəticəsində Azərbaycan Qafqazda siyasi-iqtisadi gücünə, insan potensialına, güclü ordusuna,

əhalisinin sayına görə lider ölkəyə çevrilmişdir. Hərbi münaqişənin həllində sülh və ya hərb yolunun seçilməsindən asılı olmayaraq, əhalinin sayı və güclü ordu danışıqlarda güclü tərəf deməkdir.

**Ədəbiyyat siyahısı:**

1. Azerbaijan Military Personnel / https://www.globalsecurity.org/military/ world/ azerbaijan/personnel.htm. Müraciət tarixi: 05.04.2021.
2. Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı. s.3198-3224 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 2004, № 11 (89), 3419 s.
3. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. 9 dekabr 1999-cu il, s.2921-2927 // Azərbaycan Respublikasının Qanunvericilik toplusu. 1999, № 12, 3008 s.
4. Azərbaycanın demoqrafik göstəriciləri. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 9N müəssisə, 2019, 512 s.
5. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 46 cilddə. Bakı, Azərnəşr, 1997-2013.
6. "Global Fire Power". Qlobal hərbi güc reytinqi. Analitik resurs. https://www. globalfirepower.com/country-military-strength-detail.php?country_id=azerbaijan. Müraciət tarixi: 05.04.2021

# HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHLÜKƏSİZLİK STRATEGİYASI

**Şahnaz Əmirova**
*Bakı Dövlət Universiteti,magistrant*
*amirova.shakhnaz@mail.ru*

**Açar sözlər:** Heydər Əliyev, milli təhlükəsizlik, suverenlik, strategiya, milli mənafe
**Ключевые слова:** Гейдар Алиев, национальная безопасность, суверенитет, стратегия, национальные интересы
**Keywords:** Heydar Aliyev, national security, sovereignty, strategy, national interest

Dünyada bir sıra dəyişikliklərin baş verməsi ötən əsrin əvvəllərində Şərqlə Qərb arasındakı qarşıdurma və gərginliyin tədricən aradan qalxmasına və bununla da "soyuq müharibə"nin başa çatmasına səbəb olmuşdur.. Daha sonra isə SSRİ kimi böyük bir imperiyanın dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması prosesi başlamışdır. Belə müstəqil dövlətlərdən biri də 1991-ci ilin oktyabrın 18-də öz dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası oldu. Müstəqilliyini bərpa etmiş Azərbaycanın qarşısında öz müstəqilliyini möhkəmləndirmək, demokratik, dünyəvi dövlət yaradılması, vətəndaşların təhlükəsizliyinin, rifahının təmin olunması kimi vəzifələr dayanırdı. Lakin, 1991-1993-cü illərə baxdığımız zaman bu istiqamətlərdə heç bir fəaliyyət həyata keçirilmədiyini görürük. Bu dövrdə hökümətin daxili və xarici siyasətini aydın, ardıcıl olmayan kurs təşkil edirdi. 1993-cü ildə hakimiyyət dəyişikliyinin baş verməsi və Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə isə dövlət və xalq arasında birlik, yekdillik yaranmışdır.

Xalqın təkidləri nəticəsində 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ölkənin milli təhlükəsizliyinin təmin olunması üçün həm daxili, həm xarici siyasətdə önəmli dəyişikliklər etdi. Heydər Əliyev qlobal və regional siyasi hadisələri təhlil edərək beynəlxalq təşkilatlarla Azərbaycanın əlaqələrinin genişlənməsinə töhfə vermişdir. Heydər Əliyev bu dövrdə beynəlxalq təşkilatların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv informasiyanı beynəlxalq aləmə çatdırmağa çalışırdı [1, s.23]. Ümummilli lider xarici səfərlərində keçirdiyi görüşlər zamanı ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verməkdən əlavə, həmçinin bu ölkələrin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərinə yönəldirdi.

Heydər Əliyev BMT-nin nüfuzunu nəzərə alaraq onun Azərbaycanla olan əlaqələrinə xüsusi önəm verirdi. Elə bu uzaqgörən və ardıcıl siyasət nəticəsində BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə

əlaqədar dörd qətnaməsinin qəbul olunmasından sonra həmin siyasətin nəticəsi kimi BMT Baş Assambleyasının 65-ci sessiyasında "İşğal olunmuş ərazilərdə vəziyyətə dair" məsələ müzakirə olunmuş və müvafiq qətnamə qəbul edilmişdir [6, s.52]. Heydər Əliyev yeni müstəqil olmuş ölkəmizin milli maraqlarını və milli təhlükəsizliyini nəzərə alaraq dünyanın böyük güc mərkəzləri ilə balanslaşdırılmış siyasət yürütməyə üstünlük verdi. O, BMT Təhlükəsizlik Şurasının üzvü olan ABŞ, Çin, Rusiya, Avropa İttifaqı kimi ölkələrlə daha sıx əlaqələrin yaradılmasına səy göstərirdi. Həmçinin, Ulu Öndər münasibətlərimizin pozulduğu bəzi ölkələrlə də yeni əlaqələrin qurulmasını diqqət mərkəzində saxlayırdı.

Müstəqil Azərbaycanın siyasi və hərbi təhlükəsizliyini təmin etmək və bu məqsədlə NATO ilə əməkdaşlıq Heydər Əliyev üçün böyük əhəmiyyətə malik idi. 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahının yerləşdiyi Brüssel şəhərinə səfər edərək orada “Sülh Naminə Tərəfdaşlıq Proqramının” çərçivə sənədini imzalaması ölkəmizin hərbi sahədə təhlükəsizliyinin təminatına böyük töhfə vermişdir. Sənədin imzalanmasından sonra Azərbaycan-NATO əlaqələrində dinamik inkişaf başladı, ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr aparıldı, Azərbaycan ordusunda islahatların gerçəkləşdirilməsi və ordunun NATO standartlarına uyğunlaşdırılması həyata keçirildi. Bundan başqa, Azərbaycan ordusunun hissələrinin NATO-nun müxtəlif sülhyaratma əməliyyatlarında iştirak etməsi bu sənədin tərkib hissələrindən biri idi. İndiki dövrdə də NATO-Azərbaycan əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini görə bilərik. “Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Proqramı” da öz növbəsində bu əlaqələrin daha da inkişafına və müxtəlif sahələrdə işbirliyinə təkan vermişdir. 2010-cu ildə qəbul olunmuş Alyansın “Yeni strateji konsepsiyasında” Azərbaycan Respublikasının ərazi bütövlüyü dəstəklənməsi hadisəsi də Heydər Əliyev siyasət kursunun nailiyyətlərindən biridir.

Avropa İttifaqı ilə əlaqələr Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunda ən önəmli hadisələrədən biri olmuşdur. Buna səbəb Avropa İttifaqının dünyada baş verən bütün siyasi hadisə və proseslərə təsir etmək imkanlarının geniş olması idi [5, s.63]. Bunun nəticəsidir ki, 1996-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında "Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalanması əhəmiyyət kəsb edən hadisə idi. Sənəddə ifadə olunan məsələlərin tərkibinə Azərbaycanla Avropa İttifaqı arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması və s. daxil idi. "Şərq tərəfdaşlığı" proqramı hazırda Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın daha da genişlənməsinə imkan yaradır.

Eyni zamanda Avropa Şurası kimi mötəbər bir təşkilata daxil olmaq Heydər Əliyevin uzaqgörən siyasətlərindən biri olmuşdur və 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü olması bu siyasətin

reallaşdırılmasının nəticəsi idi. 2011-ci ilin yanvar ayında AŞ-nın Dağlıq Qarabağa dair Alt Komitəsinin işinin yenidən bərpa olunması haqda qərar qəbul etməsi ölkəmizin bu təşkilatla olan əlaqələrinin təzahürü olmuşdur.

MDB, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Komitəsi, İslam Konfransı Təşkilatı və digər təşkilatlarla əlaqə və münasibətlərin qurulmasına böyük əhəmiyyət verilməsi Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Onun səylərinin məntiqi nəticəsi kimi yuxarıda adlarını çəkdiyimiz təşkilatların böyük əksəriyyəti beynəlxalq qurumlarda Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləmişlər.

Heydər Əliyev ölkəmizin təbii sərvətlərə karbohidrogen ehtiyatlarına malik olmasını milli maraqlarımızın təmin olunmasında vasitə olaraq görmüş, Azərbaycan Respublikasının yerləşdiyi əlverişli geosiyasi mövqeyindən neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanması və praktik olaraq həyata keçirilməsində məharətlə istifadə etmişdir. Heydər Əliyev ilk növbədə ölkəyə xarici investisiyaların cəlb olunmasını ölkənin iqtisadiyyatının inkişafının vacib amili hesab edərək bu istiqamətdə lazımi tədbirlərin həyata keçirilməsini təmin etdi. Bu tədbirlərdən biri xarici investorların investisiyalarının qorunması və onlar üçün əlverişli şəraitin yaradılması idi. Neft və qaz layihələrinin reallaşdırılması və onun dünya bazarlarına çıxarılmasını təmin etmək xarici investisiyaların cəlb olunması üçün vacib şərt idi. Bütün çətinliklərə baxmayaraq, 1994-cü ildə “Əsrin müqaviləsi” adlanan böyük neft müqaviləsinin imzalanması bu istiqamətdə atılan ilk addım olmuşdur.

Tarixi təcrübə göstərdi ki, Ümummilli liderin uğurlu neft strategiyası həm ölkəmizin iqtisadi inkişafı, həm də onun beynəlxalq imicinin və nüfuzunun artmasına səbəb olan siyasi kurs olaraq tarixdə iz qoymuşdur. Heydər Əliyevin neft strategiyası Azərbaycan Respublikasının regionun ən dinamik inkişaf edən, iqtisadi cəhətdən özünü tam təmin edən, heç bir ölkədən asılı olmayan və eyni zamanda tam müstəqil siyasət yeridən bir ölkəyə çevrilməsində mühüm addım olmuşdur.

Şübhəsiz ki, Heydər Əliyevin dövlət quruculuğu siyasəti nəticəsində əldə olunan uğurların sayını artırmaq mümkündür. Lakin yalnız yuxarıda qeyd etdiklərimiz belə imkan verir ki, Heydər Əliyevin Azərbaycanın müstəqil ölkəyə çevrilməsində, milli təhlükəsizliyinin təmin olunmasında rolunu anlaya bilək.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002.
2. Əsgəroğlu İ., İbrahimov A. Zəmanəmizin böyük azərbaycanlısı. Bakı, 2002.
3. Hacıyev İ. Heydər Əliyev və milli yaddaşın bərpası. Bakı, 2003.
4. Heydər Əliyev və müasir Azərbaycan. I Ümumrespublika Əliyevşünaslıq konfransı (məruzələr toplusu). Bakı, 2003.
5. Həsənov Ə. Azərbaycan-ABŞ və Avropa dövlətləri ilə münasibətləri. Bakı, 2000.
6. Həsənov Ə. Azərbaycanın xarici siyasəti. Bakı, 1998.

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İNSAN AMİLİNƏ YANAŞMASININ ÜMUMİ CƏHƏTLƏRİ

**Tohid Məmmədov**
*SDU-nun müəllimi, tarix üzrə fəlsəfə doktoru*
*tohid.mamedov@mail.ru*
**Əhliman Dadaşzadə**
*ehlimandadaszade@gmail.com*

**Acar sözlər:** Azərbaycan, Heydər Əliyev, İlham Əliyev, dövlət, müstəqillik,
**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, Ильхам Алиев, государство, независимость
**Keywords:** Azerbaijan, Heydar Aliyev, Ilham Aliyev, people, independence

Ümummilli Liderimiz Heydər Əliyev dünya tarixinin dahi şəxsiyyətlərindən biri, Azərbaycanın böyük siyasi və dövlət xadimidir. Heydər Əliyev dövlət təhlükəsizliyi komitəsində fəaliyyəti dövründə bu mühüm strukturun azərbaycanlılaşdırılması üçün öz xalqı qarşısında misilsiz xidmət göstərmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən mükəmməl iqtisadi inkişaf konsepsiyası hazırlanmış, ənənəvi təsərrüfat sahələrinin şöhrət və səmərəliliyi bərpa edilmiş, yeni-yeni istehsal sahələrinin, iqtisadiyyatın əsası qoyulmuş, sənaye bazası genişləndirilmiş və müasirləşdirilmişdir. Nəticədə Azərbaycanın iqtisadi potensialı güclənmişdir. Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə (1969-1982-ci illər) idarəetmə mexanizmi və metodlarının təkmilləşdirilməsi, qanuna ciddi əməl edilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafı sahəsində yüksək göstəricilər əldə etməklə yanaşı, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, tarixi yaddaşının özünə qaytarılması, soykök əsasında millətdə müstəqil dövlətçilik ideyalarının güclənməsi və realaşması üçün də çox mühüm işlər görmüşdür. Bütün bununla yanaşı insan amilinə böyük əhəmiyyət vermişdir [1, s. 342, 343].

Azərbaycanda yaşayan bütün insanların əməyinə dəyər verən, zəhməti qiymətləndirən insan hər cür xaruqələr yaratmaga qadirdir. Bu sadə həqiqəti özünün rəhbərlik fəaliyyətində daimi nəzərə alan, quruculuğu, əməksevərliyi, fədakarlığı hər zaman layiqincə qiymətləndirərək, zəhmətkeş, təşəbbüskar insanları qarşıya qoyulmuş ən çətin və mürəkkəb vəzifələri uğurla yerinəyetirməyə səfərbər edən Ulu Öndər Heydər Əliyev haqq-ədalət mücəddiməsi idi. Həyatı boyu güclünü-gücsüzdən, haqqı-nahaqdan qoruyan, hər yerdə həmişə öz aqilliyini və aliliyini sübuta yetirən bu dahi şəxsiyyət totalitar sovet rejimində belə nüfuz dairəsindəki bütün məkanlarda haqq ədalətin zəfər

çalmasına nail olmuş, ölkəmizdə müstəqil dövlət quruculuğu dövründə isə insan və vətəndaş, hüquq və azadlığın tam təmin edilməsi naminə müstəsna xidmətlər göstərmişdir. Əməyə və əməkçiyə həssas səmimi münasibət, sadə adamları qəlbən duyması, onların ülvi, misilsiz arzularının, diləklərinə çatması, Ulu Öndərimizə tükənməz ümumxalq məhəbbəti qazandıran amillər sırasında xüsusi yer tutur.

Sərt rejimli dövlət təhlükəsizlik orqanlarında öz fitri istedadı, tükənməz təşkilatçılıq qabiliyyəti ilə yüksək rütbəyə və vəzifəyə çatmış Heydər Əliyev sərkərdə qüdrəti ilə Respublikamızın idarəçilik sistemində dəmir nizam-intizam yaratmaqla yanaşı cəmiyyətin və vətəndaşların yaradıcılıq, quruculuq potensialının açılmasına, onlardan məqsədyönlü səmərəli şəkildə istifadə edilməsinə nail oldu.Vüsətli iqtisadi inkişaf nəticəsində əhalinin sosial problemlərinin həlli üçün geniş imkanlar, maliyyə resursları əldə edildi. Bu imkanlar yaşayış səviyyəsinin yüksəldilməsinə, mədəni tərəqqiyə, təhsilə, səhiyyəyə, bədən tərbiyyəsi və idmana, istirahətə və asudə vaxtın səmərəli təşkilinə yönəldildi.

Ulu Öndərimiz vətəndaşların qanuni mənafelərinin, əmək hüquqlarının qorunmasında, sosial problemlərinin həllində mühüm rol oynayan, zəngin tarixi keçmişə malik həmkarlar ittifaqı təşkilatının fəaliyyətinə daimi diqqət və qaygı göstərmişdir [2, s. 24].

Ümummilli Liderimiz Heydər Əliyev hələ sağlığında ikən, canlı əfsanəyə çevrilmişdi. Dünyanın tanınmış siyasətçiləri də, onunla görüşəndən sonra Heydər Əliyev haqqında yüksək fikirlər söyləyirdilər. Heydər Əliyevin dərin zəkası, qətiyyəti məntiqi, hadisələri düzgün təhlil edib qiymətləndirmək bacarığı, gələcəyi görmək istedadı imkan verirdi ki, tarixin gedişini qabaqcadan bilsin, hadisələri nəzərdə tutdugu planlara uyğun istiqamətləndirsin. Azərbaycan xalqı özünü xoşbəxt saymaqda haqlıdır. Dünya siyasətçiləri də bu qənaətdədir. E.Şevardnadze belə deyib: “20-ci əsr liderlər əsridir, əsrin lideri Heydər Əliyevdir”. Ümummilli Liderimiz Liderlərin fövqünə yüksəldi, Azərbaycan dövlətini qurdu, inkişaf etdirdi, qabaqcıl ölkələr sırasına çıxartdı. Heydər Əliyev Dövlət təhlükəsizlik komitəsində çalışdığı illərdə Azərbaycanda represiyanı aparmış adamlardan hələ də orada işləyənlər var idi. Azərbaycanlılar burada çox az idi. Ümummilli Liderimiz bu komitəni xalqımızın düşmənlərindən təmizlədi. 1969-cı ildən sonra isə, bu siyasət bütövlükdə Azərbaycanda aparılmağa başladı. Bu məqsədlə bağlı çıxışlarının birində Ümummilli Liderimiz Heydər Əliyev belə demişdir: “*Dövlət təhlükəsizlik komitəsində işləyərkən çox şey görmüşdüm. Moskvanın birtərəfli türk millətini əsarətdə saxlamaq siyasəti olduğunu ilk gündən şahidi oldum. Daxilən buna qarşı üsyan etsəm də, həyatda buna qarşı imkanım yox idi. Azərbaycan KPMK-nın birinci katibi işləyərkən, Moskvaya qarşı çıxmağım, toqquşmağım mümkün deyildi. Əgər onların əleyhinə çıxsa idim, bunun bir əhəmiyyəti olmayacaqdı, həm də, Əliyev ölkənin digər katibləri kimi məhv ediləcəkdi.*

*Yavaş-yavaş mən də, doğma millətimin milli hisslərini oyatmağa başladım, xalqın milli hisslərini, Azərbaycan türkçülüyünün milli oyanışını reallaşdırmaq arzusunda idim. Bu işləri Moskvaya hiss etdirmədən, onu narahat etdirmədən görmək istəyirdim. Moskvada sovet ideologiyasına daha yaxından bələd oldum, fikirlərim get-gedə daha da duruldu, aydınlaşdı. Moskvada xarici dünyanı həm daha açıq, həm də yaxından öyrənmək imkanı əldə etmişəm*”.

Heydər Əliyev rəhbərliyə təyin olunandan az sonra məlum oldu ki, yeni rəhbər bütün işlərdə, xalqına, onun ziyalılarına arxalanır, məsləhətləşirdi. Ümummilli Liderimiz daim insanların arasında olur, həyata keçirəcək proqramların icra olunduğu yerlərə gedir, problemləri öyrənir, konkret tapşırıqlar verirdi.

Xalq tərəfində böyük razılıq hissi ilə qarşılanan əsas məsələ yeni rəhbərin təmiz Azərbaycan dilində danışmasıydı. Üstəlik, Ümummilli Liderimiz elə bir mühit yaratmışdı ki, daha dövlət idarəçiliyində Azərbaycan dilində danışanlara xor baxmırdılar və yaxud “ərizəni rus dilində gətir” demirdilər. Digər tərəfdən, Respublika rəhbərliyinin öz xalqının dilinə, tarixinə, mədəniyyətinə belə qayğı göstərməsi çoxları tərəfindən qısqanclıqla qarşılanırdı. Moskvaya gedən donoslarda Heydər Əliyevi millətçi adlandırırdılar, amma bu güclü şəxsiyyətin məntiqi qarşısında Moskva susmalı, geri çəkilməli olurdu.

Nəhayət, 1978-ci ildə qəbul edilən “Azərbaycan SSR-nin kostitusiyası”nda belə bir müddəa əksini tapdı: Azərbaycan SSR-nin dövlət dili Azəbaycan dilidir”. Bu çox böyük bir qələbə idi. Heydər Əliyevin ağlının, zəkasının, güclü iradəsinin, milli xalq sevgisinin, uzaqgörənliyinin qələbəsi idi [3, s. 12].

Azərbaycan Respublikası SSRİ-nin süqutundan sonra milli müstəqilliyini bərpa etmiş, demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti yaradılması istiqamətində də, qısa müddət ərzində böyük naliyyətlər əldə etmişdir. Müstəqil Azərbaycan dövləti sovet sistemindən miras qalmış, totalitarizm buxovlarından qurtulub sivil cəmiyyət, liberal iqtisadi sistem və dünya ölkələrinə mövcud hüquq normalarına uyğun beynəlxalq münasibətlər yaratmaq yolunda addımladı.

Sovet ittifaqı dağılandan sonra Azərbaycan xalqının imdadına Ulu Öndər çatmışdır. Həmin dövrdə ölkədə vəziyyət çox ağır idi. İnsanların bu gündən sabaha ümidləri yox idi, lakin Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan bu ağır vəziyyətdən çıxmağa başladı. Ölkədə vəziyyət stabilləşdi, iqtisadiyyat dirçəlməyə başladı.

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan respublikasında dövlətçiliyin iqtisadi, siyasi, hüquqi və ideoloji əsasları sarsıdan bir çox sosial-mənəvi problemlər də, məhz milli strategiyanın olmaması üzündən meydana çıxmışdı.

1991-1995-ci illərin iyun ayınadək respublikamızın üzləşdiyi böyük problemlər, ilk növbədə, xalqın dəstəklədiyi legitim hakimiyyətin, eyni zamanda

yeni ictimai–iqtisadi formasiyada dövlətin gələcək inkişafı yolunu düzgün müəyyənləşdirə biləcək qətiyyətli və müdrik siyasi rəhbərin olması ilə bağlı idi.

1993-cü ilin iyununda kifayət qədər mürəkkəb siyasi şəraitdə xalqın təgidli çağırışına biganə qalmayaraq Naxçıvandan Bakıya dönən, vəziyyəti stabilləşdirərək ölkəyə rəhbərlik missiyasını inamla həyata keçirməyə başlayan Ulu Öndər Heydər Əliyev qısa müddətdə ictimai-siyasi sabitliyin, qanunculuğun, hüquq qaydasının mökəmləndirilməsinə nail olmuş, sistemli şəkildə hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti istiqamətində mühüm addımlar atmışdır [4, s. 8].

Tarixi təcrübə sübut edir ki, dövlət idarəetmə sistemində davamlı uğurlara yol açan vacib amillərdən biri də, məhz siyasi varislik ənənələrinin təmin olunmasıdır. Müstəqil Azərbaycanın son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ciddi uğurlara imza atması, sürətli iqtisadi inkişaf tempi ilə dünyada siyasi mövqeyini də qoruyub saxlaması da, məhz dövlət idarəçiliyinin uzun illər ərzində formalaşmış təcrübədən uğurla çıxmış, mükəmməl mexanizmlər əsasında həyata keçirilməsi nəticəsində gercəkləşmişdir. Ümummilli Lider ciddi elmi təməllərə söykənən inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən surətli inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq olmuşdur.

Ölkənin dinamik sosial-iqtisadi inkişafı ölkə başçısına son illərdə insan və vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə təminatına xidmət edən islahatları keyfiyyətcə yeni mərhələdə uğurla davam etdirmək imkanı yaratmışdır. Prezident İlham Əliyevin ictimai həyatın bütün sahələrində, o cümlədən hüquqi dövlət quruculuğu yönümündə həyata keçirdiyi islahatların başlıca qayəsində məhz insan və şəxsiyyət amili dayanır.

Dövlət başçısı haqlı olaraq vurğulayır ki, iqtisadi sahədə keçid dövrünü başa vuran Azərbaycan üçün vacib məsələlərdən biri demokratikləşmə prosesini, siyasi və hüquqi islahatları cəmiyyətin inkişaf ahənginə uyğun daha da dərinləşdirmək, son nəticədə qanunun aliliyini, insan hüquqlarının preoritetliyini bütün səviyyədə təmin etməkdir. Son 17 ildə Azərbaycanda həyata keçirilən milli demokratik keçidin mahiyyətini də, məhz iqtisadi firavanlıq müəyyənləşdirir. Azərbaycan xalqının Ümummilli Lideri böyük türk oğlu Heydər Əliyevin apardığı uzaqgörən daxili və xarici siyasəti nəticəsində çoxəsrlik dövlətçilik ənənələrinə malik Azərbaycan daha da inkişaf etdirildi. Heydər Əliyevin yaratdığı dövlətimizin atributu sayılan Azərbaycanın silahlı qüvvələri, Azərbaycanın nizami ordusu başda Azərbaycan Respublikasının prezidenti, silahlı qüvvələrin Ali baş komandanı İlham Əliyevin rəhbərliyi ilə erməni faşistlərinə qarşı ordumuzun qələbəsi 44 günlük Vətən Müharibəsində doğma Qarabağımız düşməndən azad olmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir. Hal-hazrda erməni vandallarının dağıtdığı şəhər, qəsəbə və kəndlərimizin bərpasına start verilmişdir.

***“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.***

*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

Ümummilli Liderimiz Heydər Əliyevin nəzəri ideyaları, onun layiqli davamçısı İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirməklə demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycan Respublikasında uğurlu islahatlar aparılır, Azərbaycan çiçəklənən dövlətə çevrilməkdədir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Xalq Cumhuriyyətinin Ensiklopediyası. 2 cilddə. c.1. Bakı: Lider, 2004, 440 s.
2. Mehbalıyev S. Əməyə və Əməkçiyə yüksək dəyər verən dahi rəhbər // Respublika, 10 may 2008, №100(3235).
3. Əsgərov M. Ümummilli Liderimiz humanizmi dövlət siyasətinin mühüm tərkib hissəsinə çevirdi // Xalq qəzeti, 7 may 2008, №97(25862).
4. Cəfərov Z. Hüquqi dövlət ideyasını gerçəyə çevirən lider // Azərbaycan qəzeti, 20 aprel 2013, №83(6358).

# II BÖLMƏ

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT STRATEGİYASI: XARİCİ SİYASƏT İSTİQAMƏTLƏRİ

## TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞI ƏDƏBİ VƏ MƏDƏNİ ƏLAQƏLƏRDƏ

**Aynur Səfərli**
*BDU-nun doktorantı*
*seferli_1988@bk.ru*

**Açar sözlər:** Heydər Əliyev, Türkiyə, Azərbaycan, dostluq-qardaşlıq əlaqələri, türkologiya, ədəbi əlaqələr
**Ключевые слова:** Гейдар Алиев, Турция, Азербайджан, дружеские и братские отношения, тюркология, литературные отношения
**Keywords:** Haydar Aliyev, Turkey, Azerbaijan, friendly and fraternal relations, Turkology, literary relations

Türkiyə ilə Azərbaycan arasında mövcud olan yüksək-səviyyəli əlaqələr, dostluq və qardaşlıq münasibətləri dərin tarixi köklərə əsaslanır. Hər iki ölkənin eyni dinə, dilə, oxşar mədəniyyətə və digər adət-ənənələrə malik olması ölkələrimiz arasında əlaqələri daim möhkəmləndirib və ən yüksək səviyyəyə çıxarıb. Türkiyə ilə Azərbaycan həm çətin, həm də xoş günlərdə daim bir-birilərinin yanında olub. 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun Bakıya gəlməsi və daşnakların ölkəmizə qarşı təcavüzünün qarşısının alınması, eyni zamanda Anadoluda Qazi Mustafa Kamal Atatürkün öndərliyi ilə aparılan milli mübarizəyə azərbaycanlıların maddi və mənəvi yardım göstərmələri iki ölkə arasında münasibətlərin tarixən dostluq və qardaşlıq, qarşılıqlı inam və etimad əsasında formalaşdığını aydın şəkildə göstərir. Əfsuslar olsun ki, Azərbaycanın SSRİ-nin tərkibinə daxil edilməsi Türkiyə ilə Azərbaycan arasında da münasbətlərə öz mənfi təsirini göstərmişdir. Lakin bununla belə Azərbaycan Sovet İttifaqının tərkibində olarkən də iki respublika arasında rəsmi münasibətlər mövcud olub. Belə ki, 1967-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin və 1969-cu ildə Türkiyə Cümhuriyyətinin prezidenti Cövdət Sunayın Bakıya səfərləri iki ölkə arasında əlaqələrin sarsılmaz olduğunu göstərir. Azərbaycan yenidən öz müstəqilliyini qazandıqdan sonra Türkiyə ilə Azərbaycan arasında

münasibətlər yeni mərhələyə qədəm qoydu. 1991-ci il noyabrın 9-da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu. 1992-ci il yanvar ayının 14-də Azərbaycan-Türkiyə diplomatik əlaqələri yaradıldı. Həmin vaxtdan Türkiyənin Azərbaycanda, 1992-ci ilin avqustundan isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başladı. Həmin vaxtan etibarən iki qardaş ölkə arasında siyasi və iqtisadi əlaqələr sürətlə inkişaf etməyə başladı.

İki ölkə arasındakı münasibətlərin inkişafında Ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri var. Azərbaycan ilə Türkiyə arasındakı münasibətləri “Bir millət, iki dövlət” kimi xarakterizə edən Ulu öndər iki qardaş ölkə arasında münasibətlərin inkişaf etməsi istiqamətində böyük əmək sərf edib. Həm region, həm də beynəlxalq aləm üçün mühüm əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu kimi iri-miqyaslı layihələrin reallığa çevrilməsində Ulu öndər Heydər Əliyevin misilsiz xidməti olub.

Prezident İlham Əliyev Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən strateji hədəflər istiqamətində mühüm addımlar ataraq iki qardaş ölkə arasında münasibətlərin keyfiyyətcə yeni müstəviyə çıxmasına nail olub. Bu gün Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlər hər iki ölkə prezidenti tərəfindən həyata keçirilən düzgün və məqsədyönlü siyasətin nəticəsində daim möhkəmlənir və bu istiqamətdə yeni perspektivlər açılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iki ölkə arasında münasibətlərin mövcud vəziyyətini belə dəyərləndirir: “*Türkiyə-Azərbaycan əlaqələri indi ən yüksək səviyyədədir. Bu əlaqələr strateji xarakter daşıyır, dostluq, qardaşlıq prinsiplərinə əsaslanır. Bizi birləşdirən həm tarixi köklər, həm mədəni əlaqələr, bizim keçmişimiz və bugünkü siyasi maraqlarımızdır.”* Torpaqlarımızın 20 faizi işğal altında olarkən də, Ermənistana etiraz olaraq bu ölkə ilə sərhədlərini bağlamış Türkiyə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ölkəmizin ədalətli mövqeyinə daim tam dəstək vermişdir.

Azərbaycanla Türkiyə arasında ədəbi-mədəni əlaqələr olduqca sıx olmuşdur. Akademik İ.Həbibbəylinin "Ədəbiyyat tarixçiliyinin Ə.Kabaklı konsepsiyası" adlı tədqiqatı əhəmiyyətli məqalələrdəndir. Akademik İ.Həbibbəyli sözügedən məqaləni Ə.Kabaklının "Türk ədəbiyyat tarixi"nin yeni ədəbiyyat konsepsiyaları hazırlamaq baxımından düşündürücü elmi-nəzəri örnək hesab edir. Professor R.Əskər, Ə.Rəsulov, akademik N.Cəfərov da Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin inkişafında mühüm yeri olan alimlərimizdəndirlər.

Türkiyədə Azərbaycanlı alimlərin ədəbi iris araşdırılır. Anar, Elcin, H.Cavid, Z.Yaqub, M.İsmayıl və s. kimi görkəmli şair və yazıçılarımızın əsərləri Türkiyə türkcəsinə tərcümə olunaraq geniş oxucu kütləsinə təqdim olunur. Türkiyədə ədəbi əlaqələrimizin inkişafında Azərbaycanşunaslıq elminin görkəmli tədqiqatçısı Yavuz Akpınarın xidmətlərini xususilə qeyd olunmalıdır [5].

Atatürk Kültür Mərkəzi [1; 2; 3; 4; 6; 7; 8; 9, s.296-300; 10; 13; 14; 15;

17; 23; 24] və Qafqaz Universitetinin yayınları [11; 12; 18; 19; 20; 21; 22] da ədəbi əlaqələrimizin inkişafına böyük bir ərməğandır [9, s.296-300].

Ədəbi əlaqələrin inkişafında keçirilən beynəlxalq elmi konfransların, bağlanılan müqavilələrin mühüm əhəmiyyəti vardır. 12 fevral 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Türkiyənin Türk Ədəbiyyatı Vəqfinin nümayəndə heyəti ilə keçirilən görüş, iki qardaş xalq arasında elmi-ədəbi əməkdaşlığın inkişafında çoxşaxəli fəaliyyətinə görə akademik İ.Həbibbəylinin Türk Ədəbiyyatı Vəqfinin rəhbəri S.Kabaklı tərəfindən Vəqfin "Təşəkkürnamə"si və 10 fevral 2018-ci ildə Türkiyə Cümhuriyyəti Türk Ədəbiyyatı Vəqfinin "Şükran Beratı" ilə ilə təltif edilməsi, 20 aprel 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda tanınmış alim Y.Akpınara Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "İlin alimi" mükafatının təqdim olunması, 25 aprel 2018-ci ildə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Bakı Yunus Əmrə İnstitutu və Xaricdə Yaşayan Türklər və Qohum Cəmiyyətlər Birliyinin birgə təşkilatçılığı ilə Ədəbiyyat İnstitutunda "XX əsrin əvvəllərindən bu günə Azərbaycan-Türkiyə ədəbiyyat və maarif münasibətləri" adlı panelin təşkili qeyd olunanlara əyani sübutdur.

Unutmamalıyıq ki, bu ənənə həmişəyaşar rəhbərimiz Heydər Əliyevdən gəlir. Hələ ümummilli liderimiz Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsində çalışarkən, Türkiyədə Azərbaycan tarixi və ədəbiyyatından dərs deyən müəllimlərin ölkəmizə gələrək azərbaycanlıların həyatı ilə, qazanılmış uğurlarla tanış olmalarına, Azərbaycan mənbələri əsasında araşdırmalar aparmalarına şərait yaradtmışdı. 1981-ci ilin mart ayında Ərzurum Universitetinin müəllimi, Azərbaycan ədəbiyyatından dərs deyən, Mirzə Fətəli Axundovun əsərlərini türk dilinə çevirən Əli Yavuz Akpınarın Azərbaycana gəlib tədqiqat işi aparmasına nəinki icazə verildi, eyni zamanda, bütün xərcləri Heydər Əliyevin göstərişi ilə Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti tərəfindən ödənildi. Bundan sonra Əli Yavuz Akpınar Azərbaycan ədəbiyyatı haqqında dəyərli əsərlər yazmışdır [16, s.15].

Beləliklə, Türkiyə və Azərbaycan arasında əlaqələrin gücləndirilməsi Qafqaz bölgəsində sabitliyin təmin edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Ölkələrimiz arasında əlaqələrin inkişafı və möhkəmlənməsi regionun bir çox istiqamətdə – iqtisadi, mədəni, elmi, ədəbi inkişafına, sabitliyinə və təhlükəsizliyinə mühüm töhfələr verir.

Araşdırmamız zamanı məlum oldu ki, müstəqillik illərində Azərbaycan-Turkiyə ədəbi əlaqələrinin daha da inkişaf etdirilməsi istiqamətində Azərbaycan alimləri misilsiz işlər görmüşlər. AMEA Nizami adına Ədəbiyyat İnstitutunun alimlərinin, AMEA Z.Bunyadov adına Şərqşunaslıq İnstitutunda Turk filologiyası, Folklor İnstitutunda Türk xalqları folkloru, BDU-da Türkologiya kafedrası (Türk xalqları ədəbiyyatı kafedrası da hal-hazırda bu kafedra ilə birləşdirilmişdir), ADPU-da Turk odası və s. elmi müəssisələrində

ədəbi əlaqələrin inkişafı istiqamətində görülən işlər danılmazdır. Hazırda da Azərbaycan-Turkiyə ədəbi əlaqələri geniş vüsətlə davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycanda Atatürk və Türkiyə Cumhuriyyəti araşdırmaları / tərtib edən S.Məmmədova. Bakı: AzAtaM, 2003.
2. Heydər Əliyev Atatürk haqqında” / (İngilis dilində); tərcümə edən İ.Abdullayeva, tərtib edən: S.Nəzərli. Bakı: AzAtaM, 2004.
3. Abbasov A.. Atatürk haqqında hekayələr. Bakı: AzAtaM, 2007.
4. Abbasov A.N. (Nurağaoğlu). Atatürk pyesi. Bakı: Mütərcim, AzAtaM, 2007.
5. Akpınar Y. Azəri araşdırmaları, İstanbul: Dərgah yayınları, 1994.
6. Avşar A. Aydınların gözü ilə Azərbaycan. Ziyalılarla kültür gəziləri. Bakı: AzAtaM, 2007.
7. Avşar A. Türkiyənin istiqlal müharibəsində Azərbaycan türkləri. Bakı: AzAtaM, 2007.
8. Azərbaycan-Türkiyə münasibətləri (1920-1922). Sənədlər və materiallar / tərtib edənlər J.Qurbanova, M.Piriyev. Bakı: AzAtaM, 2002.
9. Babayeva E. Azərbaycan-Türkiyə ədəbi əlaqələrinə bir nəzər (1990-2016-ci illər) // I Turkoloji Qurultayın 90 illiyinə həsr olunmuş beynəlxalq konfrans: Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar (II hissə) Bakı: Elm və təhsil, – 2016, s.296-300.
10. Cəfərov N., Tural M.A. Atatürkün Azərbaycan siyasəti. Bakı: AzAtaM, Caşıoğlu, 2008.
11. Evliya Çələbi Səyahətnaməsində Azərbaycan / Azərbaycan türkcəsinə uyğunlaşdıran M.Təkləli. Bakı: Nurlar, 2012.
12. Hacıyeva M., Rıhtım M.. Yəhya Kamal Bəyatlı. Bakı: Nurlar, 2011.
13. İlkin Q. Türk ordusu Bakıda. Bakı: AzAtaM, 2003.
14. İlkin Q. Türk yazıçıları Bakıda. Bakı: AzAtaM, 2007.
15. Nəzərli S. Heydər Əliyev Atatürk haqqında. Bakı: AzAtaM, 2003.
16. Ömərov V. Ulu Öndər Heydər Əliyevin sovet dövründə Azərbaycan-Türkiyə mədəni əlaqələrini genişləndirməsi // Səs qəzeti. 19 mart 2013, s.15.
17. Quliyev Ə., Axundov A. Qazi Mustafa Kamalın dostu. Bakı: AzAtaM, 2008
18. Rıhtım M., Bakırkaya A. Könül memarları və irfan yolu. Bakı: İpəkyolu, 2013.
19. Rıhtım M., Tatcı M. Yahya Şirvani’den Şaban-ı Veli’ye. Halvetiyye Sufiliği. Bakı: Nurlar, 2013.
20. Rıhtım M. Seyid Yəhya Bakuvi / tərcumə edən F.Əliyeva. Bakı: Elm və təhsil, 2013.
21. Süleymanov M. Nuri Paşa. Bakı: Nurlar, 2008.
22. Təkləli M. Türk kitabı. Bakı: Nurlar, 2009.
23. Türkiyə Atatürkün, Azərbaycan Respublikası Heydər Əliyevin əsəridir. Bakı: AzAtaM, 2002.
24. Ulusel R. Heydər Əliyev və Azərbaycan, Atatürk və türk dünyası Nizami Cəfərovun elmi araşdırmalarında. Bakı: Elm, 2004.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏTƏ STRATEJİ KONSEPTUAL YANAŞMASI

**Bəxtiyar Nəbiyev**
*Bakı Dövlət Universiteti, dosent*
*bakhtiyarnabiyev@bsu.edu.az*

**Açar sözlər**: Azərbaycan, Heydər Əliyev, xarici siyasət, strategiya, konseptual
**Ключевые слова**: Азербайджан, Гейдар Алиев, внешняя политика, стратегия, концептуальный
**Keywords**: Azerbaijan, Haydar Aliyev, foreign policy, strategic, conceptual

10 oktyabr 1993-cü ildə Azərbaycan Prezidenti Ümummilli Lider Heydər Əliyev demişdir ki, dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi yolundakı əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini beynəlxalq aləmdə qorumağa imkan verən səriştəli xarici siyasətdir [5, s.27]. 1993-cü ilin ortalarmdan etibarən Azərbaycan Respublikasının xarici siyasət xəttinin prinsipləri - ölkədə və dünyada sülh, bütün ölkələrlə bərabərhüquqlu əməkdaşlıq, hərbi bloklarda iştirak etməmək, başqa ölkələrin daxili işlərinə qarışmamaq, dövlətlərin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri dəqiq cizgilər kəsb etməyə başladı. Azərbaycan xalqının ümummilli lideri, dahi siyasi xadimi Heydər Əlirza oğlu Əliyevin 1993-ci ildə hakimiyyətə qayıdışı ilə bu prinsiplər xarici siyasətimizdə tam bərqərar oldu [3, s.318].

Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyasında öz əksini tapmışdır. 10-cu maddədə ölkənin digər dövlətlərlə münasibətlərini beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş prinsiplər əsasında qurduğu bildirilir [4]. Yəni, BMT Nizamnaməsində və ATƏM-in Helsinki Yekun Aktında əks olunan əsas prinsiplər üzərində fəaliyyət həyata keçirilirdi.

Azərbaycan dövlətinin xarici siyasətinin ən vacib prinsipləri Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən formalaşdırılmış və beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət, bütün dövlətlərin suveren hüquqlarına hörmət, münaqişələrin sülh yolu ilə həll olunmasından ibarət idi. Danışıqlar, qarşılıqlı faydalı iqtisadi əlaqələrin qurulması yolu ilə bütün mübahisəli məsələlərin, elmi və mədəni əməkdaşlıq, eləcə də dövlətlərarası əlaqələrin inkişafına mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması əsas metodlar kimi qəbul edilirdi.

Azərbaycanın ən vacib vəzifəsi ölkənin müstəqilliyini və suverenliyini möhkəmləndirmək idi. Dövlətin xarici siyasətinin əsas prioriteti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, Azərbaycanın

beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünün bərpası idi. Ermənistanla münasibətlərə gəlincə, Azərbaycan siyasətinin ana xətti həm nüfuzlu beynəlxalq təşkilatların, ilk növbədə ATƏT-in vasitəçiliyi ilə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə sadiq qalmaq və birbaşa danışıqlar yolu ilə məsələni həll etmək idi. Lakin məlumdur ki, Ermənistanın qeyri destruktiv mövqeyi İkinci Qarabağ savaşına və Heydər Əliyev strategiyasının layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tərəfindən düşmənin darmadağın olmasına gətirib çıxardı.

Ümummilli Lider Heydər Əliyevin strategiyasını qurarkən Azərbaycanın dünya xəritəsində çox vacib bir geosiyasi mövqe tutduğunu nəzərə alırdı. Mühüm nəqliyyat və rabitə marşrutları respublikanın ərazisindən keçir, bu da Azərbaycanı regional və qeyri-regional ölkələrin maraqlarının cəmləşdiyi bir yerə çevirir. Onun tərəfindən müəyyən edilən Azərbaycan diplomatiyasının prioritet vəzifəsi həm regional, həm də dünyanın aparıcı ölkələrinə münasibətdə qarşılıqlı faydalı, bərabər və dost xarici siyasət yürütmək idi.

Milli maraqların qorunması və milli təhlükəsizliyin təmin edilməsi məsələsində Azərbaycan tam hüquqlu üzvü olduğu BMT, ATƏT, Avropa Şurası, İƏT, MDB kimi müxtəlif beynəlxalq təşkilatlarda fəal iştiraka xüsusi əhəmiyyət verirdi. Avropa İttifaqı və Şimali Atlantika İttifaqı ilə əməkdaşlıq da respublika üçün vacib sayılırdı.

Azərbaycanın xarici siyasətinin mühüm prioriteti beynəlxalq enerji siyasətinin həyata keçirilməsini təmin etmək idi. Bu siyasət dövlətin iqtisadi inkişafında mühüm amil oldu. Azərbaycanın zəngin karbohidrogenlərinin inkişafı və dünya bazarlarına nəqli beynəlxalq iqtisadi əməkdaşlığı inkişaf etdirməklə yanaşı, ölkə əhalisinin rifah halının artmasını da təmin etdi.

Ümummilli lider Heydər Əliyev xarici siyasətində ən önəmli istiqamətlərdən biri kimi Rusiya ilə münasibətləri diqqətdə saxlayırdı. Ümummilli Lider Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə mərkəzi hakimiyyətin həyata keçirdiyi siyasət onun birbaşa müdaxiləsi nəticəsində Azərbaycan xalqının maraqları istiqamətində zərərsizləşdirildi. Milli bir düşüncəyə malik olan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin dövlət dili olaraq elan edilməsi və tətbiqi, milli ənənələrin qorunması, erməni separatizminin qarşısının alınması istiqamətində xüsusi işlər gördü. Azərbaycanlı tələbələrin Rusiya ali məktəblərində təhsil almasına yardım etməklə milli ziyalı təbəqəsini gücləndirdi. Təbii ki, bu da öz növbəsində Azərbaycan xalqının milli və siyasi şüurunun qorunmasına zəmin oldu. Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında mədəni və elmi əməkdaşlıq haqqında Saziş 06 iyin 1995-ci ildə imzalanmışdır. Sazişdə bildirilirdi ki, tərəflər öz mədəniyyətlərinin çoxəsrlik təmas təcrübəsinə əsaslanaraq hesab edirlər ki, mədəni əməkdaşlıq, onların xalqları arasında qarşılıqlı anlaşma və inam, dövlətlərarası və millətlərarası əlaqələrin möhkəmlənməsi üçün əsas

faktordur. 1996-cı il yanvarın 18-də Moskva şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında müqavilə imzalanmışdı. Bu cür müqavilənin imzalanması ilə Azərbaycan həm öz neftinin xaricə ixracını təmin etmiş olur, həm də bununla Rusiya ilə münasibətlərin gərginləşməməsi istiqamətində işlər görülürdü. BTC-nin olmadığı dövrdə Rusiya marşrutu Azərbaycan üçün zəruri idi. İki ölkə arasında mövcud olan və daima inkişaf edən müqavilə-hüquq bazasının başlıca strateji xarakterli sənədi “Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında” Müqavilədir. Həmin müqavilə Azərbaycan Respublikasının Prezidenti Ümummilli Lider Heydər Əliyevin Moskvaya etdiyi rəsmi səfəri çərçivəsində imzalanmışdır. Müqaviləyə əsasən hər iki tərəf öz münasibətlərini etimad, strateji əməkdaşlıq əsasında nizamlayırdı. Belə bir müqavilənin imzalanması Azərbaycanın şimal istiqamətindən milli təhlükəsizliyinin diplomatik vasitələrlə təmin edilməsi demək idi. Müqavilənin imzalanması Ümummilli Lider Heydər Əliyevin diplomatik sahədəki strateji uğurlarından idi.

Digər bir istiqamət İran istiqaməti idi. İran ölkəmizlə sıx tarixi bağları olan bir dövlətdir. Rusiya qədər imkanları olmasa da son dövrlər Suriya və İraq ətrafında gedən proseslərdə hərbi və siyasi iştirakı ilə özünün iddialarını nümayiş etdirmişdir. Bu ölkədə azərbaycanlı amili bizim üçün olduqca önəmli bir vasitədir. Ümummilli Lider Heydər Əliyevin apardığı siyasət İranla münasibətlərin normallaşmasına səbəb oldu. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İran ilə konstruktiv əməkdaşlığın önəmini daim vurğulayaraq konseptual xarici siyasi xətti davam etdirmişdir.

Ümummilli Lider Heydər Əliyevin önəm verdiyi istiqamətlərdən biri də qardaş Türkiyə ilə münasibətlər idi. Bunu bir neçə nümunə ilə ifadə edə bilərik. 1994-cü ilin dekabrın 27-də Azərbaycan Respublikasının prezidenti Ümummilli Lider Heydər Əliyev Bakıya rəsmi səfərə gəlmiş Türkiyə Böyük Millət Məclisinin sədri Hüsaməddin Cindoruğu və qardaş ölkənin parlamentinin nümayəndə heyətini qəbul etmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasından sonra TBMM-in sədrinin və onun başçılığı ilə Türkiyə parlamentinin üzvlərinin tez-tez Bakıda qonaq olduğunu söylədi. O, hazırda Azərbaycanda həyatı baxımdan vacib, həm də mürəkkəb proseslərin, dövlət və parlament quruculuğu prosesinin getdiyini qeyd edərək, pespublika Ali Sovetinin bu sahədə zəngin təcrübəyə və tarixə malik TBMM-dən faydalanması üçün bu səfərin böyük əhəmiyyət kəsb etdiyini vurğuladı.

Budapeşt Sammitində Azərbaycanın mövqeyini dəstəkləyən Türkiyənin baş naziri Tansu Çillər qətiyyətlə bildirmişdi ki, əgər beynəlxalq birlik, ATƏM Qarabağ məsələsinin həllini gecikdirsələr, onda bu təşkilatların heç mənası və nüfuzu olmayacaq [1, s.82]. Türkiyənin rəsmi məqamlarının məsələyə bu cür yanaşması əslində onların müharibənin gedişatında bəzi qüvvələrin fikirlərini

tam anladığını ortaya qoyurdu. Belə ki, beynəlxalq təşkilatlar hələ də, hansısa bir regionda baş verən proseslərə birbaşa müdaxilə imkanlarına malik deyildilər. Onların qərarları böyük və aparıcı dövlətlərin maraqlarının təmin edilməsindən asılı vəziyyətdə idi.

Ümummilli Lider Heydər Əliyev intensivləşən ikitərəfli əlaqələr fonunda 3 may 1995-ci ildə respublikamızda səfərdə olan Türkiyənin Xarici işlər naziri Ərdal Ünönünü qəbul etmişdir. Qonağı səmimi salamlayan preziden Ümummilli Lider Heydər Əliyev bildirdi ki, qardaş ölkə kimi Türkiyə ilə əlaqələr Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir, çünki hər iki xalqı dil, din, mədəniyyət, adət-ənənələr eyniliyi birləşdirir. O, qeyd etmişdir ki, Azərbaycan rəhbərliyi Türkiyə ilə münasibətlərdə həmişə bu prizmadan çıxış edir.

Bunlar müəyyən misallar əsasında Ümummili Lider Heydər Əliyevin xarici siyasətinin strateji konseptual vizyona malik olduğunu göstərir. Məhz bu strateji təməllər üzərində Azərbaycan Respublikası prezidenti İlham Əliyev tərəfindən davam etdirilən siyasət torpaqlarımızın erməni işğalından azad edilməsinə gətirib çıxardı.

**Ədəbiyyat siyahısı**:

1. Abdallı H. Azərbaycan, Dünya Birliyi və Qarabağ problemi. Bakı: Yeni Nəsil, 2003, 130 s.
2. Abbasbəyli A.N. Azərbaycan mənim ürəyimdir (Heydər Əliyevin siyasi tərcümeyi-halından səhifələr). Bakı, 2002, 517 s.
3. Abbasbəyli A.N. Dünya siyasəti Bakı: NURLAR, 2011, 584 s.
4. Azərbaycan Respublikasinin Konstitusiyasi: Bakı, Qanun, 2009.
5. Навстречу к грядущему дню. «Наследие Гейдара Алиева». Международная Электронная Библиотека. Баку, 2004, с.27.

# MÜSTƏQİL AZƏRBAYCAN VƏ BEYNƏLXALQ TƏŞKİLATLAR HEYDƏR ƏLİYEVİN ƏSƏRLƏRİNDƏ

**Elnur Əbilov**
*Bakı Dövlət Universitetinin Tarix, Dil və Metodika mərkəzinin laborantı*
*elnurabilov@bsu.edu.az*

**Açar sözlər:** Heydər Əliyev irsi, beynəlxalq təşkilatlar, BMT, ATƏT, NATO
**Keywords:** Heydar Aliyev's heritage, ınternational organisations, UN, OSCE, NATO
**Ключевые слова:** Наследие Гейдара Алиева, международные организации, ООН, ОБСЕ, НАТО

Görkəmli dövlət xadimi Heydər Əliyevin irsinin araşdırılması elmi aktuallık kəsb edən mövzudur. Bu tədqiqatlar zamanı Azərbaycan tarixinin ən önəmli hadisələri, daxili və xarici siyasət prosesləri barədə dəyərli məlumatlar əldə edilir. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın qarşısında duran əsas vəzifələrdən biri milli maraqlara əsaslanan xarici siyasət kursunun müəyyən edilməsi idi. Bu məsələ hər zaman ümumilli lider Heydər Əliyevin nitqlərində, çıxışlarında, məruzələrində, həmçinin verdiyi müsahibələrdə və bəyanatlarda da öz əksini tapmışdır. Xalqın tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev ilk növbədə keçmiş rəhbərliyin xarici siyasət sahəsində buraxdığı kobud səhvləri və bunun nəticəsində Azərbaycan ətrafında formalaşmış çox gərgin beynəlxalq siyasi vəziyyəti aradan qaldırmaq istiqamətində iş aparmağa başladı. Heydər Əliyev irsində bununla bağlı ən önəmli çıxışlardan birinə nəzər salaq. 4 oktyabr 1994-cü ildə dövlət başçısı dünya dövlətlərinə və beynəlxalq təşkilatlara müraciətində qeyd etmişdir: “*Demokratik, hüquqi dövlət quran, bütün dünya ilə açıq siyasət yeridən Azərbaycan Respublikası təhlükədədir. Birbaşa xaricdən yönəldilən qüvvələr zor işlədərək silahlı qiyam yolu ilə dövlət çevrilişi etməyə cəhd göstərirlər*” [1].

Heydər Əliyev irsinin təhlili göstərir ki, beynəlxalq təşkilatlarla münasibətlərdə prezident Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas məzmununu hər zaman Dağlıq Qarabağ probleminin beynəlxalq normalara uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması təşkil edirdi. Azərbaycan Respublikası 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul olundu. 1994-cü ilin sentyabrın 29-da Nyu-Yorkda BMT Baş Məclisinin 49-cu sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev öz çıxışında Dağlıq Qarabağ problemi ilə bağlı bir çox vacib məqamlara toxundu. Sözügedən dövrdə regionumuzda baş verən hadisələr haqqında dünya

ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda isə birtərəfli məlumata malik olduğunu nəzərə alsaq Heydər Əliyevin bu çıxışı Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmaq baxımdan mühüm əhəmiyyət kəsb edirdi. O, öz çıxışında Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizdən çoxunun işğal edildiyini, 50 mindən çox azərbaycanlının öz dədə-baba yurdundan didərgin salındığını, 20 mindən çox adamın həlak olduğunu və 100 minə yaxın adamın yaralandığını bildirmişdir. Bundan əlavə, Ümumilli Lider öz nitqində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş bütün rayonlarından işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi 4 qətnamə və onun sədrinin 6 bəyanatına Ermənistan Respublikasının məhəl qoymadığını xüsusi olaraq dünya dövlətlərinin diqqətinə çatdırmışdır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası Heydər Əliyevin rəhbərliyi altında demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu seçmiş və buna görə də Avropa dəyərlərindən həm dövlət quruculuğu prosesində, həm də cəmiyyətin formalaşdırılmasında, sosial-iqtisadi sahədə bəhrələnmək bir vəzifə kimi qarşıda dururdu. Avropa dövlətləri ilə əməkdaşlıq Heydər Əliyevin xarici siyasət doktrinasının mühüm istiqamətini təşkil edirdi. 1996-cı il 22 aprel tarixində Lüksemburqda Azərbaycan Respublikası və Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı. Bu mərasimdəki çıxışında dahi lider Azərbaycanla Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəslədiyini və ölkəmizin bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəyini bildirmişdir [2, s. 11]. Eyni zamanda ölkəmizin əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və geniş nəqliyyat infrastrukturunun mövcuduğu Avropa ölkələrinin Azərbaycana olan marağını daha da artırırdı. Bunu yaxşı başa düşən uzaqgörən dövlət xadimi Heydər Əliyev həmin çıxışında Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının birgə istismarına dair xarici şirkətlərlə bağlanmış neft müqavilələrini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Bildiyiniz kimi, Azərbaycan ATƏM-in (1 yanvar 1995-ci ildən ATƏT) üzvlüyünə 1992-ci ilin 30 yanvarında qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, ATƏT Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatı olmuşdur. 1992-ci ilin mart ayının 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurasının 1-ci görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu və görüşdə ATƏM-in Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair Minsk konfransının çağırılması haqqında qərar qəbul edildi. 1994-cü ilin 4-6 dekabr tarixlərində Budapeştdə, 1996-cı il 2-4 dekabr tarixlərində isə Lissabonda Zirvə Toplantıları keçirilmişdir. Bu sammitlərlə bağlı Heydər Əliyev 1997-ci ilin 10 oktyabrında Strasburqda ATƏT-in keçmiş sədri Niyels Petersenlə görüşdə öz fikirlərini bölüşərək təşkilatın Budapeştdə böyük işlər gördüyünü, Lissabonda isə münaqişənin sülh yolu ilə həlli istiqamətində qəbul edilən 3 prinsipin

mühüm əhəmiyyətə malik olduğunu qeyd etmişdir. O, həmçinin bu görüşdə ATƏT-in Minsk qrupu həmsədrlərini sülh danışıqlarını intensivləşdirməyə çağırmış və cənab Petersenə ATƏT-in sədri kimi Azərbaycana gəlməyi və münaqişə ilə bağlı məsələlərlə yerində tanış olmağı təklif etmişdir [3, s. 293].

Heydər Əliyev Azərbaycanın ardıcıl olaraq Avroatlantik məkanına inteqrasiyası üçün NATO ilə əməkdaşlığıda vacib hesab edirdi. Elə ona görə də 1994-cü ildə NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramı yeni müstəqillik qazanmış ölkələrə təklif olunduqdan dərhal sonra Heydər Əliyev Brüsselə səfər edərək ölkəmizin bu proqrama qoşulması haqqında çərçivə sənədini imzalamışdır. Dövlət başçısı çərçivə sənədinin imzalanma mərasimində verdiyi bəyanatda (4 may, 1994-cü il, Brüssel, NATO-nun iqamətgahı ) Azərbaycanın Şimali Atlantika Alyansı ilə tərəfdaşlığının əsas prioritetlərini müəyyən etmişdir. Belə ki, Heydər Əliyev tədbirdəki çıxışında NATO ilə regional və enerji təhlükəsizliyi, terrorizmlə mübarizə, kütləvi qırğın silahlarının yayılmaması, narkotiklərin qeyri-qanuni dövriyyəsi və insan alveri, sərhədlərin mühafizəsi, fövqəladə halların fəsadlarının aradan qaldırılması, təhlükəsizlik və digər sahələrdə islahatlar istiqamətində əməkdaşlığın uğurla inkişaf etdirilməsinin vacibliyini bir daha vurğulamışdır [4].

Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra keçmiş Sovet respublikaları ilə çoxtərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparmağa başladı. Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə iqtisadi, ticarət və mədəni əməkdaşlıq məsələlərinə xüsusi önəm verildi. Eyni zamanda görkəmli dövlət xadimi ikitərəfli əməkdaşlıq sistemində Gürcüstan, Ukrayna və Moldova ilə əlaqələri də əhəmiyyətli hesab edirdi. Bu ölkələrlə əlaqələrin möhkəmləndirilib inkişaf etdirilməsi Heydər Əliyevin xarici siyasət konsepsiyasının yeni ən mühüm uğuru idi. Heydər Əliyev 7 iyun 2001-ci ildə Yaltada GUÖAM Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündəki çıxışında təşkilatın üzv ölkələr üçün əhəmiyyətindən bəhs etmişdir: “*Hazırda GUÖAM-ı əmələ gətirən beş ölkəni götürsək, görərik ki, üçündə hərbi münaqişələr gedir. Bizdə isə əslində müharibə idi. Ona görə də bizim məqsədimiz təşkilatımızın çərçivəsində həyata keçirilə biləcək ümumi səylərlə münaqişələrin dincliklə nizama salınmasına nail olmaqdır. Biz bunu Azərbaycan üçün çox mühüm vəzifə hesab edirik*” [5]. Həmçinin, Heydər Əliyev təşkilatın iqtisadi əlaqələrin daha fəal irəliləməsi üçün bir vasitə olduğunu da qeyd etmişdir.

Heydər Əliyev öz çıxışlarında və bəyanatlarında hər zaman qeyd etmişdir ki, uğurlu xarici siyasətin ən mühüm göstəricisi nüfuzlu beynəlxalq və regional təşkilatlarla münasibətlərin yaradılması və daha yüksək səviyyələrə qaldırılmasıdır. Beynəlxalq təşkilatlara üzv olmaq, onlarla səmərəli iş qurmaq Azərbaycanın problemlərini, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edirdi. Məhz buna görə də Azərbaycan BMT, ATƏT,

Avropa Şurası, MDB, GUAM, İKT, QİƏT, İƏT kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq etmiş və bu əməkdaşlıq ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən bugün də uğurla davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1. Dünyanın bütün dövlətlərinə, hökumətlərinə və beynəlxalq təşkilatlarına müraciət - 4 oktyabr 1994-cü il // https://lib.aliyevheritage.org/az/3446466.html.
2. Heydər Əliyev irsini araşdırma mərkəzi. Bakı-Brüssel (Azərbaycan-Avropa ittifaqı münasibətləri). Bakı: CBC Polygraphic Production, 2011, 413 s.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On ikinci kitab: avqust, 1997 – oktyabr, 1997 / buraxılışa məsul R. Mehdiyev. Bakı: Azərnəşr, 2004, 432 s.
4. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" çərçivə sənədinin imzalanma mərasimində bəyanatı. Brüssel, NATO-nun iqamətgahı, 4 may 1994-cü il // https://lib.aliyevheritage.org/az/ 3307901. html.
5. GUÖAM Təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı - Yalta, 7 iyun 2001-ci il // https://lib.aliyevheritage.org/az/2685026.html

# AZƏRBAYCAN: İSTİQLALDAN MÜSTƏQİLLİYƏ

**İbrahim Zeynalov**
*Bakı Dövlət Universiteti, tarix elmləri doktoru, professor*
*zeynalov_ibrahim@hotmail.com*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, ictimai-siyasi inkişaf, sosial-iqtisadi inkişaf

**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, социально-политическое развитие, социально-экономическое развитие

**Keywords:** Heydar Aliyev, Azerbaijan, socio-political development, socio-economic development

Azərbaycan tarixinin mühüm mərhələlərdən biri XX əsrin 70-ci illəri və 80-ci illərin əvvəlləri dövrüdür. Bu dövr Azərbaycanın inkişafında özünəməxsus və spesifik xüsusiyyətləri ilə səciyyəvidir. Eyni dövrdə Sovetlər ölkəsində durğunluq halları gücləndiyi halda, Azərbaycanda yüksəliş olmuşdur. Həmin dövrdə baş verən prosesləri arxiv materialları əsasında təhlil etmək mümkündür.

1969-cu ilin 14 iyulunda Heydər Əliyev Azərbaycanda rəhbərliyə gəldi. Həmin il avqustun 5-də Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK-nın plenumu keçirildi, Pleniumda o respublikanın mövcud vəziyyəti barədə geniş çıxış etdi, Azərbaycanın sosial-iqtisadi böhran vəziyyətinin, uzun müddətli geriliyinin təhlilini verdi, səbəblərini açıqladı və çıxış yollarını müəyyənləşdirdi. Həmin vaxtdan da - 1969-cu ilin ortalarından Azərbaycanda tənəzzüldən tərəqqiyə dönüş başladı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dirçəliş, inkişaf, cəmiyyətin keyfiyyətcə irəliyə, milli özünüdərkə, milli özünəqayıdışa və sosial-iqtisadi inkişafa doğru dönüş mərhələsinin başlanğıcı qoyuldu və sonrakı illərdə (1969-1982-ci illər) davamlı inkişafa çevrildi. Beləliklə, XX əsrin 70-80-ci illəri Azərbaycanın ictimai-siyasi, o cümlədən sosial-iqtisadi həyatında intibah dövrü kimi tarixə çevrildi [2].

XX əsrin 70-80-ci illəri respublikanın digər sahələri kimi, iqtisadiyyatının da dirçəlişi, ölkənin təbii ehtiyatlarından, iqtisadi, təhsil, elm və digər potensialından xalqın maddi rifah halının yüksəldilməsi üçün şəraitin yaradılması ilə xarakterizə olunur.

Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə respublikanın sosial-iqtisadi inkişaf konsepsiyası hazırlanmış, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında ixtisaslaşma, maddi-texniki və müasir istehsal sahələrinin yaradılması ilə bağlı kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir.

Heydər Əliyevin gördüyü işlər arxiv sənədlərində öz əksini tapmışdır. Bütün bu fəaliyyət arxiv sənədlərində əks olunmuş, qorunmuşdur və bu gün

tədqiqatçılar üçün həmin tarixi araşdırmağa geniş imkanlar yaradır. Belə ki, XX əsrin 70-80-ci illərdə keçirilən XXVIII, XXIX və XXX qurultayların, 55 plenum, 447 Büro və 101 Katiblik iclasının protokol materialları və stenoqrammaları, eləcə də çoxsaylı zona müşavirələrinin, fəallar yığıncaqlarının, müxtəlif görüş və tədbirlərin sənədləri arxivin 1 saylı fondunda toplanmışdır.

1970-1982-ci illərdə Heydər Əliyevin fədakar əməyi, xüsusilə müdrik rəhbərliyi, xüsusi təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş ittifaq respublikalarından xeyli yüksək olmuşdur. Bu illərdə Azərbaycan sosial-iqtisadi inkişaf səviyyəsinə görə ittifaq respublikaları arasında öndə gedərək, daima plan və tapşırıqları vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirmişdir.

Heydər Əliyevin çox ciddi, prinsipal iş təcrübəsi nəticəsində bu qərarların yerinə yetirilməsi ilə respublika iqtisadiyyatında mövcud olan uzunmüddətli geriliyə son qoyuldu, həmçinin nöqsanların aradan qaldırılmasında 1970-1982-ci illərdə respublika iqtisadiyyatının intensiv, dinamik inkişafı da başlıca rol oynadı. Bu illərdə Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında bu dövrdə respublikada 250-dən çox zavod, fabrik, istehsal sexləri, obyektləri istifadəyə verilmiş, 630 min nəfərlik yeni iş yerləri yaradılmışdı [1, v.11-13].

1969-1982-ci illərdə neft hasilatının, neft emalı və qazçıxarma sahələrinin inkişafında yeni mərhələ başlamışdı, yeni neft yataqları aşkarlanmış, neft və qaz mədənlərinin 80 faizi avtomatlaşdırılmışdı. Arxiv sənədlərindən məlum olur ki, göstərilən dövr neft və neftayırma, qaz sənayesinin əsaslı şəkildə yenidən qurulması ilə səciyyələnmişdir [2, v.21-22].

Qeyd edilən dövrdə kimya sənayesi məhsulları istehsalında, xüsusilə kükürd, plastik kütlə, sintetik kauçuk və digər kimyəvi vasitələr istehsalında böyük nailiyyətlər əldə edilmişdi. Bu illərdə respublika sənayesinin təzə sahələri olan elektrotexnika, cihazqayırma, elektron, dəzgahqayırma, avtomatlaşdırma kimi yeni istehsal sahələrinin yaradılmasına başlanılmışdır [15, v.14; 16, v.12-14]. Belə müəssisələrdən biri Bakı məişət kondisionerləri zavodu idi. Azərbaycan KP MK Büro iclasının 1972-ci il 13 oktyabr tarixli qərarı ilə tikilməsinə başlanılan zavod qısa müddətdə yüksək səviyyədə qurulmuş, tikintisi 1975-ci ildə başa çatmışdır (Az.KP MK Büro iclasının 13 oktyabr 1972-ci il qərarı, protokol №51, 2-ci bənd). Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan keçmiş Sovetlər Birliyində elektrotexnika sənayesinin ən böyük və əhəmiyyətli mərkəzlərindən birinə çevrilmişdir [2, v.27].

1981-1982-ci illərdə Dərin Dəniz Özülləri zavodunun, Primorsk qəsəbəsində mənzil və ictimai obyektlərin, ATS-in tikintisinə başlanmışdı. Qaradağ dəmiryol stansiyasının yenidən qurulması və başqa bu kimi qərarlar qəbul olunmuşdu [14, f.1, siy.70, iş 22]. Pirsaatda nüvə yanacağından istilik elektrostansiyasının tikintisi planlaşdırılmışdır (Azərbaycan KP MK Bürosunun 6 may 1977-ci il qərarı, protokol №36, 11-ci bənd; 9).

Həmçinin, şəhər nəqliyyatında mühüm olan metronun yeni stansiyaları tikilmişdir. 1978-ci ildə “Nizami” stansiyası, 1980-ci il illərin əvvəllərində isə “Elmlər Akademiyası”, “İnşaatçılar”, “11-ci Qızıl Ordu” (indiki “20 yanvar”) və “Memar Əcəmi” stansiyaları istifadəyə verilmişdi [5; 10].

Azərbaycanın paytaxt əhalisinin su ilə təchizatındakı problemləri həll etmək üçün Azərbaycan KP MK-nın 1971-ci il 2 fevral tarixli Büro iclasında qərar qəbul olunmuşdu (3, protokol №59, 5-ci bənd). Qısa müddətdə qərar tam icra edilmiş, avqust ayında tikinti tamamlanmışdır.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə kənd təsərrüfatının dinamik inkişafı, respublikanın iqtisadiyyatında bu sahənin üstün inkişafı ən mühüm iqtisadi nəticələrdən biridir. Arxiv materialları təsdiq edir ki, tədqiq edilən dövrdə kənd təsərrüfatının ümumi məhsulunun həcmi 2,6 dəfə, sənaye istehsalının həcmi isə 2,2 dəfə çoxalmışdı. Milli gəlirin 1985-ci ildə 11,4 milyard manata çatdığı məlum olur. Böyük meliorasiya proqramı həyata keçirilmişdi. Üzümçülük kənd təsərrüfatının ən gəlirli sahəsinə çevrilmiş, Üzüm plantasiyaları 1970-ci ildəkindən 1985-ci ilə 2 dəfə artaraq 268 min hektara çatmışdır.

Respublikada geniş sosial-mədəni quruculuq proqramı həyata keçirilmişdi. Azərbaycan şəhərləri böyümüş, yeni yaşayış massivləri salınmışdı. 1972-ci ildə Şıxovda Xalqlar Dostluğu parkının bünövrəsi qoyulmuş və Bakıda böyük kinokonsert mərkəzi tikilmişdir [6].

Həmçinin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə indi onun adını daşıyan Respublika sarayı, 1974-cü ilin 6 avqust tarixli Azərbaycan KP MK-nın iclasında (protokol №100, 13-cü bənd) yeni müasir avadanlıqlarla təchiz olunmuş “Kommunist” nəşriyyatının qəzet kompleksinin tikintisi haqqında qərar qəbul olunmuşdu [7]. 1976-1987-ci illərdə Azərbaycanda ilk dəfə böyük informasiya tutumlu 10 cildlik “Azərbaycan Sovet Ensiklopediyası” nəşr olunmuşdu.

Heydər Əliyev respublikada elmin və təhsilin inkişafına da böyük diqqət yetirilmişdi. 1975-ci ildə Elmlər Akademiyası nəzdində “Xəzər” Elmi Mərkəzi fəaliyyətə başlamışdı. 1978-ci ildə mərkəzin əsasında Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutu təşkil olunmuşdu. Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 25 mart 1978-ci il tarixli birinci eksperimental kosmik sistemli araşdırmalar sahəsində təbii mənbələrin, kosmik və radiofizika cihazqayırmanın mikro və radioelektrotexnikada texnikanın nailiyyətlərinin tətbiqi haqqında qərar qəbul olunmuşdu [11].

Həmçinin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci il 18 iyun Azərbaycan KP MK-nın Büro iclasında Bakıda inşaat-mühəndislər institunun, 1979-cu ildə Azərbaycan Kardiologiya elmi-tədqiqat institutunun yaradılması haqqında qərar qəbul olunmuşdu [8]. 1979-cu il 25 sentyabr Büro iclasında 5 №li şəhər kliniki xəstəxanasının kardioloji korpusunda elmi-tədqiqat institunun

yerləşdirilməsi qərara alınmışdı. Həmçinin 1974-cü ildə Azərbaycan KP MK-nın qərarı ilə Bakı şəhərində Zaqafqaziya respublikaları üçün neyrocərrahiyə mərkəzinin təşkil olunması haqqında qərar qəbul olunmuşdu [13].

Heydər Əliyev milli hərbi kadr yetişdirilməsi sahəsində də böyük işlər görmüşdür. 1971-ci ildə onun təşəbbüsü ilə C.Naxçıvanski adına respublika orta ixtisaslaşdırılmış hərbi təmayüllü internat məktəbi təşkil olundu. 1976-cı ildə hərbi məktəbin fəaliyyətini yaxşılaşdırmaq məqsədi ilə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin qərarı ilə tədbirlər görülmüşdü (1976-cı il 26 aprel, protokol №5, 10-cu bənd).

Həmçinin, 1969-cu ildə Heydər Əliyevin rəhbərliyi və təşəbbüsü ilə regionlarda da sosial-iqtisadi və mədəniyyət sahələrinin inkişafına da paralel olaraq böyük diqqət yetirilmişdir. Mədəni quruculuq sahəsində: elmin, təhsilin, səhiyyənin, incəsənətin və digər sahələrin inkişafına önəm verilmişdir.

Yekun olaraq qeyd edə bilərik ki, indiki müstəqilliyimizin, sosial-iqtisadi, hərbi, mədəni əsasları məhz 1969-1982-ci illərdə qoyulmuşdur ki, məhz həmin əsaslar üzərində Azərbaycan Respublikasında dövlət quruculuğu 1993-cü ildən başlayaraq uğurla davam etdirilir.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsi Yanında Siyasi Sənədlər Arxivi (ARPİİYSSA), fond 1, siyahı 16, iş 83
2. ARPİİYSSA, fond 1, siyahı 56, iş 9
3. ARPİİYSSA, fond 1, siyahı 58, iş 57
4. ARPİİYSSA, fond 1, siyahı 59, iş 9
5. ARPİİYSSA, fond 1, siyahı 59, iş 36
6. ARPİİYSSA, fond 1, siyahı 59, iş 94
7. ARPİİYSSA, fond 1, siyahı 61, iş 62
8. ARPİİYSSA, fond 1, siyahı 62, iş 65
9. ARPİİYSSA, fond 1, siyahı 64, iş 37
10. ARPİİYSSA, fond 1, siyahı 65, iş 30
11. ARPİİYSSA, fond 1, siyahı 65, iş 45
12. ARPİİYSSA, fond 1, siyahı 66, iş 40
13. ARPİİYSSA, fond 1, siyahı 66, iş 90
14. ARPİİYSSA, fond 1, siyahı 70, iş 22
15. ARPİİYSSA ,fond 1, siyahı 406, iş 106
16. ARPİİYSSA, fond 1, siyahı 412, iş 29

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında*
***Heydər Əliyevin rolu”.***
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK SİSTEMİNDƏ İŞTİRAKI

**İlahə Bağırova**
*Bakı Dövlət Universiteti, magistrant*
*ilahe.bagirova@mail.ru*

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, təhlükəsizlik, xarici siyasət, milli maraqlar
**Keywords:** Azerbaijan, Heydar Aliyev, independence, security, foreign policy, national interest
**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, безопасность, внешняя политика, национальные интересы

Çox çətin, mürəkkəb bir zamanda və mühitdə olan Azərbaycan dövlətinin xarici siyasətini və beynəlxalq təhlükəsizlik sistemində yerini böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və prosesləri izləyən Heydər Əliyev işləyib hazırlaya bilərdi. Heydər Əliyevin zəkası sayəsində ölkə daxilində baş verən vətəndaş müharibəsi, həmçinin hakimiyyət çevrilişləri cəhdlərinin qarşısı qətiyyətlə alındı. Ölkənin daxilində davamlı olaraq sabitliyin və vətəndaş birliyinin əldə olunması kimi mürəkkəb vəzifələr də öz həllini tapdı [4].

Dünyada və regionda baş verən beynəlxalq və regional siyasi hadisə və prosesləri dərindən, hərtərəfli təhlil edən siyasi xadim Heydər Əliyev ilk öncə Azərbaycanın beynəlxalq və regional təşkilatlarda üzv və təmsil olunmasına nail olmuşdu. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından çox bacarıqlı çıxışlar edərək Ermənistanın Azərbaycana təcavüzünü və onun acınacaqlı nəticələri və ölkəmiz haqqında düzgün, obyektiv məlumatları bütün dünyaya çatdırmağa çalışırdı. Heydər Əliyev bütün xaricə olan səfərlərində siyasi görüşlərdə ölkəmizi tanıtmaq üçün ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verirdi. Həmçinin əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə həll edilməsi məsələlərinə də yönəldirdi.

Dünyanın ən nüfuzlu və universal təşkilatı kimi BMT-ni görən Heydər Əliyev BMT-Azərbaycan əlaqələrinə və onun güclənməsinə xüsusi önəm verirdi. Elə bu uzaqgörən siyasət nəticəsində BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə əlaqədar dörd qətnaməsi qəbul olunmuşdur. Bundan sonra isə həmin siyasətin nəticəsi kimi BMT Baş Assambleyasının 65-ci sessiyasında “İşğal olunmuş ərazilərdə vəziyyətə dair” məsələ müzakirə olunmuş və müvafiq olaraq qətnamə qəbul edilmişdir.

Azərbaycanın müstəqilliyinin ilk illərində Heydər Əliyev ölkənin milli maraqlarını və təhlükəsizliyini nəzərə alaraq dünyanın böyük güc mərkəzləri ilə balanslaşdırılmış siyasətə keçid etdi. Belə güc mərkəzlər həmin dövrdə ABŞ, Avropa İttifaqı, Rusiya Federasiyası və Çin kimi dövlətlər və təşkilatlar idi. Bu ölkələrin bəzilərinin BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması məsələsini nəzərə alaraq, Heydər Əliyev həmin dövlətlərlə daha yaxşı əlaqə və əməkdaşlığın qurulmasına çalışırdı. Ulu Öndər eyni zamanda müstəqilliyin ilk illərində bəzi yaxın və uzaq ölkələrlə pozulmuş münasibətlərin yenidən bərpa edilməsinə böyük önəm verirdi.

Azərbaycan Respublikasının siyasi və hərbi təhlükəsizliyini təmin etmək məqsədilə Heydər Əliyev müasir dünyada ən güclü və nüfuzlu hərbi-siyasi təşkilat olan NATO ilə əməkdaşlığa da çox böyük üstünlük verirmişdir. Buna görə də 1994-cü ilin may ayının 4-də NATO-nun mənzil-qərargahı olan Brüssel şəhərinə səfər edərək orada “Sülh Naminə Tərəfdaşlıq Proqramının” çərçivə sənədinə imza çəkmişdir. Sənədin imzalanmasından sonra Azərbaycan-NATO əlaqələrinin dinamik inkişaf başladı [1, s.422]. Ölkəmizin təhlükəsizliyi ilə bağlı Alyansla daimi məsləhətləşmələr və müzakirələr aparıldı. Hal-hazırda da NATO-Azərbaycan əlaqələri yüksək sürət ilə inkişaf edir. “Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Proqramı” çərçivəsində Alyansla Azərbaycan arasında bir çox sahələrdə əməkdaşlıqlar uğurlu formada davam etdirilir. 2010-cu ilin sonlarında baş tutan NATO-nun Lissabon sammitində qəbul olunmuş Alyansın “Yeni strateji konsepsiyasında” Azərbaycan Respublikasının ərazi bütövlüyü dəstəklənmişdir. Həmçinin NATO-nun bundan əvvəl baş tutan Riqa və Buxarest sammitlərində də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir.

Özünün xarici siyasət kursunda Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində rolunu gücləndirmək üçün Ümummilli Lider Heydər Əliyev Avropa İttifaqı ilə əlaqələrə xüsusi əhəmiyyət verirdi. Çünki Avropa İttifaqı dünyada baş verən bütün siyasi proseslərə təsir etmək imkanları olan bir təşkilat kimi çıxış edir. 1996-cı ildə Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında Lüksemburqda “Bir tərəfdən Avropa Birliyi və onun üzvü olan dövlətlər, digər tərəfdən Azərbaycan Respublikası arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi” imzalanmışdır. Sənəddə Azərbaycanla Avropa İttifaqı arasında siyasi və ticarət sahəsində əməkdaşlıq, Azərbaycanın qanunvericiliyinin Avropanın hüquq sisteminə uyğunlaşdırılması prosesləri öz əks etdirmişdir. Hazırda Azərbaycan Avropa İttifaqı ilə birlikdə “Şərq tərəfdaşlığı” proqramı çərçivəsində əməkdaşlıq edir [6].

Heydər Əliyev Avropa Şurası kimi mühüm əhəmiyyət kəsb edən bir təşkilata da çox böyük üstünlük vermişdir. Buna görə də 2001-ci il yanvarın 25-də Azərbaycan AŞ-nın tam hüquqlu üzvü seçilmişdir. Ötən bu illər ərzində Azərbaycanla AŞ arasında əlaqələr dinamik olaraq yüksələn xəttlə inkişaf etmişdir. Azərbaycan Respublikası Milli Məclisinin AŞ Parlament Assamble-

yasındakı nümayəndə heyəti sessiya və iclaslarda fəal iştirak edib Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması prosesində çox böyük işlər görmüşlər. 2011-ci ilin yanvar ayında AŞ-nın Dağlıq Qarabağa dair Alt Komitəsinin işinin yenidən bərpa olunması haqda qərar qəbul olunmuşdur.

Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemində iştirakı üçün ulu öndər Heydər Əliyev, eyni zamanda, MDB, GUAM, Qara dəniz İqtisadi Əməkdaşlıq Komitəsi, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlarla əməkdaşlıq və münasibətlərin qurulmasına böyük əhəmiyyət vermişdir [5]. Həmin siyasətin məntiqi nəticəsi kimi yuxarıda qeyd etdiyimiz təşkilatların böyük bir hissəsi beynəlxalq sistem və qurumlarda Azərbaycanın haqlı mövqeyi tərəfindən çıxış edirlər.

Azərbaycan əlverişli geosiyasi və coğrafi məkanda yerləşir. Şərqlə Qərb, şimalla cənub arasında təbii körpü rolunu oynayır və eyni zamanda zəngin təbii sərvətlərə, karbohidrogen ehtiyatlarına malikdir. Bütün bunları nəzərə alan Heydər Əliyev neft-qaz və nəqliyyat kommunikasiya layihələrinin işlənib hazırlanması və praktik olaraq həyata keçirilməsi üçün fəaliyyətə başlanmasına göstəriş verdi. Azərbaycanın o zamankı iqtisadi vəziyyətini nəzərə alaraq Heydər Əliyev ilk öncə ölkəyə xarici investisiyaların cəlb olunması istiqamətində əsas işlərin görülməsini təmin etdi. Belə tədbirlərdən biri kimi xarici investorların investisiyalarının qorunması və onlar üçün əlverişli şəraitin yaradılmasını göstərmək olar. Ölkəyə xarici investisiyaların cəlb etmək üçün ilk tədbir kimi neft və qaz layihələrinin reallaşdırılmasını və dünya bazarlarına çıxarılmasını təmin etmək lazım idi [3, s.382]. 1994-cü ildə çox böyük maneə və çətinliklər olsa da “Əsrin müqaviləsi” adlanan böyük neft müqaviləsi bağlanaraq bu istiqamətdə ilk addım atıldı.

Beynəlxalq təhlükəsizlik sisteminə əsaslı təsir göstərən 2001-ci ilin 11 sentyabr terror hadisələrindən dərhal sonra Heydər Əliyevin bütün dünya üçün təhlükə olan beynəlxalq terrorizmi pisləyən bəyanatla çıxış etdi. Onun Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirməsi ABŞ-ın ölkəmizə olan etimadını daha da gücləndirdi. Bu hadisə iki ölkənin münasibət və əlaqələrində vacib keyfiyyət dəyişikliyinə səbəb oldu. Heydər Əliyevin antiterror koalisiyasına göstərdiyi dəstək, həmçinin Bakı-Tbilisi-Ceyhan neft kəməri layihəsinin reallaşdırılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının Azərbaycan üzərindən Qərbə daşınması istiqamətində dövlət başçısının sərgilədiyi ardıcıl səylər nəticədə illər ərzində xalqımızın haqlı narazılığına səbəb olan “Azadlığı dəstək aktı”na ədalətsiz 907-ci düzəlişin qüvvəsinin dayandırılmasına gətirib çıxardı.[2] 2001-ci ilin oktyabrında ABŞ Prezidenti C.Buş və Dövlət katibi K.Pauell Konqresə müraciət edərək 907-ci düzəlişin aradan qaldırılmasının ABŞ-ın milli maraqlarına xidmət etdiyini bildirdilər. Erməni lobbisinin ABŞ Konqresinə təsirinin miqyasını nəzərə alsaq, 907-ci düzəlişin qüvvəsinin dayandırılması, şübhəsiz, Heydər Əliyevin xarici siyasətinin böyük uğuru idi.

Nəticədə Heydər Əliyevin realist və rasional olan xarici siyasəti ilə Azərbaycanın Beynəlxalq təhlükəsizlik sistemində iştirakı layiqincə yerinə yetirildi və onun siyasi davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də onun bu uğurlu xarici siyasət kursunu beynəlxalq təhlükəsizlik sistemində davam etdirir.

**Ədəbiyyat siyahısı:**

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan, 2005.
2. Heydər Əliyev siyasi kursu: sabitlik, güclü iqtisadiyyat və uğurlu xarici siyasətin mükəmməl vəhdəti https://sesqazeti.az/news/analytics/715148.html 11.12.2018.
3. Babaoğlu H. Heydər əliyev siyasi irsinin politoloji aspektləri. Bakı: MSA, 2013.
4. İradə Hüseynova. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004.
5. Məmmədov N. Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli // Azərbaycan. 2010. 16 aprel. N 80, s.5.
6. Ulu öndər Heydər Əliyevin xarıci siyasət kursu və Azərbaycanın diplomatik uğurları // https://azertag.az/xeber/Ulu_onder_Heyder__Aliyevin_xarici_siyaset_kursu_ve_Azerbaycanin_diplomatik_ugurlari-1223469 12.12.2018.
7. Əsgərov Z. Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi // Azərbaycan, 2011. 7 may, s.7.

# HAYDAR ALİYEV VE POLİTİKALARINA DAİR BAZI DÜŞÜNCELER

**Kemal Çiçek**
*Yeni Türkiye Stratejik Araşdırma Merkezinin başkanı, professor*
*kcicek35@gmail.com*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, xarici siyasət, balanslaşdırılmış siyasət
**Keywords**: Azerbaijan, Haydar Aliyev, foreign policy, balanced policy
**Anahtar kelimeler:** Haydar Aliyev, Azerbaycan, dış ilişkiler, denge politikası

Bilindiği gibi Haydar Aliyev, 3 Ekim 1993'te yapılan seçimleri kazanarak Azerbaycan cumhurbaşkanı oldu. Bu tebliğimde onun ülkesinin sorunlarını çözmek için neler yaptığını, Azerbaycan’ı ekonomik ve siyasi bağımsızlığına kavuşturmak için nasıl bir dış politika izlediğini kısaca anlatmaya çalışacağık. Ancak bundan önce Azerbaycan dış politikasındaki aktörleri ve izledikleri dış politikaya kısaca değinmek istiyoruk ki Aliyev’in yaptıkları daha net görülsün.

1989 yılında Soğuk Savaş’ın sona ermesi ve bu süreç sonunda SSCB’nin Aralık 1991’de kendini feshetmesi, dünya siyasi tarihinde çok önemli bir Azerbaycan’ın da aralarında bulunduğu 15 yeni devletin sosyalist devlet yapısını terk ederek bağımsızlığını kazanması da Türkiye açısından ayrıca mühimdir. Böylece yıllardır özlemini duyduğumuz tam bağımsız Türk devletleri bir bir ortaya çıktı.

Bununla birlikte SSCB’nin dağılması bölgede istikrarsız bir dönemin de başlangıcı oldu. Soğuk savaş öncesi dönemlerden itibaren aralarında anlaşmazlık ve hatta toprak talebi olan Kafkasya’nın üç yeni devleti, Azerbaycan, Ermenistan ve Gürcistan bağımsızlıklar sonrasında zor bir döneme girdiler. Özellikle Ermenistan ile Azerbaycan arasında başta Karabağ’ın statüsü üzerindeki tartışmalar bütün dünyanın ilgisini çekti çünkü her an bir çatışma bekleniyordu. İşin ilginç tarafı diğer SSCB bağımsız devletlerinden farklı olarak sözünü ettiğimiz bu üç devlet Batı Avrupa’ya yönelik bir dış politika izleme düşüncesindeydi ve olabildiğince Rusya’nın kontrolü dışında kalmayı ve Batı ile entegrasyonu arzuluyordu. Bu bakış, istikrasızlık adına ayrı bir mesele idi. Fikir bu olmakla birlikte bu politikasını hayata geçirebilecek yegane devlet yer altı ve yerüstü kaynakları sayesinde Azerbaycan idi. Bu bağlamda, Azerbaycan için bağımsızlığını sürdürmek ve eski sosyalist düzenden uzaklaşarak Batı’ya entegrasyonu gerçekleştirebilmek için en başta yapılması gerekenler Azerbaycan’ın serbest piyasa ekonomisine

geçmesi ve Batı’nın gelişmiş devletlerinin desteği ile ürünlerini dünya piyasalarına ulaştırması gerekiyordu.

Halbuki bağımsızlık sonrası Azerbaycan’ı yöneten gerek Elçibey gerekse Müttalibov öncelliği anlaşmazlıkların çözümüne verdi. Özellikle Elçibey olabildiğince hızlı Rusya’dan ve hatta İran’dan uzaklaşmaya çalıştı. Türkiye ile yaklaştı. Bu durum Rusya’nın milli çıkarlarına aykırı olduğu için Rusya Ermenistan tarafına geçti. İran’da Azerbaycan ile ilişki profilini küçülttü ve Ermenistan’a yaklaştı. Bu politikadan cesaret alan Ermenistan Kelbecer’i işgal etti. Elbette Rusya ile aykırı düşmemeye gayret gösterdi ama başaramadı. Bu hata yüzünden dış politikası marjinalleşti, ülke Rusya ve İran’la ilişkilerinde sorunlar yaşadı. Hatta Elçibey bu tek yönlü dış politikası yüzünden Rusya’nın desteği ile kendisine karşı darbe yapılmasına sebep oldu.

Batılı ülkelerle yürütülen ilişkilerde de yeterli sinerji oluşturulamadı ve strateji oluşturulamadı. Bu yüzden Karabağ’da Azerbaycan Ermenistan’a karşı başarısız oldu. Topraklarının yüzde %20’sinin işgal edilmesiyle sonuçlanacak sürece girildi. Rusya açıkça Ermenistan’ı destekledi ve işgal edilen topraklara yerleşmesini sağladı.

Kısaca bağımsızlığını kazandıktan sonra iktidara gelen “geniş yelpazeli” Azerbaycan Halk Cephesinin (AHC) kitlelerin desteği ile Azerbaycan dış politikasını Rusya’yı kenara iterek Türkiye öncülüğünde Batı ile entegrasyon üzerine kurması doğru idi ama başarılı olması zordu. Ayrıca kanaatimce iktisadi kalkınmasını tamamlamadan Elçibey’in iç ve dış politikasında “Bütün Azerbaycan” yani Kuzey ve İran’ın kontrolündeki Güney Azerbaycan’ı birleştirme ideolojisini ortaya atması yanlıştı. Nitekim topraklar kaybedildi ve Elçibey bertaraf oldu. Çok güvendiği Türkiye kendisini Karabağ savaşında desteklememişti. Kısacası Muttalibov ve Elçibey dönemlerin tek kutuplu politikaların izlenmesi sonucu ülkeyi dağılma noktasına getirdi ve sonuçta ne Muttalibov’un tamamen Rusya’ya ne de Elçibey’in Türkiye’ye ve Batıya yönelerek ülkenin bağımsızlığını sürdürme hedefi başarısızlığa mahkumdu.

Haydar Aliyev bu anlamda zor bir dönemde iktidara geldi. 1991 yılında Dağlık Karabağ'da, başlayan savaş devam ediyor ve Azerbaycan şehirleri ardı ardına işgal ediliyordu. Durum çok kritikti. Haydar Aliyev iktidara geldikten sonra Azerbaycan dış politikasını yeniden yapılandırdı. Uluslararası politikada etkin bir devlete dönüşmek için denge siyaseti izledi. Rusya’yı yanına almaya çalıştı. Ayrıca bölgenin diğer devletleriyle uzlaşmaya çalışarak tam bir denge siyaseti gütmeye başladı. Bu politikanın nihai hedefi Azerbaycan’ın toprak bütünlüğü probleminin çözülmesi ve diğer ülkelerle politik, ekonomik ve askeri işbirliği için uygun şartların oluşturulması idi. Haydar Aliyev bu amaçla bölgesel ve uluslararası kurumlarla işbirliğini artırdı.

Haydar Aliyev’in denge politikasını sağlam temelllere oturmak için öncelikle Azerbaycan’ın petrol ve doğalgazının dünya pazarlarına ulaştırılması

gerekiyordu. Bu politika kapsamında Batılı şirketlere enerji kaynaklarının işletilme imtiyazları verildi. Ama aynı zamanda Aliyev BDT üyesi olduğunu unutmadı ve ikili askeri anlaşmalarla bağlı olduğu Rusya’yı gücendirmemeye gayret etti. Fakat Rusya ile olan ilişkilerde belirli bir mesafeyi hep korudu. Hedefinin Batı ile entegrasyon olduğunu belli etti. Azerbaycan’ın sorunlarını çözebilmek için yürüttüğü dış politika, hükümetlerin siyasi görüşleri ve ülkenin içinde bulunduğu şartlara göre değişti.

Aliyev’in denge siyaseti sadece iki blok arasında dengeye dayanmadı. Aynı zamanda iş ilişkilerinde de Aliyev denge gözetti. Azerbaycan'ın en büyük petrol yatağı Azeri-Çırak-Güneşli (AÇG) havzasının işletilmesini ve petrolün dünya pazarlarına çıkartılmasını öngören "Asrın Anlaşması"nı 7 farklı ülkeden 11 şirketle imzaladı.

Uluslararası piyasalara güven vermek için hukuk devletini de güçlendirdi. Aliyev Cumhurbaşkanlığı döneminde referandumla evrensel demokratik değerleri yansıtan anayasayı halkın oyuna sundu ve kabul edildi. İdam cezasını kaldırdı. Nitekim 1995’te Anayasa’nın kabulünden sonra başka siyasi partiler kuruldu ve ülkede çok partili yaşam hüküm sürmeye devam etti.

Haydar Aliyev’in Yeni Azerbaycan Partisi dış politikada denge siyasetinin gereği bütün ülkelerle barış içinde yaşama ve sorunlarını güç kullanmadan çözme, içişlerine karışmama ilkesini benimsedi. Bu sayede Aliyev bağımsızlığın ilk yıllarında Ermenistan ile yaşanan savaş, Karabağ ve etrafındaki şehirlerin işgali ve iç karışıklıkların ekonomiye olan olumsuz yansımalarını azalttı.

Diğer taraftan Haydar Aliyev, IMF ve Dünya Bankası’yla işbirliği çerçevesinde yeniden yapılanma ve özelleştirmeleri devreye soktu. Ülkede birçok orta ve uzun vadeli devlet programı uygulamaya konuldu. Kısaca siyasi istikrardan sonra ekonomik istikrar da sağlandı. Bununla birlikte, Haydar Aliyev enerji sektörünün tek başına ülke ekonomisini kontrol edemeyeceğini biliyordu. Bu yüzden madencilik başka diğer alanlara da yatırım yaptı. Yabancı sermaye sahiplerine güvenceler vererek dışardan para girişini düzenledi. Öte yandan yurtdışına yatırım yapacak Azerbaycan işadamlarına da devlet koruması sağladı.

Aliyev zamanında, Azerbaycan dünyanın birçok ülkesi ile ikili ilişkiler kurdu ve Avrupa Konseyi’ne üye oldu. Böylece Elçibey’in de hayali olan Türkiye ve Batı ile entegrasyonda hızlı yol aldı. Bunu yaparken Rusya ile ilişkileri bozmamaya çalıştı ve başarılı da oldu. Türkiye ile Rusya arasında izlediği denge politikası hem Türkiye hem de Azerbaycan’da şiddetle eleştirildi ama Aliyev’ın halis niyeti daima Türiye ile ilişkileri en üst düzeye çıkartmaktı. Nitekim sonraki dönemlerde, Azerbaycan’da petrol ihalelerinde Türkiye’ye verilen pay artırıldı, Bakü’nün elektrik dağıtım ihalesi dâhil, çok sayıda önemli ihale Türk firmalarına verildi. Yine Aliyev, ABD’nin ülkesine olan ilgisinin artmasını sağlayarak, ikili

ilişkileri geliştirmiştir. Haydar Aliyev döneminde, İran'la yoğun olmayan, ancak mevcut statükoyu da bozmayacak ilişkiler yürütüldü.

Haydar Aliyev'ın denge politikası oğlu İlham Aliyev tarafından da başarıyla uygulanmaktadır. 23 Mayıs 2007 tarihli ilk Milli Güvenlik Belgesi'nde, Azerbaycan: "Batı ve Doğu"nun kavuştuğu coğrafyada bulunan, Avrupa'nın temel değerlerini paylaşan ve Avro-Atlantik güvenlik yapılanmasının ayrılmaz bir halkası olan ve aynı zamanda, İslam dünyasının bir parçası olarak" nitelendirilmiştir. Bu çerçevede Rusya, İran, ABD, AB ve Türkiye arasında bir denge sağlanarak, bölgede politika üreten ve kısmi ya da külli menfaatler bekleyen güçler arasında göreceli bir birliktelik de sağlayabilmiştir. Ülke milli çıkarlarını tehdit eden önemli sorunlarını bu birliktelik, eşgüdüm ve dengeleri gözeten politikalarla aşmaya çalışmıştır.

Bugün Azerbaycan gerek BTC gerek Kars-Tiflis-Bakü demiryolu projesi ile her bakımdan Türkiye ve Batı ile etegre hareket etmektedir. Son sene bunun meyvelerini Karabağ ve işgal altındaki Azerbaycan topraklarını kurtararak aldı.

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİNİN STRATEJİ İNKİŞAF XƏTTİ

**Kəmalə Qurbanova**
*Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru*
qurbanovakamala@bsu.edu.az

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, Türkiyə, neft, strateji, təhlükəsizlik, müqavilə, iqtisadiyyat
**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, Турция, нефть, стратегическое, безопасность, контракт, экономика
**Keywords:** Heydar Aliyev, Azerbaijan, Turkey, oil, strategic, security, contract, economy

Türk milləti XX əsrdə dünyaya iki böyük öndər bəxş etmişdir: Atatürk və Heydər Əliyev. Biri Osmanlı imperiyasının süqutu ərəfəsində yaranan ağır vəziyyətdə, Anadoluda türk varlığının işğalçı qüvvələr tərəfindən məhv edilmək istənildiyi bir məqamda milli mübarizənin ön sıralarına çıxaraq türk millətini və dövlətçiliyini qurtarmışdır. Digəri isə Sovet İmperiyasının süqutu ərəfəsində Azərbaycanın müstəqillik əldə etməsindən sonra yaranmış ağır vəziyyətdə milli mübarizənin əsl liderinə çevrilərək Qafqazda həqiqi müstəqil Azərbaycan dövlətini qurmuşdur. Bu mənada hər iki lider gerçəkləşdirikləri missiyalarla tək öz xalqları üçün deyil, ümumilikdə bütün Türk dünyası üçün vacib addımlar atmışlar. Türkiyənin (daha əvvəlki dövrdə Osmanlı dövlətinin) və xüsusilə Atatürkün Azərbaycanın taleyində imzası olduğu kimi, Ulu Öndər Heydər Əliyevin də Azərbaycanla yanaşı Türkiyənin və ümumilikdə bütün Türk dünyasının tarixi taleyində imzası vardır.

Azərbaycanı və Türkiyəni bir millətin iki dövləti olaraq xarakterizə edən Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin təməlini qoyarkən ilk növbədə Türkiyə Cümhuriyyətinin dəstəyinə arxalandığı kimi, qüdrətli və güclü Azərbaycanın gələcək iqtisadi və siyasi planlarını da qardaş Türkiyəni düşünərək müəyyənləşdirmişdir. Bu baxımdan Azərbaycan-Türkiyə əlaqələrinin indiki inkişaf səviyyəsini başa düşmək üçün Heydər Əliyevin bu əlaqələrinin strateji inkişaf xətti ilə bağlı həyata keçirdiyi siyasətin öyrənilməsi aktualdır.

Hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə Naxçıvanı düşdüyü ağır blokada vəziyyətindən xilas etməyə çalışan Ümummilli Lider Heydər Əliyev əsasən Türkiyə Cümhuriyyətinin köməyinə arxalanmış, Naxçıvanın ərazisinin işğalçı Ermənistanın təcavüzündən qorumaq üçün 1921-ci ildə imzalanmış Qars müqaviləsinin müddəalarına istinad etmiş

və Türkiyənin Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmasında qarantı olmasını diqqət mərkəzinə gətirmişdir [5, s. 331]. Hələ 1992-ci ilin 22-25 mart tarixlərində Ümummilli Lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri kimi Türkiyə Prezidenti T.Özal və Baş Nazir S.Dəmirəlin dəvəti ilə Türkiyə Respublikasında rəsmi səfərdə olmuşdu [6, s.1-2]. O zaman keçirilən görüşlərdə regionun siyasi vəziyyəti, ermənilərin Naxçıvana hərbi təcavüzü nəticəsində bölgənin blokada vəziyyətinə düşməsi və sair məsələlər müzakirə olunmuşdu. Səfər çərçivəsində, 24 mart 1992-ci il tarixdə tərəflər arasında “Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu” imzalanmışdı. Əldə edilmiş razılaşmaya uyğun olaraq tezliklə, Türkiyə Cümhuriyyətinə vətəndaşların gediş-gəlişini təmin etmək məqsədi ilə Sədərək körpüsünün tikintisinə başlanıldı. İki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək körpüsü 1992-ci ilin 28 mayında Türkiyənin o zaman baş naziri olan Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev tərəfindən açıldı [3, s.149]. Elə həmin gün Sədərək gömrükxanası yaradıldı. Yeni istifadəyə verilən Sədərək-Dilucu körpüsü Azərbaycan tərəfdən “Ümid” körpüsü, Türkiyə tərəfdən isə “Həsrət” körpüsü adlandırıldı. 1992-ci ilin avqust ayının 24-də Sədərək gömrükxanası rəsmi keçid qapısı elan edildi. Bununla da, Naxçıvanın blokadası qismən də olsa yarılmış oldu.

Azərbaycanın beynəlxalq aləmlə inteqrasiyasında, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu istiqamətdə kursun yüksələn xətt üzrə inkişafını ən yüksək səviyyədə təmin etdi.

Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti olaraq Türkiyəyə üç rəsmi, iki qeyri-rəsmi, on beş işgüzar səfər etməsi, məhz onun hakimiyyəti dövründə Türkiyə ilə Azərbaycan arasında 90-a yaxın saziş və müqavilələrin imzalanması Ümummilli Lider Heydər Əliyevin xarici siyasət konsepsiyasında Türkiyəyə verdiyi əhəmiyyətin və ölkələr arasındakı strateji birliyin hansı səviyyədə olduğunun göstəricisidir.

O, etnik-mədəni bağlılıq, tarixi köklər, ortaq dəyərlərlə yanaşı ortaq iqtisadi və siyasi maraqların təmin olunmasını da hər zaman əsas götürmüşdür. Təsadüfi deyildir ki, dünyanın ən zəngin neft yataqlarına sahib olan Azərbaycan öz neftinin digər ölkələrə nisbətən Türkiyə üzərindən dünya bazarına çıxarılmasına daha çox üstünlük vermişdir. Bu mənada Azərbaycan-Türkiyə münasibətlərinin daha yüksək səviyyəyə qalxmasında 1994-cü ilin 20 sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın müxtəlif ölkələrinin 11 böyük neft şirkəti arasında bağlanmış “Əsrin müqaviləsi” adlandırılan neft müqa-

viləsinin əhəmiyyəti də böyük olmuşdur. Qeyd etmək lazımdır ki, müqavilənin imzalandığı ilkin dövrdə müqavilədə Türkiyənin payı 1,75 faiz olsa da, sonradan Türkiyə dövlət başçılarının istəklərini və Türkiyə-Azərbaycan ortaq maraqlarını nəzərə alınaraq müqavilə imzalanandan sonra Azərbaycana qalmış hissədən 5 faiz də Türkiyə şirkətlərinə yer ayılmışdı. Beləliklə də, müavilədə Türkiyənin payı 6,75 faizə çatdırılmışdı. Hələ o zaman Ulu Öndər uzaqgörənliklə bir məsələyə toxunaraq demişdir: *“Müqavilənin önəmli bir cəhəti də neft şirkətləri konsorsiumunda Türkiyənin iştirak etməsidir. Bu bizim üçün çox əhəmiyyətlidir və güman edirəm ki, bunun sayəsində əməkdaşlığımız daha sürətlə inkişaf edəcəkdir. Müqavilənin əsas cəhətlərindən biri gələcək neft kəmərinin marşrutu ilə bağlıdır. Şübhəsiz ki, biz neft kəmərinin Türkiyə ərazisindən keçməsini istəyirik. Biz bu istiqamətdə birgə səy göstərəcəyik”* [1, s.328-329].

Bütün bu amilləri nəzərə alan Ümummilli Lider Heydər Əliyev davamlı təzyiqlərə baxmayaraq müdrik və uzaqgörən qərar qəbul etmişdir. 1996-cı ildə martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəlmişdilər. Bakı-Supsa xətti ilə neftin ixracı isə Azərbaycanla yanaşı birbaşa olaraq Türkiyənin də maraqlarına cavab verən məqam olmuşdur. Bakı-Supsa neft kəməri ilə ilkin Azərbaycan nefti 1999-cu il aprelin 17-də ixrac olunmağa başlanmışdır.

Ulu öndər Heydər Əliyevin 1997-ci ilin may ayında Türkiyə Cümhuriyyətinə səfəri ilə Azərbaycan-Türkiyə əməkdaşlığında yeni bir mərhələnin əsası qoyulmuş, müxtəlif sahələri əhatə edən 9 sənəd imzalanmışdır [2, s.37]. Münasibətlərdə yeni mərhələnin başladığını müjdələyən ən böyük və tarixi sənəd isə “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında strateji əməkdaşlığın dərinləşməsi haqqında bəyənnamə” olmuşdur.

1998-ci ilin 29 oktyabrında isə Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və müxtəlif təzyiqlərə baxmayaraq birmənalı şəkildə Türkiyənin və Azərbaycanın maraqlarının müdafiə edildiyi Bakı-Tiblisi-Ceyhan neft kəmərinin reallaşması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan, Türkiyə və Gürcüstan dövlət və hökumət rəhbərlərinin iştirakı ilə Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tiblisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyənnaməsi imzalanmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri, bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin 2001-ci ilin martında Türkiyəyə növbəti dəfə rəsmi səfəri isə xüsusilə Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlərin imzalanması ilə tarixə düşmüşdür [4, s.62-63].

Beləliklə, o zaman Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən gələcəyə hesablanmış müdrik layihələr onun siyasi yolunun layiqli davamçısı İlham Əliyev tərəfindən də uğurla davam etdirilmiş, Türkiyə ilə münasibətlər ən yüksək səviyyədə davam və inkişaf etdirilmişdir. Azərbaycan

bütün fəaliyyəti ilə sübut etmişdir ki, o Türkiyənin bu gün nəinki Qafqazda, bütün dünyada ən etibarlı müttəfiqidir. Eyni zamanda Azərbaycan Türkiyə üçün Qafqaz və Mərkəzi Asiyanın hər hansı digər dövlətindən iqtisadi baxımdan daha əlverişli ölkədir. Əgər ortaq dəyərlər, ortaq tarixi köklərin yanında ortaq iqtisadi, siyasi və strateji maraqlar varsa deməli, bu münasibətlər möhkəm özüllər üzərində dayanmışdır və istənilən xarici təsirlərə qarşı davamlıdır. Çünki Azərbaycan və Türkiyə bir millətin iki dövlətidir. Bu dövlətlərin taleyində isə Heydər Əliyevin imzası hər zaman görünəcəkdir.

2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycanın işğal edilmiş ərazilərini azad etmək üçün apardığı 44 günlük müharibədə qardaş Türkiyə Cümhuriyyətinin verdiyi böyük dəstək də məhz görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörənliyini bir daha sübut etmiş, Azərbaycan-Türkiyə dostluğunun əbədi və sarsılmaz olduğunu sübut etmişdir.

**Ədəbiyyat siyahısı:**

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı: Azərnəşr, 1997, 604 s.
2. Hüseynova F. Müstəqillik dövründə Azərbaycan–Türkiyə əlaqələrinin kulturoloji aspektləri (elm, təhsil, mədəniyyət). Bakı, Nurlan, 2007, 302 s.
3. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı:Təhsil, 2004, 472 s.
4. Kelbizade E. Türkiye-Azerbaycan İlişkilerinde Aliyev Vizyonu // Ekoavrasya. 2014, Yıl 7, Sayı 25, s.62-63.
5. Kəlbizadə E. XX əsrin son onilliyində Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin inkişaf tarixində // Tarix və onun problemləri. 2012. №2. s. 331-336.
6. Məmmədov M. Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü // Azərbaycan, 2008, 3 avqust, s.1-2.

# AZƏRBAYCANIN İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI İLƏ ƏLAQƏLƏRİ VƏ HEYDƏR ƏLİYEV

**Samudə İskəndərova**
*Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru*
*samudeiskenderova@bsu.edu.az*

**Açar sözlər:** Azərbaycan Respublikası, İslam Əməkdaşlıq Təşkilatı, beynəlxalq münasibətlər, əməkdaşlıq, islam dünyası
**Ключевые слова:** Азербайджанская Республика, Организация Исламского Сотрудничества, международные отношения, сотрудничество, исламский мир
**Keywords:** Azerbaijan Republic, Organization of Islamic Cooperation, international relations, cooperation, Islamic world

Azərbaycan müstəqilliyini bərpa edəndən sonra İslam dünyasına qayıtmaq və bu dünyada təmsil olunmuş dövlətlərlə əlaqələr qurmaq üçün əlverişli imkan yarandı. Bu istiqamətdə atılan uğurlu addımlardan biri İslam Əməkdaşlıq Təşkilatı ilə birbaşa əlaqələrin yaradılması oldu. Azərbaycan Respublikası 1991-ci ilin dekabrın 8-də təşkilatın üzvlüyünə qəbul olundu və təşkilatın iqtisadi-maliyyə imkanlarından rastlaşdığı iqtisadi çətinlikləri həll etmək imkanını əldə etdi.

Qeyd etmək lazımdır ki, Respublikamızda gedən ictimai-siyasi proseslərlə bağlı olaraq 1993-cü ilin mayından 1994-cü ilin may ayına qədər olan dövrdə Azərbaycanın bu təşkilatla əlaqələri lazımi səviyyədə olmamışdır. 1993-cü il iyun ayının 15-də Azərbaycanın ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verdi. Bu hadisə nəticə etibarilə müstəqilliyimizin əbədi, dönməz olmasında çox mühüm və əhəmiyyətli rol oynadı.

Heydər Əliyev hakimiyyətə gələn kimi, daxili və xarici siyasət məsələləri ilə bağlı problemlərin həllinə başladı. Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə tək tanınması deyil, özünə layiq yer tutması, etibarlı siyasi-strateji, mədəni partnyora çevrilməsi əsas şərtlərdən biri idi. Azərbaycan Respublikasının birtərəfli və çoxtərəfli şaxələrdə - beynəlxalq təşkilatlarda Ermənistanın ölkəmizə qarşı işğalçılıq müharibəsinin şiddətlə davam etdiyi bir vaxtda, bu təşkilatla əlaqələr və məsələhətləşmələr genişləndirilməli idi, onun imkanlarından məkirli düşmənin ifşası üçün geniş istifadə olunmalı idi. Lakin Azərbaycan diplomatiyası bu istiqamətdə aktiv iş aparmadı, yaranmış imkandan istifadə etməyi unutdu. Halbuki, İƏT-ə üzv olan dövlətlərin ermənilərə bir başa təsir etmək imkanları var. Bu ölkələrin bəzilərində (İran, İraq, Suriya, Türkiyə, Livan) çoxsaylı erməni icması məskunlaşmış, onların maddi-mənəvi

yardımından isə nəinki Ermənistan, həm də Dağlıq Qarabağ separatçıları bəhrələnirlər. İƏT-in qəti tədbirilə bu kanalları təcavüzkar Ermənistanın üzünə qapatmaq olardı. Bu istiqamətdə adı çəkilən ölkələrin rəsmi dairələri ilə danışıqlar aparılmalı və onların diqqəti bu məsələyə cəlb oluna bilərdi.

1994-cü ilin ortalarından etibarən bu təşkilatla əlaqələri canlandırmaq məqsədilə, Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfirinə ölkəmizi İKT-də təmsil etmək səlahiyyətləri verildi. Yalnız bundan sonra respublikanın xarici işlər nazirliyi bu təşkilatın Baş Katibliyi və ona tabe olan qurumlarla birbaşa əlaqələr qura bildi. Prezident Heydər Əliyevin 1994-cü ilin iyulunda Səudiyyə Ərəbistanına səfəri və Kəbəyə ümrə ziyarəti zamanı krallığın rəsmi şəxsləri, o cümlədən bu ölkənin dövlət başçısı Fəhd bin Əbdüləziz əl-Səudlə görüş və söhbətləri, Azərbaycan-İƏT əlaqələrinin canlanmasına və inkişafına təkan verdi. Bu səfər nəticəsində İslam ziyarətgahlarının qoruyucu olan Səudiyyə Ərəbistanın Azərbaycan haqqında təsəvvürləri genişləndi, ölkəmizin İslam aləminin bir üzvü olması yüksək səviyyədə bir daha təsdiqləndi.

Azərbaycan-İƏT münasibətləri daima yüksələn xətt boyu inkişaf etməkdədir. Əməkdaşlıq sağlam təməllər üzərində qurulmuş və görüşlər müxtəlif səpkidə həyata keçirilmişdir. İslam dininə və bu dinin birləşdirdiyi bütün müsəlman ölkələrinə böyük hörmət bəsləyən Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası ilə İslam Əməkdaşlığı Təşkilatının birgə əməkdaşlığında da rolu danılmazdır. Məhz onun səyi nəticəsində ilk dəfə bu təşkilat tərəfindən Ermənistan təcavüzkar bir dövlət kimi tanınıb, ondan işğal olunmuş torpaqların qeyd-şərtsiz çıxması, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmaq tələb olunmuşdur.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü xarici işlər nazirlərinin bir çox konfrans və toplantılarında daima müzakirə mövzusu olmuş, problemlə bağlı müvafiq qətnamələr qəbul edilmişdir. Toplantılarda iştirak edən bəzi ölkələrin nümayəndələri məsələ ilə bağlı çıxış edərək bu təcavüzə öz qiymətini vermişlər. Xarici işlər nazirlərinin 1993-cü ilin aprelində Kəraçidə keçirilmiş XXI Konfransı, 1994-ci ilin sentyabrında İslamabadda çağırılmış VII növbədənkənar Konfransı, 1994-cü ilin dekabrında Kasablankda keçirilmiş XXII, 1995-ci ilin dekabrında Konakridə çağrılmış XXIII, 1996-cı ilin dekabrında Cakartada keçirilmiş XXIV, 1998-ci ilin martında Dahada çağrılmış XXV və 1999-cu ilin iyununda Yaqaduquda çağrılmış XXVI Konfranslarında Ermənistanın ölkəmizə hərbi təcavüzü geniş müzakirə olunmuşdur və müvafiq sənədlər qəbul olunub. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təzavüzkar siyasət aparması vurğulanmış, ondan silahlı qüvvələrinin dərhal geri çağrılması tələb olunmuşdur.

Yekun olaraq qeyd edə bilərik ki, İƏT ilə respublikamızın əlaqələrinin gələcəkdə daha da inkişaf edəcəyi, diplomatiyamızın bu istiqamətdə işinin

canlandırılmasından və bir də ölkə daxilində İslama qayıdışda əsaslı dönüşün yaradılmasından asılıdır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan beynəlxalq aləmdə (Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar). I-II cildlər, Bakı, Göytürk, 1996-1999. I cild, 267 s.; II cild, 761 s.
2. “Azərbaycan” qəzeti. Bakı, 1991-2000-ci illər.
3. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Beynəlxalq Təşkilatlarla əlaqələr idarəsinin cari arxivi (İslam Konfransı Təşkilatı) (1994-2000-ci illər).
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-VIII kitabda, Bakı: Azərbaycan, 1997-1998-ci illər. I, 597 s.; II, 588 s.; III, 479 s.; IV, 513 s.; V, 490 s.; VI, 501 s.; VII, 509 s.; VIII, 472 s.
5. Qasımov Musa. Azərbaycanın xarici siyasəti (konsepsiya mə-sələləri). Bakı: Mütərcim, 1997, 124 s.
6. Qəndilov S. Azərbaycanın xarici siyasətinin başlıca istiqamətləri (iyun 1993-1997-ci illər) // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi sənədlər seriyası. 1998, №1.
7. Ənsari Həmid. Oyanış hədisi. Tehran, 1996, 189 s.
8۱۹۸۵ سید حمید روعانی، نحضرت امام خمینی. تهران،7
9.https://apa.az/az/daxili_siyaset/heyder-eliyevin-hakimiyyete-qayidisi-milli-musteqil-dovletimizin-heyatinda-donus-noqtesi-oldu-movqe-538372.

# HEYDƏR ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN ƏSAS VƏZİFƏ VƏ İSTİQAMƏTLƏRİ (1993-2003)

**Sübhan Talıblı**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*subhantalibli@gmail.com*

**Açar sözlər:** Azərbaycan Respublikası, Heydər Əliyev, xarici siyasət, diplomatiya, dövlət müstəqilliyi, beynəlxalq təşkilatlar
**Ключевые слова**: Азербайджанская Республика, Гейдар Алиев, внешняя политика, дипломатия, государственная независимость, международные организации
**Keywords:** The Azerbaijan Republic, Heydar Aliyev, foreign policy, diplomacy, state of independence, international organization

1991-ci ilin 18 oktyabrında Azərbaycan Xalq Cümhiriyyətinin siyasi və hüquqi varisi olan Azərbaycan Respublikası ikinci dəfə dövlət müstəqilliyini qurduqdan sonra müstəqil dövlətimizin daxili və xarici siyasətinin əsası qoyuldu. 1995-ci ilin 12 noyabrında Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edildi, Azərbaycanda dövlət quruculuğu, qanunların qəbulu, daxili və xarici siyasətin təsniflatlaşdırılması həyata keçirildi. Azərbaycanın yerləşmiş olduğu region geosiyasi, strateji və iqtisadi baxımdan dünyanın siyasi xəritəsində əhəmiyyət kəsb etdyinə üçün Azərbaycanın həm qonşuluq siyasətində, həm də digər region ölkələri ilə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. Burada bütün dövlətlərlə eyni cür məsafə saxlamaq, ilk olaraq Azərbaycanın milli maraqlarını önə çəkmək əsas olaraq götürülür. Xarici siyasətdə balanslaşdırma siyasətinin əsas olaraq götürülməsi Azərbaycanın yerləşmiş olduğu regionun həssas olmasından irəli gəlir.

Heydər Əliyevin hakimiyyəti dövründə müstəqil Azərbaycan Respublikasının xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycanın Konstitusiyasında, Heydər Əliyevin etdiyi xarici səfərlərdə, yerli və xarici KİV-ə verdiyi müsahibələrdə, çıxışlarında, xüsusilə onun tərəfindən həyata keçirilən xarici siyasət strategiyasında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının xarci siyasətinin əsas vəzifələri - ölkənin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü, təhlükəsizliyini qorumaq və bunları beynəlxalq təhlükəsizlik sistemi ilə əlaqələndirmək; mənafeyi Azərbaycanın milli maraqları ilə həmçinin dövlətçilik maraqları ilə uyğun gələn

ölkələrlə daha sıx əməkdaşlıq, müttəfiqlik etmək. Bu imkanlardan istifadə edərək beynəlxalq sistemdə mövqeyini bərkitmək; regionda baş vermiş hər hansı bir gərginliyin və ya münaqişələrin aradan qaldırılmasına səy göstərmək; xalqın mənafeyinə uyğun xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatını beynəlxalq iqtisadi sistemdə təmsil etmək; xarici ölkələrlə elmi, mədəni, humanitar əlaqələr qurmaq və bu kimi təşkilatlarda fəal iştirak etmək və s. məsələlər olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin qarşısında duran bir sıra mühüm problemlərin, xüsusilə dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, beynəlxalq və regional təşkilatlar çərçivəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, Ermənistanın hərbi təcavüzü və regional güclər tərəfindən yaradılmış Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması, işğal olunmuş ərazilərimizin işğaldan azad edilməsi və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmaı, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünya inteqrasiya prosesinə sıx cəlb olunmasında beynəlxalq və regional təşkilatların rolundan istifadə etmək məqsədi ilə - BMT, ATƏT, İƏT, Türk Dövlətləri Birliyi, MDB, BVF, QDİƏT, Ümumdünya Bərpa və İnkişaf Bankı və İslam İnkişaf Bankının üzvü oldu, Parlamentlərarası İttifaq, AB, AŞ, Avropa Parlamenti, NATO və b. beynəlxalq və regional təşkilatlarla+ qarşılıqlı faydalı əlaqələr xüsusi rol oynamışdır.

Azərbaycan Respublikasının müstəqil xarici siyasət yürütməsi və bu kursun milli maraqlara cavab verən uğurlu nəticələri bilavasitə Heydər Əliyev irsinin, onun uzaqgörənliklə müəyyənləşdirdiyi və davamlı şəkildə inkişaf edən, yeniləşən xarici siyasət kursunun bəhrəsidir. Hazırda Azərbaycan Respublikası dünyanın bir sıra mötəbər beynəlxalq və regional təşkilatlarının tamhüquqlu üzvü, eləcə də dünyanın 177 dövləti ilə diplomatik əlaqələr qurmuşdur. Azərbaycanda xarici dövlətlərin 80-dən çox səfirlik və konsulluğu fəaliyyət göstərir. Bundan başqa, 62 ölkədə Azərbaycanın səfirlikləri, konsulluqları və daimi nümayəndəlikləri vardır.

Ulu öndərin memarı olduğu və irs qoyduğu uğurlu və çevik xarici siyasət kursunun başlıca vəzifələri – ölkənin müstəqilliyinin, beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunması, təhlükəsizliyinin regional və beynəlxalq təhlükəsizlik sistemləri ilə əlaqələndirilməsi, Azərbaycanın beynəlxalq və regional təşkilatlarda təmsilçiliyi, bərabərhüquqlu birgəyaşayış normaları ilə tənzimlənən dünya siyasətində və beynəlxalq, regional təşkilatlarda fəal iştirakı, bütün dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması, mənafeləri Azərbaycanın milli maraqları ilə uzlaşan dövlətlərlə tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılması, ölkənin demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə irəliləməsi, vətəndaşların əsas hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş beynəlxalq normaların icrasına, regionda hərbi-siyasi gərginliyin aradan qaldırılmasına şəraitin yaradılması,

xarici iqtisadi siyasətin yürüdülməsi və digər məsələlərin icrası bu gün də davam etdirilməkdədir. Bütün bu vəzifələr və onların icrasına yönəldilən fəaliyyət Azərbaycan Respublikasının beynəlxalq, regional və dövlətlərarası münasibətlər səviyyəsində atdığı addımlarda və imzaladığı müqavilələrdə öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə desək: *“Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmlənməsidir”.*

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildiyi ilk gündən etibarən beynəlxalq münasibətlərdə milli maraqların üstünlüyünü təmin etmiş, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə sədaqətini daim nümayiş etdirmişdir. Bu kursun ali məqsədi dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, ölkənin təhlükəsizliyinin, milli dövlətçilik hüquqlarının təmin olunması və beynəlxalq təhlükəsizlik sistemi ilə uzlaşdırılmış fəaliyyətdir. Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət strategiyası ilk növbədə xalqımızın üzləşdiyi problemlərin, xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla tənzimlənməsinə, ölkəmizin dövlətlərarası, regional və beynəlxalq əlaqələrinin möhkəmlənməsinə, dünya birliyinə sıx inteqrasiyasına yönəldilmişdir. Azərbaycanın uğurlu xarici siyasət kursu xarici ölkələrlə siyasi, iqtisadi və mədəni əməkdaşlıq sahəsində onu etibarlı tərəfdaş kimi tanıtmışdır. Cənubi Qafqaz regionu üzərindən transsərhəd nəqliyyat və kommunikasiya dəhlizlərinin çəkilişi təşəbbüsləri, bir tərəfdən, Azərbaycanın tranzit imkanlarını, iqtisadi-maliyyə potensialını genişləndirmiş, digər tərəfdən, həmin layihələrə bir sıra strateji əhəmiyyətli dövlətləri cəlb etməklə ətrafına tərəfdaşlar toplamışdır. Xüsusilə də, Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət nəticəsində, eləcə də İlham Əliyevin Ali baş komandan kimi hərbi strategiyası, hücum diplomatiyası, xalq-ordu birliyi nəricəsində 44 günlük Vətən müharibəsində təcavüzkar Ermənistan dövləti və onu dəstəklər qüvvələr tərəfindən işğal olunmuş ərazilərimiz azad olundu.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan beynəlxalq aləmdə. I-VI cildlər. Bakı, 1996-2001.
2. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu. Bakı, Poliart MMC, 2017, 904 s.
3. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi, I hissə. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi. Bakı, 2005.
4. Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2011, II hissə, Bakı, 2014, 336 s.

5. Beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq // https://www.mfa.gov.az/az/content/ 16/beynelxalq-ve-regional-teskilatlarla-emekdasliq. Müraciət tarixi: 15.03.2021
6. Eyyubova S.E. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2007-ci illər). Bakı, 2009, 174 s.
7. Heydər Əliyev və Şərq. 6 cilddə. Müəllif tərtibçilər: Qalay Allahverdiyev XİN-in müşaviri, f.e.d. Vəhdət Sultanzadə XİN-in müşaviri. Bakı: Ozan, 2002.
8. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan, 2005, 631 s.
9. Qasımlı M. C. Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003). II hissə. Bakı: Mütərcim, 2015, 664 s.
10. Qasımlı M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991–2003). I hissə. Bakı: Mütərcim, 2015, 648 s.
11. Məmmədov N.İ. Xarici siyasət: reallıqlar və gələcəyə baxış. Bakı, Qanun nəşriyyatı, 2013, 264 s.
12. Məmmədov N.İ. Xarici siyasətin Azərbaycan modeli. Bakı, Çaşıoğlu, 2012, 464 s.
13. Talıblı S.Ə. İran İslam Respublikasının Qafqaz siyasətində Dağlıq Qarabağ problemi (1991-2005-ci illər). Bakı, Elm və təhsil, 2016, 362 s.

# QAFQAZDA SÜLHÜN, SABİTLİYİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU VƏ FƏALİYYƏTİ

**Yeganə Baxşiyeva**
*AMEA Qafqazşünaslıq İnstitutu, Qafqaz siyasəti şöbəsinin elmi işçisi*
*ybakhshiyeva@gmail.com*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, təhlükəsizlik, Qafqazda sülh, regional inteqrasiya, ərazi bütövlüyü, Dağlıq Qarabağ
**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, безопасность, мир на Кавказе, региональная интеграция, территориальная целостность, Нагорный Карабах
**Keywords:** Azerbaijan, Heydar Aliyev, security, peace in the Caucasus, regional integration, territorial integrity, Nagorno-Karabakh

Azərbaycan Qafqazda yerləşən mühüm geosiyasi, geoiqtisadi və geostrateji cəhətdən əhəmiyyətli ölkə olaraq hər zaman regionda aparıcı dövlət olmuşdur. Lakin 1993-cü ildə Azərbaycan dövlətinin təhlükəsizlik məsələləri dərin böhranlı günlərlə üz-üzə qalmışdı. Bu dövrdə Azərbaycanın maddi və mənəvi potensialından düzgün istifadə olunmaması dövlətin əsas sütunlarını sarsıtmışdır. Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətində nümayiş etdirdiyi siyasi iradə, həyata keçirdiyi ardıcıl məqsədyönlü tədbirlər sayəsində Azərbaycanın mühüm geostrateji potensialı Qafqazda sülhün, sabitliyin təmin olunmasını şərtləndirən amilə çevrildi [2, s.16].

1993-cü ildən etibarən Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və ölkənin ərazi bütövlüyünün bərpası uğrunda çoxşaxəli siyasi fəaliyyətini genişləndirdi. Ulu öndər bu problemin siyasi yolla həlli məsələsini təkcə Azərbaycanın deyil, bütün Qafqaz regionunun təhlükəsizliyində prioritet məsələyə qaldırdı [3].

Heydər Əliyevin müdrik liderlik missiyasının əsasını Qərb ölkələri ilə əməkdaşlıqda yeritdiyi strateji siyasət və Azərbaycanın malik olduğu təbii sərvətlərindən, zəngin karbohidrogen ehtiyatlarından məqsədyönlü istifadə amili təşkil edirdi. Onun uzaqgörən siyasətinin nəticəsi olaraq Qafqazda sülhün, sabitliyin qorunması məsələləri ABŞ-ın, Avropa dövlətlərinin, Rusiya, İran, Türkiyə, Çin kimi böyük dövlətlərin diqqətinə səbəb olmuşdur [4].

1996-cı ildə Azərbaycan və Gürcüstan arasında “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik” haqqında imzalanmış “Tbilisi Bəyannaməsi” Qafqazda sülhün təminatı məsələsində mühüm əhəmiyyətə malikdir. Məhz bu sənədin

imzalanmasından sonra Heydər Əliyevin təşəbbüsü ilə “Qafqaz dördlüyü” adlandırılan Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan dövlətlərinin prezidentləri Qafqazda, sülh, əmin-amanlıq, təhlükəsizlik, əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda Bəyannamə” qəbul etmişdilər [1, s.25-32].

Heydər Əliyev 1993-cü ildə Qafqazda Qərbin güc bloklarının mübarizəsini neytrallaşdırmaq üçün ardıcıl şəkildə məqsədyönlü siyasi tədbirlər həyata keçirdi. Bu siyasətin bariz nümunəsi kimi 1999-cu ildə ATƏT-in İstanbul sammitində Heydər Əliyev tərəfindən “Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı”-nın yaradılması ilə bağlı təşəbbüsünü göstərmək olar.

Daha sonra 2002-ci ildə Türkiyənin Trabzon şəhərində regionun enerji təhlükəsizliyi, sülh və sabitliyi təmin etmək məqsədi ilə Azərbaycan, Türkiyə və Gürcüstan arasında imzalanmış “Trabzon razılaşması” terrorizmə, aqressiv separatizmə, çirkli pulların yuyulmasına qarşı mübarizə və neft-qaz borularının mühafizəsi istiqamətində mühüm əhəmiyyət kəsb edən sənədlərin siyahısına daxil oldu.

Bununla yanaşı Heydər Əliyevin daha bir uğurlu siyasətinin nəticəsi olan 1994-cü ildə sentyabrın 20-də dünyanın aparıcı dövlətləri tərəfindən Bakıda imzalanan “Əsrin Müqaviləsi” sazişi Qərb kapitalının Azərbaycana yönəlməsinə vəsilə oldu.

Heydər Əliyevin tükənməz cəsarəti, qətiyyəti sayəsində ərsəyə gəlmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, TRASEKA və digər beynəlxalq əhəmiyyətli layihələr Qafqazda sülhün, sabitliyin qorunmasında əsas amillərə çevrildi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin uğurlu siyasəti beynəxalq əməkdaşlıqda Qafqaz dövlətlərinin inteqrasiyası amilini önə çəkirdi. Qafqazda sülh, mədəni və iqtisadi inteqrasiya proseslərində 1997-ci il Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova dövlətləri tərəfindən yaradılan GUAM təşkilatı təsis edildi. Eyni zamanda BMT, ATƏT, Avropa Şurası və NATO kimi beynəlxalq təşkilatlarla hərtərfli əməkdaşlıq uğurla davam etdirildi.

Heydər Əliyevin siyasi fəaliyyəti təkcə Azərbaycanın deyil, bütün Qafqazın sülh və rifah şəraitində yaşayışına istiqamətlənmişdir. Bu mənada Rusiya Xalqlar Assambleyasının sədri, tanınmış siyasi xadim Ramazan Abdulatifovun belə bir fikrini xatırlatmaq gərəkdir: “*Heydər Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq, dərk etmək mümkün olacaq. Heydər Əliyev tarixi şəxsiyyət və Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. Belə nəhəng lider təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarda da lazımdır...”* [5, s.358-359].

Heç şübhəsiz, bütün bunlar Heydər Əliyevin “Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!” ideyasına sədaqətinin, müstəqil Azərbaycanın sülh siyasətinin real və parlaq nəticəsi kimi yüksək qiymətləndirilməsidir.

**Ədəbiyyat siyahısı:**

1. Dünyanı heyran qoyan insan. Buraxılışa məsul R.Mehdiyev. Bakı, Azərnəşr, 2004.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I XXIV k. Bakı, 1997-2008.
3. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, 2003.
4. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti http://www.anl.az/down/meqale/azerbaycan/2010/may/117713.htm.Müraciət tarixi: 02.03.2021.
5. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008.

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# HEYDƏR ƏLİYEVİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN ƏLAQƏLƏRİ

**Aybəniz Babayeva**
*Bakı Dövlət Universiteti, doktorant*
*aybanizababayeva@bsu.edu.az*

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, Türkiyə
**Ключевые слова:** Гейдар Алиев, Азербайджан, Турция
**Keywords:** Heydar Aliyev, Azerbaijan, Turkey

Azərbaycanla Türkiyə arasındakı münasibətlər uzun bir tarixə malikdir. Ortaq mənşə, dil, dini birlik, oxşar mədəniyyət, adət və ənənələr bu münasibətləri zəruri edən əsas amillərdir. Heydər Əliyevin prezidentliyə seçilməsindən sonra iki ölkə arasındakı əlaqələr Əliyevin “Bir millət iki dövlət” tezisi əsasında sürətlə inkişaf etməyə başladı. Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında həmişə köklü dostluq münasibətləri qurmuş, əlaqələrin genişləndirilməsinə böyük əhəmiyyət vermişdi. Əliyev vəzifəyə ilk dəfə başlayanda Prezident Sileyman Dəmirəllə əvvəlcədən mövcud olan yaxşı münasibətlər daha da yaxşılaşdı. Əvvəlki dövrlərdə Azərbaycandakı neft tenderlərində Türkiyəyə verilən pay artırıldı, Bakının elektrik paylama tenderi də daxil olmaqla bir çox vacib tender Türkiyə şirkətlərinə verildi. Azərbaycan-Türkiyə münasibətləri 1991-1993 və 1993-cü ildən sonra iki dövrə bölmək olar. Bu mərhələdə münasibətlərin fərqli olduğu görülür. 1991-1993-cü illər - bu dövrdə münasibətlərin emosional səviyyədə inkişaf etdiyini söyləmək olar. Tarixi, mədəni, dini, dilçilik və s. tərəfdaşlıqlar iki ölkəni duyğusal olaraq bir araya gətirir, digər tərəfdən, hər iki digər beynəlxalq aktyorun da müdaxiləsi Azərbaycanda dəyişən hökumətlərin fərqli siyasi baxışlarına görə, və yuxarı-aşağı bir xüsusiyyət göstərdi. 9 Noyabr 1991-ci il tarixində Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasının tanıması Azərbaycanla əlaqələrin daha da genişlənməsinə səbəb oldu. Heydər Əliyevin dövründə Türkiyə ilə Azərbaycan arasında yüksək səviyyəli səfərlərin sayı daha da artdı. Bu səfərlərin əsas mövzusu Azərbaycanın müstəqilliyinin qorunması, Qarabağ problemi, Qafqazdakı inkişaflar və ölkələr arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi məsələləri idi. Xüsusilə, Azərbaycan Prezidenti H.Əliyev və Türkiyə Prezidenti Dəmirəl arasındakı dostluq ikitərəfli münasibətlərin inkişafına kömək etdi. Bu münasibətlərdə, bir tərəfdən, ölkənin qarşılıqlı iqtisadi, siyasi, sosial, mədəni və hərbi maraqları ABŞ, Rusiya, Fransa kimi ölkələr və ATƏT və NATO kimi beynəlxalq təşkilatların fikirlər təsirli oldu. Xülasə olaraq, bu dövrdə ikitərəfli münasibətlər bir millət, iki dövlət idi və eyni xətt üzrə irəlilədilər və Azərbaycan və Türkiyə

strateji tərəfdaşlıq sahəsində yeni inkişaflar əldə edildi və müxtəlif sahələrdə inkişaflar baş verdi. Süleyman Dəmirəl ilə Prezident H.Əliyev arasındakı dostluq münasibətləri, yaşanan müxtəlif çətinliklərə baxmayaraq, müəyyən bir səviyyəyə çatdı.

Ulu Öndərin dövründə Türkiyə-Azərbaycan münasibətləri, demək olar ki, bütün sosial sahələrdə, xüsusən siyasət və iqtisadiyyatda böyük bir inkişaf göstərdi. Zamanla iki ölkə arasındakı yaxınlıq görülən işlərlə strateji tərəfdaşlıq səviyyəsinə çatdı. Azərbaycan tarixində iz qoymuş Azərbaycanı “həyat” edən və indiki vəziyyətinə gətirməsində fəal rol oynayan mərhum Heydər Əliyev də “Türkiyə-Azərbaycan”ı möhkəmləndirməkdə atdığı addımlar çox mühüm rol oynuyur və Heydər Əliyevin “balans siyasəti” istehsal edə bilən və bunu çox yaxşı həyata keçirə bilən bir lider olduğunu sübut etdi. Bu, Azərbaycanın daxili və xarici siyasət baxımından daha məhsuldar bir ölkəyə çevrilməsində mühüm rol oynadı. Heydər Əliyev Prezidentliyi dövründə keçmiş təcrübələri ilə çox bacarıqlı bir şahmatçı olduğunu açıqladı. Bir anda gələcəyi yaxşı oxudu və Azərbaycanı möhkəm yerə qoymaq qabiliyyətini göstərdi. Türkiyənin türk Cümhuriyyətləri ilə əlaqələri arasında Azərbaycan xüsusi bir mövqeyə malikdir.

İki xalqın coğrafi yaxınlığı və dillərinin oxşarlığının iki ölkə arasındakı münasibətlərin inkişafı üçün müsbət bir amil olduğunu söyləmək olar. Türkiyə üçün Azərbaycan ortaq bir dil, mədəniyyət və tarixin paylaşıldığı vacib bir ölkədir. Eyni zamanda, Azərbaycan türkcəsi, türk türkcəsinə ən yaxın ləhcəsidir. Ləhcə fərqlərinə baxmayaraq, eyni dildə danışmağımız, tarixi əlaqələrimiz və mədəni tərəfdaşlığımız Türkiyə-Azərbaycan əlaqələrinin inkişafının ən vacib səbəblərindəndir. Buna paralel olaraq, Azərbaycan, Türk iş adamları tərəfindən ticarət və investisiya qoyuluşuna görə türk respublikaları arasında ən çox seçilən ölkədir. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə olmaqla yanaşı, Türkiyə ilə ilk səfirlik müqaviləsini bağlayan ölkədir. Türkiyə və Azərbaycan türkləri uzun illər “eyni millətin oğulları” olaraq eyni dam altında yaşayıblar. Heydər Əliyev Azərbaycan ilə Türkiyə arasında köklü dostluq əlaqələrinin genişləndirilməsinə həmişə böyük əhəmiyyət vermişdir.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev M. Türkiye-Azerbaycan Alakaları. Bakü: Mütercim Yayınları, 1998
2. Adıgüzel H. Zirve Haydar Aliyev’in Hayatı. İstanbul: İleri yayınları. 2007.
3. Cahangirli H.C. Azerbaycan Türkiye (Haydar Aliyev, Süleyman Demirel, İ Doğramac hakkında). Bakü: Çaşıoğlu yayınları, 2004.
4. Seferov P. Azerbaycan Respublikası Rusya, İran ve Türkiye’nin geosiyasi maraqlarında. Bakü, 2011.
5. Nesibov E. ABD ve Türkiye’nin Kafkas Geosiyasi Regionunda Strateji maraqları ve Azerbaycan Respublikası. Bakü: Çırak yayınları, 2006.

.

# III BÖLMƏ

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV KURSUNUN LAYİQLİ DAVAMÇISIDIR

## ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ PROSESİNDƏ HEYDƏR ƏLİYEV İRSİ VƏ İLHAM ƏLİYEVİN UĞURLU FƏALİYYƏTİ

**Qasım Hacıyev**
*AMEA Qafqazşünaslıq İnstitutu Ermənişünaslıq şöbəsinin müdiri, Bakı Dövlət Üniversitetinin professoru, tarix elmləri doktoru*
*gasimh@mail.ru*

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, İlham Əliyev, Qarabağ
**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, Ильхам Алиев, Карабах
**Keywords:** Azerbaijan, Haydar Aliyev, İlham Aliyev, Karabakh

Azərbaycan ərazilərinə XIX əsrdə köçürülmüş və XX əsrdə dövlət yaradılmış ermənilər Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə etnik təmizləmə aparmış, terror, kütləvi qırğın və soyqırımlar törətmişlər. XX əsrin sonlarında Ermənistan Azərbaycana təcavüz edərək 20% ərazimizi işğal etmiş, 30 il işğal altında saxlamış, şəhər və kəndləri dağıdıb xarabalığa çevirmiş, abidələri məhv etmişdir. Münaqişənin həllinə imkan verməyən Ermənistan yeni ərazi təhdidləri ilə müharibənin yenidən alovlanmasına səbəb olmuşdur. Əks–həmlə əməliyyatı ilə 44 gün ərzində Azərbaycan dövləti işğal altında olan torpaqlarını azad etmişdir. Bütün bu proseslər Heydər Əliyevin hakimiyyəti dövründən başlayan mübarizənin yeni mərhələyə qədər davamı və Ulu Öndərin mübarizə irsini davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ali Baş Komandanlığı, müzəffər Azərbaycan Ordusunun rəşadəti ilə torpaqlarımızın işğaldan azad edilməsi ilə başa çatmışdır. Bu, Azərbaycan gəncliyində böyük vətənpərvərlik ruhunun yüksəlməsində mühüm stimul qazanmışdır.

1. Sovetlər dövründə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün gizli işlər aparıldığı zaman (60-70-cı illərdə) Ümummilli Lider Heydər Əliyev ermənilərin apardığı gizli fəaliyyətləri aşkar edərək qarşısının alınması üçün bir sıra tədbirlərin görülməsinə nail oldu.

2. Heydər Əliyev Moskvaya Siyasi büroya mühüm dövlət vəzifəsinə dəvət olunandan sonra ermənilər sosial vəziyyətin pisləşməsini və buna görə də “Azərbaycan hökumətinin rəhbərliyi altında yaşamağın mümkünsüzlüyünü” ön plana çəkərək ictimai fikri çaşdırdılar.
3. 1989-cu ilin fevral ayında DQMV-in Ermənistana birləşdirilməsinə dair qərar münaqişənin kəskinləşməsinə səbəb oldu.
4. Dünya ölkələrinin maraqlarının iki qütbdə cəmləşdiyi və münasibətlərin gərginləşdiyi bir dövrdə cərəyan edən hadisələr “Qarabağ problemi”nin ətrafında cəmləşdirildi.
5. Ümummilli Lider Heydər Əliyev hələ Naxçıvan MR Ali Məclisinin sədri vəzifəsində işləyərkən dəfələrlə o zamankı Azərbaycan rəhbərliyini xəbərdar etmişdi ki, ermənilərin beynəlxalq aləmdə Azərbaycana qarşı yeritdikləri təbliğat və informasiya müharibəsi çox təhlükəlidir və bu ağır nəticələrə gətirə bilər.
6. Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə I Qarabağ müharibəsi başlandı.
7. Azərbaycanda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev bütün gücünü müstəqil dövlətimizin dünyada tanınmasına, onun beynəlxalq nüfuzunun artmasına, ictimai-siyasi, iqtisadi və mənəvi həyatın bütün sahələrində dünya birliyinə inteqrasiya olunmasına yönəltdi.
8. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası 1993-cü ilin ikinci yarısından hərtərəfli düşünülmüş, aydın, ardıcıl və prinsipial siyasi kurs başlandı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dünya səviyyəsinə çıxarılması və həlli ilə bağlı xüsusi konsepsiya hazırlayaraq konkret vəzifələri həyata keçirildi.
9. Heydər Əliyevin Dünya ölkələrinə səfərləri zamanı dövlət başçıları və qurum rəhbərləri ilə müxtəlif səviyyəli görüşlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə dair fikirləri söhbətlərin əsas mövzusunu təşkil etdi.
10. Heydər Əliyev müharibəni dayandırmaq üçün göstərdiyi təşəbbüs 1994-cü ilin mayında atəşkəsin əldə edilməsi ilə nəticələndi.
11. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində dövlət başçısı özünün əsas diqqət və səylərini beynəlxalq və məhəlli təşkilatlarda münaqişə haqqında əsl həqiqətlərin dünyanın siyasi dairələrinə və dünya ictimaiyyətinə çatdırılmasına, Ermənistanın təcavüzkar kimi tanıdılmasına, Azərbaycanı dəstəkləyən ölkələrin sayının artırılmasına və bu təşkilatların yığıncaqlarında münaqişənin həlli yollarına dair qərarlar qəbul edilməsinə nail oldu.
12. Heydər Əliyevin gərgin fəaliyyətinin nəticəsində ATƏT-in Lissabon sammitində (1996-cı ilin dekabrında keçirilən) Azərbaycan diplomatiyası böyük uğur əldə etdi.

13. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vətənimiz, xalqımız, dövlətimiz üçün gördüyü nəhəng işlər hamını əmin etdi ki, Azərbaycanda onun yürütdüyü siyasətin alternativi yoxdur, ölkəmizin davamlı inkişafı, vətəndaşlarımızın firəvan həyatı, xoşbəxt gələcəyi məhz həmin siyasətin varisliyindən, dövlət hakimiyyətinin bu siyasətin həyata keçirilməsini təmin edəcək etibarlı davamçısından asılıdır. Bunu dərindən dərk edən xalqımız yeni minilliyin ilk prezident seçkilərində çox müdrik seçim etdi: Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı İlham Əliyevə səs verdi.
14. Ulu Öndərin beynəlxalq səviyyədə etdiyi çıxışlarında Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı və müasir ərazisinin bir hissəsi olması fikri öz əksini layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik çıxışlarında tapdı.
15. Azərbaycan Prezidenti cənab İlham Əliyev müasir Azərbaycanın bütün uğurlarının Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirdi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Heydər Əliyevin başladığı siyasi kursu uğurla davam etdirdi.
16. Prezident cənab İlham Əliyevin apardığı çevik diplomatik mübarizə ilə təcavüzkar Ermənistan dövlətinin ən müxtəlif səviyyələrdə ifşası davam etdi.
17. Beynəlxalq təşkilatların fəaliyyətsizliyini - BMT TŞ-ın qətnamələrini Ermənistanın yerinə yetirməməsini, ATƏT-in Minsk qrupunun isə bununla bağlı heç bir adekvat qərar qəbul etməməsini Prezident cənab İlham Əliyev dəfələrlə diqqətə çatdırdı.
18. Azərbaycan Respblikası Prezidenti cənab İlham Əliyev etibar etdiyi dövlətlərin Ermənistanın ifşası istiqamətində səylərinin daha da artırılmasının vacibliyini önə çəkdi.
19. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində nəinki tutduğu mövqedən çəkilmədi, hətta hücum diplomatiyasına üstünlük verdi.
20. Prezident İlham Əliyevin çıxışlarında işğal edilmiş torpaqlarımızın azad edilməsi üçün bütün vasitələrdən istifadə ediləcəyini, hətta hərbi yolla həll edilə biləcəyini də vurğuladı.
21. Prezident İlham Əliyev Ulu Öndərdən irs qalan xarici və daxili siyasət kursunu yüksək qabiliyyətlə, dəyanətlə həyata keçirdi.
22. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ermənistanın 30 ildə möhkəmləndirdiyi hərbi sədləri ağıl, tədbir və cəsarətlə məhv etdi.
23. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan Ordusunun şücaəti və xalqımızın mütəşəkkilliyi ilə Ermənistanı kapitulyasyaya uğratdı, Azərbaycan Respublikasının işğal edilmiş ərazilərini azad etdi.

24. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qardaş Türkiyə Cümhuriyyətinin dövlət başçısı sayın Rəcəb Təyyüb Ərdoğanla gördüyü böyuk işlər Zəfər paradında nümayiş olundu.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. Bakı şəhəri, 29 dekabr 2000-ci il.
2. Azərbaycan 2003: İnкişaf strategiyasında yeni mərhələ. Baкı: 2005, 520 s.
3. Azərbaycan beynəlxalq aləmdə. Azərbaycan Respubliкasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölкələrə səfərlərinə dair materiallar. I-IV cildlər. (c.I, 1996, 268 s.; c.II, 1997, 761 s.; c.III, 1998, 776 s.; c. IV, 1999, 520 s.). Baкı: Göytürк, 1996-1999. I k.
4. Azərbaycan Respubliкasının prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölкələrə səfərlərinə dair materiallar, I-IV cild. Bakı: Göytürk, 1996-1999, 1997.
5. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə toplantısının yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələrilə görüşdə nitqi - Prezident sarayı, 6 dekabr 1996-cı il. http://lib.aliyev-heritage.org/az/682837.html.
6. Azərbaycan prezidenti Ilham Əliyevin Fransa Beynəlxalq Əlaqələr İnstitutunda görüşü. // Dirçəliş – XXI əsr, 2004, № 71, s.15-28.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında çıxışı. 26 aprel 2011-ci il.
8. Dağlıq Qarabağın azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında İlham Əliyevin nitqi, 06 iyul 2010.
9. Dirçəliş - XXI əsr, 2003, dekabr, №70, s.103.
10. Hacıyev İ.M. Naxçıvan Muxtar Resublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan: Əcəmi, 2012, 272 s.
11. Hacıyev Q.Ə. Ermənistanın Azərbaycan Respublikasının Naxçıvan və Qarabağ torpaqlarına əsassız ərazi iddialarının qarşısı alınmalıdır // Azərbaycan qəzeti. 2008, 3 aprel, № 68, s.6.
12. Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti (Azərbaycan, ingilis və fransız dillərində). Bakı: Təhsil, 2010, 152 s.
13. Hacıyev Q.Ə. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi. Bakı: Təknur, 2014, 400 s.
14. Hacıyev Q. Nuriyev Sədi. Vladimir Kazimirovun “Qarabağa sülh” arzusu və əsilniyyəti. Bakı: Təknur, 2011, 130 s.
15. Hacıyev Q.Ə., Əbdüləzimov Ə.Ş. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Qarabağ tarixi kursu üzrə dərslik. Bakı: Ərgünəş FM NPM, 2019, 120 s.
16. Heydər Əliyev Fondunun 6 illiyinə həsr olunmuş mərasimdə Prezident İlham Əliyevin nitqi. 10 may 2010.

17. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Altıncı kitab: mart, 1996 – iyun, 1996 / bur. məsul R.Mehdiyev. Bakı: Azərnəşr, 1998, 512 s.
18. Heydər Əliyev: Biz Azərbaycan ərazisində ikinci bır erməni dövlətinin yaranmasına yol verə bilmərik. Bakı, 2006. 472 s.
19. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. III cild. Bakı: Elm və təhsil, 2020, 432 s.
20. Hüseynova İ.M. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, 672 s.
21. İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. I k. Bakı, 1999.
22. İlham Əliyev Qarabağda Azərbaycan bayrağını öz əli ilə ucaltdı // Azərbaycan qəzeti, 17 noyabr 2020-ci il.
23. İlham Əliyev. Qafqaz bütün hərbi bazalardan azad olmalıdır (23 yanvar 2004-cü il “Fiqaro” qəzetinə verdiyi müsahibə) // Dirçəliş – XXI əsr, 2004, № 71, s.5-8.
24. İlham Əliyev. YAP-n 20 illik yubleyi münasibətilə “Buta” sarayında nitqi,16 noyabr 2012.
25. Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: Təhsil, 2009, 320 s.
26. Məmmədov N.R. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti (1923-1991). Bakı, 2008, 568 s.
27. Prezident İlham Əliyev “Vətən xilaskarı” ordeni ilə təltif edilsin – Q.Hacıyev. https://az.trend.az/azerbaijan/politics/3354245.html, siyasət, 23 Dekabr 2020.
28. Prezident: 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi // Ədalət qəz., 14 yanvar 2021-ci il. https://photo.azertag.az/post/prezident-ilham-eliyev.
29. Mehdiyev Ramiz. Əsl vətəndaş, böyüк şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr // Dirçəliş - XXI əsr, 2003, № 64, s.58-87.
30. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003.
31. Mehdiyev R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: məqalələr, çıxışlar, müsahibələr. I-II c. Bakı: 2006-2007, 524 s.
32. Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Baкı: Vətən, 1995, 83 s.
33. Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında İlham Əliyevin nitqi. 16 sentyabr 2010.

# AZƏRBAYCAN ORDUSUNUN VƏTƏN MÜHARİBƏSİNDƏ ŞANLI ZƏFƏRİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Kəmalə Nəcəfova**
*Bakı Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent*
*Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini*
kamalanajafova@bsu.edu.az

**Açar sözlər:** Vətən Müharibəsi, şanlı zəfər, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Laçın dəhlizi
**Ключевые слова:** Отечественная Война, славная победа, Президент Азербайджанской Республики, Главнокомандующий Вооруженными Силами, Лачинский коридор
**Keywords:** Patriotic War, glorious victory, President of the Republic of Azerbaijan, Commander-in-Chief of the Armed Forces, Lachin corridor

XX əsrin 80-ci illərinin sonları - 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla ümumilikdə 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

2020-ci il dekabrın 1-də ən böyük rayonlarımızdan biri, ərazisi 1800 kvadratkilometr, hal-hazırda 80 min nəfərə çatan əhalisi və zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimiz olan Laçın rayonunun Azərbaycana geri qaytarılması ilə 44 gün davam edən Vətən müharibəsi Zəfərlə başa çatmış oldu.

Qeyd etmək lazımdır ki, 1992-ci ilin may ayında Azərbaycanın alınmaz qalası Şuşanın işğalından bir neçə gün sonra məhz Laçının işğal altına düşməsi ilə Ermənistan çox vacib bir dəhliz əldə etmiş oldu və məhz bu dəhliz vasitəsilə Dağlıq Qarabağa silah-sursat, canlı qüvvə göndərirdi. Ondan təxminən bir il sonra çox çətin relyefi olan Kəlbəcər rayonu işğal altına düşdü. Ardınca Ağdam, Fizuli, Cəbrayıl, Qubadlı və Zəngilan. Odur ki, Laçının azad olunmasının Azərbaycan üçün böyük siyasi və hərbi-strateji əhəmiyyəti var idi.

Təsadüfi deyil ki, erməni tərəfi məhz Laçının qaytarılmaması üçün müxtəlif dövlətlərin vasitəsi ilə Azərbaycana diplomatik təzyiqlər göstərmişdir, məqsəd isə bir idi: Laçını qaytarmamaq. Böyük zəfər münasibətilə Xalqa

müraciət edən Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqər çəkmişdir: “30 ilə yaxın aparılan danışıqlarda Laçın rayonunun Azərbaycana qaytarılması, xüsusilə Laçın dəhlizi ilə bağlı olan məsələ həmişə çox önəmli və ayrı bir mövzu kimi müzakirə olunurdu. Ermənistan tərəfi, ümumiyyətlə, hesab edirdi ki, bütün Laçın rayonu onlara dəhliz kimi verilməlidir. Əfsuslar olsun ki, bəzi Qərb dairələri bu mövqeyi dəstəkləyirdi. Bu da Ermənistanın mövqeyini daha barışmaz edirdi və demək olar ki, düşmən tamamilə azğınlaşmışdı. Bunun nəticəsində, məhz Laçın rayonunda çox ciddi məskunlaşma siyasəti aparılırdı. İşğaldan azad edilmiş digər yerlərdə qanunsuz məskunlaşma baş verirdi, amma bu dərəcədə yox, bu həcmdə yox. Misal üçün, əgər Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarına baxsaq, orada daha çox hərbi hissələr yerləşirdi. Çünki orada bütün evlər, binalar mənfur düşmən tərəfindən dağıdılmışdı. Orada hərbçilər, onların ailə üzvləri yaşayırdı və çox az sayda mülki əhali yaşayırdı. Xaricdən gətirilən ermənilər oraya göndərilmirdi. Laçın rayonu isə artıq Ermənistan tərəfindən çox ciddi dərəcədə nəzarətə alınmışdı və orada çox böyük məskunlaşma proqramı icra edilmişdi. Orada minlərlə insan yaşayırdı və bəzi məlumatlara görə, bəlkə də 10 minə yaxın insan yaşayırdı. Yəni, Ermənistan rəhbərliyində Laçın rayonunu Azərbaycana qaytarmaq fikri olmamışdır. Biz Laçın dəhlizi haqqında danışıqlar zamanı mövzulara toxunarkən həmişə həm Ermənistan, həm də onun havadarları qeyd edirdilər ki, yox, Laçın rayonu ayrı mövzudur. Birbaşa bizə deyilməsə də, belə bir fikir həmişə var idi ki, Laçın rayonu hansısa formada Ermənistana qalmalıdır”.

Təxribatlarını davam etdirən Ermənistan və onun havadarları Azərbaycan, Rusiya və Ermənistan dövlət başçılarının imzaladıqları, Azərbaycanın qələbəsi və Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən Bəyanatın ilkin versiyasında Laçın dəhlizinin eninin əvvəl 30 kilometr, sonra isə 10 kilometr olmasını təklif edirdilər. Ermənistan tərəfinin bu iddiasının tamamilə əsassız olduğunu, dəhliz çərçivəsində təhlükəsizlik tədbirlərini təmin etmək üçün bu qədər geniş dəhlizə ehtiyac olmadığını və məhz buna görə də tamamilə qəbuledilməz təklif olması barədə qəti fikrini bildirən Prezident İlham Əliyevin qəti iradəsi nəticəsində eni 5 kilometr eni olan Laçın dəhlizi haqqında razılıq əldə edildi. Beş kilometr həm bizim üçün, həm Dağlıq Qarabağda yaşayan ermənilər üçün və təhlükəsizliyi təmin etmək üçün kifayət qədər məsafəni əhatə edir. Şuşa şəhərinə toxunmayacaq 5 kilometr enliyində dəhliz Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalacaq və növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək. Dəhliz istifadəyə veriləndən sonra həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi baş verəcək. Yalnız bundan sonra Laçın şəhəri tam mənası ilə Azərbaycana qaytarılacaq. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən

yeni nəqliyyat kommunikasiyalarının inşası - bu məsələnin tam və gələcəyə hesablanmış çərçivədə həll edilməsinin ən böyük təminatı oldu.

Beləliklə, Azərbaycan Ordusunun döyüşlərdə əldə etdiyi zəfərlər və Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin ən incə detallarına qədər dəqiq düşünülmüş və çevik diplomatik addımları, nəticədə Azərbaycanın Vətən müharibəsində şanlı qələbəsi ilə nəticələndi. Azərbaycan öz gücü ilə BMT Təhlükəsizlik Şurasının 28 ildə kağız üzərində qalan beş qətnamələrinin tələblərinə uyğun olaraq Ermənistan qoşunlarının Azərbaycanın bütün işğal olunmuş ərazilərindən çıxarılmasını təmin etdi. Azərbaycan Respublikasının dünya birliyi tərəfindən tanınmış qanuni ərazilərini öz gücü ilə, yəni hərbi yolla geri qaytaran azərbaycan xalqı həm də əzilmiş qürurunu, şərəf və ləyaqətini də xilas etmiş oldu.

Beləliklə, Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu, xalq-iqtidar birliyi və ən əsası Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Cənab İlham Əliyevin qəti iradəsi ölkəmizin müqəddəs Vətən müharibəsində qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək). M.Abdullayevin elmi redaktorluğu ilə. Bakı: Bakı Universiteti, 2016, 412 s.
2. Azərbaycan tarixi. Ali məktəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli) A.Ə.Rzayevin ümumi redaktəsi ilə. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, 544 s.
3. Azərbaycan qəzeti (2020-ci il).
4. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasınınbaş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı // https://president. az/articles/ 45924.
5. Azərbaycan Respublikasının Prezident İlham Əliyevin xalqa müraciəti // https:// president.az/articles/45924.

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN-ÇİN MÜNASİBƏTLƏRİ

**Mələkxanım İsmayılova**
*Bakı Dövlət Universiteti, magistrant*
*melekismayilova777@gmail.com*

Rəyçi: prof. İsmayıl Musa

**Açar sözlər:** Azərbaycan, Çin, Heydər Əliyev, İlham Əliyev, siyasət
**Keywords:** Azerbaijan, China, Heydar Aliyev, Ilham Aliyev, politics
**Ключевые слова:** Азербайджан, Китай, Гейдар Алиев, Ильхам Алиев, политика

Azərbaycan-Çin əlaqələrinin qədim tarixi kökləri vardır. Azərbaycan qədim İpək Yolunun üzərində yerləşdiyinə görə ən qədim dövrlərdən Şərqi Asiya, o cümlədən Çin ilə ticari-iqtisadi və mədəni əlaqələri mövcud olmuşdur. Azərbaycanın əlverişli strateji və coğrafi mövqeyi ilə bağlı Ümummilli Lider Heydər Əliyev demişdir: “Azərbaycan Asiya ilə Avropanı birləşdirən bir növ körpü, o cümlədən ticarət körpüsü olmuşdur... Tarix və coğrafiya Azərbaycanla Çin arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaratmışdır” [4, s. 290].

ÇXR Azərbaycan Respublikasının dövlət müstəqilliyini 1991-ci il dekabrın 27-də tanımışdır. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 2-də qurulmuşdur. Həmin ilin avqust ayında Çin Xalq Respublikasının Bakıda səfirliyi açılmışdır. 1993-cü ildə isə Azərbaycanın bu ölkədə səfirliyinin açılması bütün istiqamətlərdə qarşılıqlı əlaqələrin güclənməsinə təkan vermişdir [5, s. 376].

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan Respublikasının dünya siyasətində fəallaşması sayəsində Çin ilə münasibətlərdə də yeni, yüksəliş mərhələsi başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin mart ayında Çin Xalq Respublikasına səfərinin iki ölkə arasında bütün sahələrdə tərəfdaşlığın genişlənməsində misilsiz rolu olmuşdur [7, s. 80].

Azərbaycanın qarşılaşdığı “Dağlıq Qarabağ problemi” və Çinin üzləşdiyi “Şərqi Türküstan”, Tibet, Tayvan məsələləri də tərəflər arasında yanaşmada müəyyən uzlaşmanı şərtləndirmişdir. BMT TŞ-nın beş daimi üzvündən biri olan Çin həmişə AR-in ərazi bütövlüyünə və onun sərhədlərinin toxunulmazlığına tərəf çıxmışdır. Öz növbəsində rəsmi Bakı Çinin adıçəkilən problemlərinə münasibətdə onun mövqeyini müdafiə etmişdir [8, s. 769].

Ulu Öndər Heydər Əliyevin ÇXR-ə səfəri iki ölkə arasında münasibətlərin inkişafı üçün təmas nöqtələrinin axtarılaraq müəyyən edilməsində və əlaqələrin yeni əməkdaşlıq istiqamətinə daxil olmasına şərait yaratmaqla ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açır, münasibətlərin gələcək perspektivlərinin müəyyənləndirilməsinə imkan verirdi [4, s. 458]. Bu gün Çin Azərbaycan arasında iktərəfli münasibətlər siyasi, iqtisadi, mədəniyyət və s. sahələrdə davam etdirilir.

Çinin iqtisadi inkişafı həyata keçirilən siyasət nəticəsində sürətlənmiş və enerji ehtiyatlarının istehlakı xeyli dərəcədə artmışdı. ÇXR-in enerji siyasəti Xəzər hövzəsindəki dövlətlərlə yaxşı əlaqələr inkişaf etdirməyi hədəfləyir. Bu dövlətlərdən biri olan Azərbaycan strateji yeri və enerji ehtiyatlarına görə ÇXR xarici siyasətində prioritet bir mövqedə durur [9, s. 97]. Çin Azərbaycanla enerji sahəsində əməkdaşlığa daim maraq göstərmişdir. Bu baxımdan 2002-ci ilin iyun ayında ARDNŞ ilə Çin Neft-Kimya Korporasiyasının törəmə müəssisəsi olan Şengli şirkəti arasında qarşılıqlı anlaşma memorandumunun imzalanması əhəmiyyətli hadisə olmuşdur [9, s. 85]. ÇXR Milli Enerji Şirkətləri vasitəsi ilə Azərbaycanla ikitərəfli müqavilələr imzalamağı və bununla da Azərbaycan resurslarını ÇXR-ə ötürməyi hədəfləyir. Bundan əlavə, ÇXR Azərbaycanda infrastruktur sərmayələri qoyaraq ölkənin iqtisadi inkişafına birbaşa təsir göstərməyi hədəfləyir.

2005-ci il 17-19 mart tarixlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu ölkəyə dövlət səfəri iki ölkə arasında çoxcəhətli əməkdaşlıq baxımından mühüm bir addım olmuşdur. Bu səfər zamanı ÇXR ilə Azərbaycan arasında 13 hökumətlərarası müqavilə imzalanmışdır. ÇXR tərəfi üçün enerji mənbələrinin şaxələndirilməsi və Azərbaycanla enerji əlaqələrinin intensivləşdirilməsi prioritet bir məsələ olmuşdur [1, s.113].

2013-cü ildə Çin Xalq Respublikası tərəfindən irəli sürülümüş “Bir Kəmər Bir Yol” təşəbbüsü ikitərəfli münasibətlərimizin genişləndirilməsinə və dərinləşməsinə yeni imkanlar yaratmışdır. Azərbaycan “Bir Kəmər Bir Yol” təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri olaraq, reallaşdırdığı irimiqyaslı nəqliyyat-infrastruktur layihələri ilə bu təşəbbüsün həyata keçirilməsinə öz əhəmiyyətli töhfəsini verməkdədir [2].

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ilin dekabrında Çinə rəsmi səfəri zamanı “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında İpək Yolu İqtisadi Kəmərinin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu” imzalanıb. Bu barədə 2019-cu ilin aprelində Çinin “Sinxua” agentliyinə müsahibəsində Prezident İlham Əliyev belə deyib: “Mənim 2015-ci ildə Çinə səfərim zamanı bir çox mühüm sənədlər imzalanmışdır. Bunların sırasında iki ölkə arasında imzalanmış “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu da var idi. Azərbaycan Çinin “Bir kəmər, bir yol” təşəbbüsünü tam

dəstəkləyir. Azərbaycan və Çin arasında nəqliyyat sahəsində əməkdaşlıq üçün çox yaxşı perspektivlər var” [3].

Azərbaycanın “Bir kəmər, bir yol” layihəsinə verdiyi önəm 2017-ci ilin oktyabrında “Bakı-Tbilisi-Qars” dəmir yolunun açılışı ilə öz təsdiqini tapıb. Çin hökuməti “Bakı-Tbilisi-Qars” dəmir yolunun istifadəyə verilməsini, bu yolun tikintisində Azərbaycanın rolunu, eləcə də “Bir kəmər, bir yol” layihəsinə verdiyi dəstəyi yüksək qiymətləndirib [3].

2019-cu il aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinə işgüzar səfər edib və ayın 26-27-də Çinin paytaxtı Pekində keçirilən 2-ci “Bir kəmər, bir yol” Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib [6].

Beləliklə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda da Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycan Respublikasının xarici siyasət kursu öz bəhrəsini verməkdədir. Azərbaycan Respublikası bu gün regional iqtisadi inkişafın aparıcı qüvvəsidir. Ölkəmiz Xəzər hövzəsinin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Bir sözlə, Azərbaycan həm siyasi, həm də iqtisadi baxımdan Cənubi Qafqaz regionunun lideridir. Çin Xalq Respublikası da bu sahədə Azərbaycanın ən mühüm və ən əsası isə etibarlı tərəfdaşlarındandır.

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri – Azərbaycanın xarici siyasəti: Sənədlər məcmuəsi: Bakı: Qarisma, MMC, 2009, 648 s.
2. Azərbaycan Çin ikitərəfli münasibətləri // https://www.mfa.gov. az/az/content/360/cin (istinad tarixi 18.04.2021).
3. Azərbaycan - Çin münasibətləri// https://lib.aliyevheritage.org/az/3739431.html (istinad tarixi 18.04.2021).
4. Heydər Ə. Müstəqilliyimiz əbədidir (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr). Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
5. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 752 s.
6. İlham Əliyev Pekində 2-ci “Bir kəmər, bir yol” Forumunda iştirak edir// https://president.az/articles/32878 (istinad tarixi 18.04.2021).
7. Qasımov (Qasımlı) M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər) Bakı, Gənclik, 1996, 140 s.
8. Musa İ. Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Bakı Universiteti, 2011, 776 s.
9. Talıbov R. Asiya ölkələri beynəlxalq münasibətlər sistemində. Bakı, Elm və təhsil, 2015, 312 s.

*“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.*
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

# AZƏRBAYCANDA DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİNİN QORUNMASI: İLHAM ƏLİYEV

**Paşa Zeynalov**
*Bakı Dövlət Universitetinin magistrantı*
Pasazeynalov97@gmail.com

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, İlham Əliyev
**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, Ильхам Алиев
**Keywords:** Azerbaijan, Haydar Aliyev, İlham Aliyev

Azərbaycanın Ümumilli Lideri Heydər Əliyevin siyasi baxışını anlamaq və onun fəaliyyətini analiz etmək üçün respublikanın son 40 il ərzində keçdiyi yola nəzər salmaq kifayətdir. Heydər Əliyevin siyasi perspektivləri Azərbaycan xalqının tarixinin mühüm hissəsini təşkil edir. Azərbaycanın bugünkü mövqeyinin təməlinin qoyulmasında Ulu Öndərin əvəzsiz xidmətləri olmuşdur. Yaxın keçmişi təhlil etsək görərik ki, məhz bu dövr Azərbaycan tarixində elə bir mərhələ yoxdur ki, orada dahi şəxsiyyətin əməyindən bir hissə belə olmasın. Onun əl izləri hər dönəmdə özünü göstərir. Heydər Əliyevin siyasətinin əsasında qurmaq, yaratmaq, inkişaf etdirmək ideyaları əsas yer tutur və Ümummilli Lider bu istiqamətdə siyasət yürüdərək ölkənin gələcəyini müəyyənləşdirən layihələrlə öz sözünü demişdir. Ulu Öndər milli-mənəvi dəyərlərə, ideyalara daima bağlılıq nümayiş etdirmişdir.

Uzaqgörən siyasətçi Heydər Əliyev sürdüyü qiymətli və mənalı ömür yolunda daima Azərbaycanın inkişafı, xalqın mənafeyinin yüksəldilməsi uğrunda mübarizə aparmışdı.

Heydər Əliyev hakimiyyətdə mövqe tutduğu ilk dövrdən, 1969-cu ildən bəri respublikanın ümumi və hərtərəfli inkişafı istiqamətində siyasət yürütməyə başlamışdır. Bu sferada təhsil, elm, kənd təsərrüfatı, neft sənayesi, neft emalı və neft-kimya sənayesi, ordu mühafizəsinin inkişafı uğrunda tayı-bərabəri olmayan xidmətlər sərgiləmişdir [3].

Dünya siyasətçilərinin xüsusiyyətlərini müqayisə etsək, onların sırasında Heydər Əliyev kimi yurduna, torpağına bağlı olan, millətin gələcəyini düşünən ikinci bir şəxsi tapmaqda çətinlik çəkərik. O, SSRİ-dəki ən çətin idarəetmə sistemində belə öz mövqeyini asanlıqla bildirirdi. Xüsusən də, Sovet respublikalarının dilinin məhdudlaşdırılması və onların millilikdən uzaqlaşdırılması ideyası ilə qətiyyən razılaşmırdı.

Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti ilə Azərbaycan XX əsrin 70-ci illərində böyük uğurlar qazana bilmişdi. Ulu Öndər nüvə enerjisindən rahat istifadə etmək üçün elmi və praktiki məsələlərin gedişatına xüsusilə diqqət ayırmış və həmçinin, həmin sahədə Azərbaycanda elmi-texniki məsələlərin inkişaf etməsi üçün

vacib şərait yaratmışdır. Həmin dövrdə Azərbaycan ən müasir, inkişaf etmiş ölkələr sırasında idi.

Heydər Əliyev nüvə enerjisindən səmərəli istifadəni təmin etmək məqsədilə Radiasiya Tədqiqatı Sektoru yaratdı. Bunun üçün xüsusi olaraq Azərbaycan rəhbərliyinə və möhkəm radioizotop mənbə kompleksi, elektron sürətləndiricilər, müasir kimyəvi və fiziki laboratoriyalar təshih edilmişdi.

Ümumillli Liderin inkişafa dair siyasətində ön planda insan resursu idi. Yeni inkişaf etdirilən sahələrdə çalışacaq peşəkar və təcrübəli kadrlar hazırlamaq məqsədilə dövrün gənclərini SSRİ-nin nüvə məktəbində müxtəlif növ təlimlər keçmələri üçün universitetlərə və aspiranturalarda təhsil almalarını təmin etmişdir. Bu siyasətin nəticəsi olaraq 50-dən çox professional biliklərə malik kadrlar yetişmişdi. Çoxlu sayda tələbələr, Moskvanın Obninsk nüvə insitutlarına öyrənmələri üçün göndərilirdi. Bütün bu maarifləndirici addımların nəticələrindən biri Azərbaycanlı Alimlər Birliyinin əksər nüvə mərkəzlərində elmi işlər aparması və mühüm elmi nəticələr əldə etmələri oldu. Heydər Əliyevin SSRİ-dəki nüfuzu digər nüvə obyektlərində müstəqil araşdırmalarımızı aparmağa və insan resurslarımızı daha da genişləndirməyə imkan vermişdir [5].

Milli dövlətçilik ənənələrinin formalaşmasında Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri danılmazdır. O, təkcə siyasi xadim kimi deyil, həm də yüksək insani keyfiyyətləri ilə də sevilən və seçilən şəxsiyyət idi. Etdiyi fədakarlıqları, səmərəli işgüzarlığı, uzaqgörən rəhbərliyi və təşkilatçılıq qabiliyyəti nəticəsində Azərbaycan bu illər boyunca sürətlə və hərtərəfli şəkildə inkişafa nail oldu. Bu gün keçmiş Sovet İttifaqının lider respublikalarından birinə çevrilə bildi.

Respublikamızda bütün fəaliyyət növlərinin - sənaye, elm, təhsil, səhiyyə, elmi intensiv istehsalat sahələrinin getdikcə inkişaf etməsi Heydər Əliyevin yürütdüyü siyasəti və məqsədyönlü fəaliyyəti ilə təmin olunmuş, bununla yanaşı intellektual, elmi, texniki və iqtisadi potensialı əsaslı şəkildə artırılmışdır. XX əsrin 60-cı illərinə kimi sənaye məhsullarından asılılığı ilə qarşılaşan Azərbaycan, 70-ci illərdə təxminən 65-ə yaxın ölkəyə 350 müxtəlif çeşiddə məhsul ixracatçısı olmuşdu. XX əsrin sonlarında Azərbaycan dünyada neft və qaz avadanlığı istehsalında ABŞ-dan sonra ikinci böyük ölkə hesab olunurdu. Heydər Əliyev Azərbaycan SSRİ-nə rəhbərlik etdiyi dövrdə Azərbaycan milli kadrlarının hazırlanmasına da xüsusi diqqət yetirmişdir. Azərbaycan tələbələrinin keçmiş Sovet İttifaqının ən nüfuzlu universitetlərində oxumağa göndərilməsi Heydər Əliyevin göstərdiyi əzmin nəticəsi idi. Vurğulamaq lazımdır ki, 1969-1982-ci illərdə təxminən 10.000-dən çox azərbaycanlı tələbə Rusiyada, Ukraynada və başqa ölkələrdə tanınmış universitetlərdə oxuduqdan sonra respublikaya yenidən geri qayıtdı. Tələbələrin xaricdə bir müddət təhsil alması Azərbaycanın inkişafına böyük təsir göstərdi [7].

Heydər Əliyev siyasi mühitində böyümüş və bu gün onun uğurlu siyasətinin davamçısı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevdir. O, Ulu Öndər məktəbinin məzunudur. İlham Əliyev hakimiyyətə gəldiyi ilk gündən etibarən hökuməti xalqın vicdanlı xidmətçisi kimi qiymətləndirmişdir.

İlham Əliyev yeni dövr Azərbaycan və həmçinin dünya tarixinin müdrik siyasətçiləri sırasında ön yerlərdə dayanır. Onun həyata keçirdiyi planların nəticəsi olaraq bu gün dövlətimiz sürətli və əhəmiyyətli dərəcədə inkişaf yolu keçməkdədir.

İlham Əliyev Milli Məclisdə deputat kimi fəaliyyət göstərdiyi zamanlardan bəri aktiv şəkildə layihələr irəli sürürdü. O, prezident olduqdan sonra belə hər zaman xalqın arasında olub, onların çətinlik çəkdiyi məsələləri araşdırıb öyrənərək daima sosial müdafiəyə ehtiyacı olan şəxslərə qayğı ilə yanaşmışdır. O dövrdə İlham Əliyevin əhalinin fərqli təbəqələrinə, qaçqınlara, məcburi köçkünlərə və Qarabağ müharibəsi əlillərinə qayğısı, Qaradağ bölgəsində və ölkənin digər bölgələrində apardığı böyük quruculuq işləri doğma insanlara göstərilən bu qayğının parlaq təzahürüdür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsində ağıllı və uzaqgörən siyasəti ilə Qarabağ həsrətini uğurla başa çatdırdı. Xalqımızın ən ağrılı və yaralı yeri olan Qarabağ həsrəti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı və Azərbaycan ordusunun mərdliyi, əzmliliyi ilə Azərbaycana qələbə gətirdi. Dünyada silahlı münaqişələrin həlli prosesi, təxminən 50 və hətta demək olar ki, 100 il çəkməsi, siyasi, tarixi, ideoloji, elmi və ictimai fəaliyyətlə məşğul olan hər kəsə məlumdur. Ali Baş Komandan İlham Əliyev yeni reallıqlar yaradaraq düşməni “dəmir yumruqla” əzib məhv etdi. Bu reallıq erməni kilsəsinin, erməni diasporasının, radikal ermənilərin 100 illik planlarının, ermənilik ideologiyasının məhv edilməsi idi. Bu reallıq Azərbaycan xalqının arzusu olan Ulu Öndər Heydər Əliyevin iradəsinin reallaşması idi. Bu gerçəyi yaradan Prezident İlham Əliyev tarixə adını qızıl hərflərlə yazdı.

**Ədəbiyyat siyahısı**:

1. Abdullayev F. Haydar Aliyev Azerbaycan'ın bağımsız göç politikasının kurucusudur /Feteli Abdullayev //Asia Minor Studies, 2013 Special issue, p.1-9.
2. Müstəqillik yollarında: oktyabr 1993-avqust 1994 / bur. məsul F.Abdullazadə. Bakı: Azərbaycan, 1997, C.I, 558 s.
3. Алиев Гейдар. Азербайджанская ССР в братской семье советских народов: Докл. на Торжеств. заседании ЦК КП Азербайджана и Верховного Совета АзССР, посвяш. 50-летию АзССР и КП Азербайджана, 2 окт. 1970 г.. Баку: Азернешр, 1980, 38 с.
4. Андриянов В., Мираламов Г. Гейдар Алиев /Виктор Андриянов, Москва: Молодая гвардия, 2005, 393 с.
5. Heydər Əliyev yolunun davamçısı… https://azerbaijan.az/related-information/152 (istinad tarixi: 29.04.2021).
6. Paşayev H. Xalqa və dövlətə şərəfli xidmət missiyası // http://anl.az/down/meqale/ azerbaycan (istinad tarixi: 29.04.2021)
7. Məmmədov M. “Prezident İlham Əliyevin gördüyü işlər bütün dünya üçün nümunədir” // https://sesqazeti.az/news/politics/816960.html İstinad tarixi: 29.04.2021.
8. “Əhalinin əksəriyyəti İlham Əliyevin gördüyü işləri bəyənir” // http://www. kaspi.az (istinad tarixi: 29.04.2021).

## MÜNDƏRİCAT

**ÖN SÖZ**.......................................................................................... 4

**I BÖLMƏ. HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASININ XİLASKARI VƏ QURUCUSUDUR**

**Anar Həmidov**
Ulu Öndər Heydər Əliyev və Azərbaycanda hərbi təhsilin inkişafı (1969-1982-ci illər) ................................................................... 7

**Aytac Xəlilova**
Azərbaycan təhsilinin qurucusu Heydər Əliyev .................................. 11

**Cavad Yusifli**
Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradıcısıdır ............... 14

**Hicran Mahmudova**
XX əsrdən başlayan ənənə və XXI əsr: antropologiya elminin inkişafı...................................................................................... 17

**Məftunə Abdullayeva, Ayşən Mustafayeva**
Heydər Əliyevin dövlət strategiyası: daxili və xarici siyasət ................ 20

**Neyman Xasayev**
Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan respublikasının qurucusu və xilaskarıdır............................................. 23

**Səidə Quliyeva**
Heydər Əliyevin erməni faşizminə qarşı mübarizəsi: demoqrafik problemlərin tənzimlənməsi üçün həyata keçirilən tədbirlər................ 27

**Şahnaz Əmirova**
Azərbaycan respublikası milli təhlükəsizlik sistemində Heydər Əliyev strategiyasının rolu .................................................... 31

**Tohid Məmmədov, Əhliman Dadaşzadə**
Ümummilli Lider Heydər Əliyevin insan amilinə yanaşmasının ümumi cəhətləri ..................................................................... 34

**II BÖLMƏ. HEYDƏR ƏLİYEVİN DÖVLƏT STRATEGİYASI: XARİCİ SİYASƏT İSTİQAMƏTLƏRİ**

**Aynur Səfərli**
Türkiyə-Azərbaycan qardaşlığı ədəbi və mədəni əlaqələrdə ............... 39

**Bəxtiyar Nəbiyev**
Ümummilli Lider Heydər Əliyevin xarici siyasətində strateji konseptual yanaşma ........................................................................ 43

**Elnur Əbilov**
Müstəqil Azərbaycan və beynəlxalq təşkilatlar Heydər Əliyevin əsərlərində ........................................................................................ 47

**İbrahim Zeynalov**
Azərbaycan: istiqlaldan müstəqilliyə.................................................... 51

**İlahə Bağırova**
Ümummilli Lider Heydər Əliyevin dövründə Azərbaycan respublikasının beynəlxalq təhlükəsizlik sistemində iştirakı ............... 55

**Kemal Çiçek**
Haydar Aliyev ve politikalarina dair bazi düşünceler ………………... 59

**Kəmalə Qurbanova**
Ümummilli Lider Heydər Əliyev və Azərbaycan-Türkiyə əlaqələrinin strateji inkişaf xətti ......................................................................... 63

**Samudə İskəndərova**
Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələri və Heydər Əliyev ....................................................................................... 67

**Sübhan Talıblı**
Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan respublikasinin xarici siyasətinin əsas vəzifə və istiqamətləri (1993-2003) ................. 70

**Yeganə Baxşiyeva**
Qafqazda sülhün, sabitliyin qorunmasinda Heydər Əliyevın rolu və fəaliyyəti ........................................................................................ 74

**Aybəniz Babayeva**
Heydər Əliyevin hakimiyəti dövründə Türkiyə-Azərbaycan əlaqələri.. 77

**III BÖLMƏ. AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV HEYDƏR ƏLİYEV KURSUNUN LAYİQLİ DAVAMÇISIDIR**
**Qasım Hacıyev**
Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsının həlli prosesində Heydər Əliyev irsi və İlham Əliyevin uğurlu fəaliyyəti...... 79

**Kəmalə Nəcəfova**
Azərbaycan ordusunun Vətən müharibəsində şanlı zəfərini şərtləndirən amillər ........................................................................... 84

**Mələkxanım İsmayılova**
Müstəqillik dövründə Azərbaycan-Çin münasibətləri .......................... 88

**Paşa Zeynalov**
Azərbaycanda dövlətçilik ənənələrinin qorunması: İlham Əliyev ........ 91

***“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.***
*Beynəlxalq elmi konfrans. 8 may 2021-ci il. Bakı*

**Çapa məsul:** dosent Kəmalə Nəcəfova
dosent Səidə Quliyeva
t.f.d.Günel Əliyeva-Məmmədova
t.f.d.Hicran Mahmudova

**“Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafında Heydər Əliyevin rolu”.** Bakı Dövlət Universitetinin Tarix fakültəsinin təşkilatçılığı ilə keçirilmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. 8 may 2021-ci il. Bakı: 2021. – 97 s.